Xalqın qəzeti!

# Xalq qəzeti

№ 16 (30710) 25 yanvar 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Dövlət – özəl tərəfdaşlığı islahatlara dəstək verir

Səhifə ⇨ 7

# “3+3” perspektivli regional əməkdaşlıq platformasıdır

*Bölgə dövlətləri Bakının təklif etdiyi bu mexanizmin üstünlüklərini qəbul edirlər*

**Əlverişli geosiyasi və coğrafi məkan, zəngin təbii sərvətlər, bunlardan heç də az əhəmiyyət kəsb etməyən iki qitənin kəsişməsində tutduğu mövqeyi ilə transmilli nəqliyyat habına çevrilmək perspektivi. Bütün bunlar Qərbi Cənubi Qafqaza cəlb edən strateji amillərin ümumi siyahısıdır. Hələ yüz il bundan əvvəl böyük dövlətlərin maraqlarının kəsişmə nöqtələrindən biri kimi dünyanın diqqət mərkəzində olan bölgə statusuna yiyələnmiş Cənubi Qafqaza haqqı çatmayan kənar aktorların müdaxilə cəhdlərini də az görməmişik.**




Xüsusilə, Qarabağ münaqişəsinin həllinə vasitəçilik missiyalarını bəhanə edərək bölgədə bayraqlarını sancmağa iddialı olan “kollektiv Qərb”in problemin həllinə deyil, özəl maraqlarının təmin olunmasına yönəlik siyasətini unutmamışıq. Nə yazıq ki, bu gün də məlum tendensiyanın davamını müşahidə etməkdəyik. Reallıq ondan ibarətdir ki, Hayastanın qərbli tərəfdaşları münaqişənin həllinə hər hansı töhfə vermədikləri bir yana, bölgədə yeni qarşıdurmaların yaranmasının səbəbkarı oldular. Artıq hamıya məlumdur ki, “kollektiv Qərb”in ayağının dəydiyi yerlərdə vəziyyət yaxşılaşmayıb, əksinə, pisliyə doğru istiqamətlənib.

Cənubi Qafqaz regionunda əməkdaşlıq və təhlükəsizlik məsələləri həmişə aktual olub. “Qafqaz evi”, yəni “3+3” altı dövlətin – Türkiyə, İran, Rusiya, Gürcüstan, Ermənistan və Azərbaycanın vahid platformadan çıxış etməsini nəzərdə tutan məhz regional platformadır. Bakının təklif etdiyi bu platforma çərçivəsində ölkələr bir çox sahələr, o cümlədən milli təhlükəsizlik üzrə fəal əməkdaşlıq etmək imkanı əldə edəcəklər. Bu zaman Cənubi Qafqaz respublikaları regionun sərhədlərinə bitişik üç gücün – Türkiyə, Rusiya və İranın iştirakı ilə genişmiqyaslı inteqrasiya prosesinə başlamaq imkanı qazanacaqlar. Formatın əsas hədəflərindən biri məhz iqtisadi-ticari əlaqələrin formalaşmasına münbit zəminin yaradılmasıdır. Buraya, ilk növbədə, nəqliyyat kommunikasiyalarının qarşılıqlı surətdə açılması, iqtisadi əməkdaşlığın hərtərəfli inkişafı, ən əsası isə regionda mövcud olan bütün problemlərin “altılar”ın iştirakı ilə region daxilində həll edilməsidir.

(ardı 3-cü səhifədə)

## Biznes subyektlərinin sadə qeydiyyatı

**İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri, iqtisadçı-ekspert Eyyub Kərimli Azərbaycanın biznesin qeydiyyatı prosesində dünyanın ən qabaqcıl ölkələrindən biri olduğunu bildirib.**



Ekspertin sözlərinə görə, 2024-cü ildə bu sahədə bir sıra mühüm yeniliklər həyata keçirilib. Ən əhəmiyyətli yeniliklərdən biri xarici və yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin (MMC) elektron dövlət qeydiyyatı prosedurlarının eyniləşdirilməsi və MMC-lərin təsis sənədlərində edilmiş dəyişikliklərin elektron qaydada qeydiyyata alınması imkanının yaradılmasıdır. Bu dəyişikliklər Azərbaycanda biznesin təsis edilməsi prosesinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması istiqamətində görülən işlərin bir hissəsidir.

(ardı 7-ci səhifədə)

## İrəvan Ankaranı suçlu bilməməli, təqsiri özündə axtarmalıdır

**Nikol Paşinyanın rəhbərlik etdiyi Ermənistan hökuməti hər vəchlə Türkiyə ilə əlaqələri normallaşdırmağa çalışır. Rəsmi İrəvanın bu prosesi həyata keçirməkdə məqsədi aydındır. Hökumət üzvləri 30 ildən çoxdur Türkiyə ilə sərhədlərin bağlı qalmasının Ermənistana necə ziyan vurduğunun, baha başa gəldiyinin fərqindədir. Məhz buna görə də çalışırlar ki, sərhədlərin açılması sayəsində daxildə iqtisadi canlanmaya nail olsunlar.**



Yanvarın 15-də rəhbərlik etdiyi hökumətin yaxın və uzaq qonşularla münasibətlərinə dair fikirlərini “Facebook” sosial şəbəkəsində etdiyi paylaşımda açıqlayan N.Paşinyan qeyd etmişdi ki, İrəvanın balanslaşdırılmış (?) xarici siyasəti öz praktik nəticəsini verməkdədir. Baş nazir Türkiyə ilə münasibətlər mövzusunda bildirmişdi ki, Ankara ilə aydın görünən qarşılıqlı anlaşma bazası formalaşıb.

(ardı 3-cü səhifədə)

## Tramp: Neftin aşağı qiyməti Ukrayna savaşına son qoyacaq



**Davosda keçirilən forumda videobağlantı vasitəsilə çıxış edən ABŞ prezidenti Donald Tramp neftin qiymətini aşağı salmağa çağırıb. Onun fikrincə, neftin qiymətinin aşağı düşməsi Ukraynada müharibənin sürətlə bitməsinə səbəb olacaq.**

ABŞ-ın yeni lideri Rusiyanın Ukraynaya qarşı müharibəsinin sülh yolu ilə həlli üzərində işin artıq başladığını bildirib. O, bu barədə Davosda Dünya İqtisadi Forumunda videobağlantı vasitəsilə çıxış edərkən bildirib. Eyni zamanda, Tramp Rusiyanın Ukraynaya qarşı müharibəni davam etdirməsinə neftin yüksək qiymətinin kömək etdiyi qənaətində olduğunu bildirib. O, döyüşləri tez bir zamanda başa çatdırmaq naminə qiymətləri aşağı salmağa çağırıb: “Mən Səudiyyə Ərəbistanından və OPEK-dən neftin qiymətini aşağı salmağı xahiş edəcəm. O, aşağı salınmalıdır! Aşağı düşərsə, Rusiya ilə Ukrayna arasında müharibə dərhal bitəcək. Qiymət indi bu müharibəni davam etdirmək üçün kifayət qədər yüksəkdir”.

(ardı 11-ci səhifədə)

## Yeni geosiyasi trendlər: Cənubi Qafqaz konteksti



Səhifə ⇨ 6

## Təhsil tələbə krediti: Bu gün al, 6 il sonra ödə

Səhifə ⇨ 8

## “Xalla-axoizm” və ya yeni Hitlerin ermənipərəstliyi




Səhifə ⇨ 4

## Horadiz–Ağbənd dəmir yolu – Naxçıvanın “dəmir qapı”sı

Səhifə ⇨ 7

## Çağdaş texnologiyaların milli elm-təhsil mərkəzi



Səhifə ⇨ 9

# Baş nazir Belarusun Azərbaycandakı səfiri ilə görüşüb



**Yanvarın 24-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdəki fəaliyyət müddətinin bitməsi ilə əlaqədar Belarus Respublikasının fövqəladə və səlahiyyətli səfiri Andrey Ravkov ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Ə.Əsədov Azərbaycan ilə Belarus arasında dostluq əlaqələrinin inkişafına verdiyi töhfəyə görə səfirə təşəkkürünü bildirib.

Görüşdə iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub, müxtəlif sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi perspektivləri müzakirə edilib.

# Milli Məclis Sədrinin qəbulları



**Milli Məclisin Sədri Sahibə Qafarova yanvarın 24-də Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçını Azərbaycandakı diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul edib.**

Sahibə Qafarova Boluda baş verən faciəvi yanğınla bağlı qardaş Türkiyə xalqına bir daha başsağlığı verib.

Söhbət zamanı C.Bağçının ölkəmizdə diplomatik fəaliyyəti dövründə qardaş ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsi istiqamətində səmərəli fəaliyyət göstərdiyi qeyd edilib.

Cahit Bağçı göstərilən diqqətə və dəstəyə görə minnətdarlığını ifadə edərək, bundan sonra da Azərbaycan-Türkiyə qardaşlığı və müttəfiqliyi üçün əlindən gələn töhfəni verməyə hazır olduğunu bildirib.

***

**Dünən Milli Məclisin Sədri Sahibə Qafarova Belarusun ölkəmizdəki səfiri Andrey Ravkovu da Azərbaycanda diplomatik fəaliyyətini başa vurması münasibətilə qəbul edib.**

Söhbət zamanı Azərbaycan və Belarus arasında münasibətlərin bütün sahələri əhatə etməklə, dostluq prinsiplərinə söykəndiyi ifadə edilərək, bu əlaqələrin inkişafında iki ölkənin dövlət başçıları arasında yüksəksəviyyəli münasibətlərin mühüm rolu vurğulanıb.

Qəbulda Andrey Ravkovun səfir kimi ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi istiqamətində səmərəli fəaliyyəti qeyd olunub.

Sonda A.Ravkov diqqətə və ölkəmizdə fəaliyyət göstərdiyi müddətdə dəstəyə görə təşəkkürünü bildirərək, ölkələrimiz arasında münasibətlərin bundan sonra da inkişafına inamını ifadə edib.

***XQ***

# Ali Məhkəmə Plenumunun iclası

**Yanvarın 24-də Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun iclası keçirilib.**



Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov iclasın Ali Məhkəmənin birillik fəaliyyətinə həsr olunduğunu bildirib.

İclasda ötən ilin məhkəmə hakimiyyəti üçün kifayət qədər məhsuldar və səmərəli olduğu vurğulanıb. Diqqətə çatdırıb ki, Ali Məhkəmənin icraatında 2024-cü ildə 2023-cü ilə nisbətən 309 iş, yəni 2,2 faiz daha çox iş olub. Kollegiyalar üzrə olan statistika isə fərqlidir. Belə ki, Mülki kollegiyada 12,5 faiz azalma olsa da, Cinayət kollegiyasında 8,8, İnzibati kollegiyada 18,2, Kommersiya kollegiyasında 3,9 faiz artım var. İcraatda olmuş işlərin sayı ilə yanaşı, yekunlaşdırılan işlərin sayı 3,5 faiz artıb. Növbəti ilə qalıq keçən işlərin sayı isə 2,6 faiz azalıb.

Sonra Ali Məhkəmənin kollegiyalarının ötən ildə görülmüş işlərlə bağlı geniş hesabatları dinlənilib. Bildirilib ki, Mülki kollegiya üzrə 2024-cü ildə Ali Məhkəməyə, həmçinin əlavə kassasiya qaydasında Plenuma daxil olan işlərin sayında 2023-cü illə müqayisədə ciddi azalma müşahidə olunur. Mülki işlər üzrə ümumilikdə respublika məhkəmələrinə 215 min 338 iş daxil olub ki, bu da ötən dövrlə müqayisədə 2,7 faiz, apellyasiya şikayəti verilən işlərin sayı 22,4 faiz, kassasiya şikayəti verilən işlərin sayı isə 13,1 faiz azalıb. Yekunlaşmış işlərin sayı yüksəkdir və bu, 89 faiz təşkil edir. Eyni zamanda, təkrar baxılan və növbəti ilə keçən işlərin sayında da azalma müşahidə edilir. Birinci və apellyasiya instansiya məhkəmələrinin qərarlarının sabitlik göstəricisinin kifayət qədər yüksək olduğu qeyd edilib.

Qeyd edilib ki, 2024-cü il ərzində Cinayət kollegiyasının icraatında olmuş 3688 işdən 70,8 faizinə mahiyyəti üzrə baxılıb. Baxılmış 2611 işdən 84,2 faizində iş üzrə qərar dəyişdirilmədən saxlanılıb, 6,9 faiz iş üzrə qərar ləğv edilib, 8,9 faiz iş üzrə qərar dəyişdirilib.

Hesabat dövründə İnzibati kollegiyanın icraatında olmuş 4438 işdən 76,7 faizi yekunlaşdırılıb. Yekunlaşmış işlərdən 88 faiz işə mahiyyəti üzrə baxılıb, 8,8 faiz kassasiya şikayəti formal əsaslarla mümkün sayılmayıb, 2,9 faiz iş üzrə kassasiya icraatına xitam verilib. Baxılmış 2997 işdən 52,9 faizinin məhkəmə aktı dəyişdirilmədən saxlanılıb, 28,9 faizi kassasiya şikayəti mübahisələndirilən məhkəmə qərarının vahid məhkəmə təcrübəsinə uyğun hesab edildiyindən mümkün sayılmayıb, 17 faiz qərar ləğv edilib, 0,4 faiz iş üzrə icraata xitam verilib, 0,8 faiz qərar dəyişdirilib.

Kommersiya kollegiyasının icraatında isə 832 iş olub, onlardan 95,6 faiz iş kommersiya mübahisələri üzrə, 4,4 faiz iş xarici məhkəmələrin qətnamələrinin Azərbaycan Respublikasında tanınması və icrası ilə bağlı olub. İcraatda olmuş kommersiya mübahisələri ilə bağlı 795 işdən 68,2 faiz işə mahiyyəti üzrə baxılıb. Baxılmış işlərdən 82,3 faiz işlə bağlı məhkəmə aktı dəyişdirilmədən saxlanılıb, 17,3 faiz iş üzrə məhkəmə aktı ləğv edilib, 0,4 faiz iş üzrə isə məhkəmə aktı dəyişdirilib.

Məruzələr ətrafında çıxış edənlər 2024-cü ildə kollegiyaların fəaliyyətində nəzərəçarpacaq keyfiyyət dəyişikliyi olduğunu qeyd ediblər.

Daha sonra Plenumda Ali Məhkəmənin 2025-ci ilə dair iş planı təsdiq edilib.

***XQ***

## Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2025-ci ilin fevral ayında vətəndaşların qəbulu

# C Ə D V Ə L İ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | **3** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | **4** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | **5, 19** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | **6** |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | **7, 14, 28** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | **7** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | **10** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | **11** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | **12** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | **13** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | **14** |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | **14** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | **17** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | **18** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | **20** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | **20** |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | **21** |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | **24** |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | **25** |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | **26** |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | **27** |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | **28** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | **28** |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | **28** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Bakıda Hindistanın Respublika Günü





**Yanvarın 24-də Hindistanın Azərbaycandakı səfirliyi ölkəsinin 76-cı Respublika Günü münasibətilə Bakıda rəsmi qəbul təşkil edib.**

Mərasimin əvvəlində Azərbaycanın və Hindistanın Dövlət himnləri səsləndirilib.

Hindistanın ölkəmizdəki səfiri Sridharan Madhusudhanan çıxış edərək deyib ki, Hindistan və Azərbaycanın qədim sivilizasiya ölkələri kimi mədəni əlaqələrinin böyük keçmişi var. 2024-cü ildə bir sıra yüksəksəviyyəli əməkdaşlıq bu münasibətlərlə daha da güclənib: "Bizim iqtisadi əməkdaşlığımız çiçəklənməyə davam edir. İkitərəfli ticarətimiz güclü olub. 2024-cü ildə Hindistanın aparıcı qaz və neft şirkəti "ONGC Videsh Limited" əlavə investisiya ilə "Azəri-Çıraq-Günəşli" neft və qaz yatağında, həmçinin "Bakı-Tbilisi-Ceyhan" boru kəməri şirkətindəki səhmlərinin sayını artırdı".

Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayev bildirib ki, Hindistanla son illər əməkdaşlığımız üçün yaxşı imkanlar yaranıb. Hazırda ölkələrimiz arasında enerji, ticarət, təhsil və mədəniyyət sahələrində əməkdaşlıq dinamik inkişaf edir. Bu dinamikanı artırmaq və şaxələndirmək üçün Azərbaycan regionda nəqliyyat və kommunikasiya əlaqələrinin inkişafında maraqlıdır.

Təntənəli mərasim ziyafətlə davam edib.

***XQ***

# Azərbaycan–Pakistan: siyasi-diplomatik məsləhətləşmələr



**Yanvarın 23-də İslamabadda Azərbaycan ilə Pakistanın Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin 4-cü raundu keçirilib. Nümayəndə heyətinə Azərbaycan tərəfindən nazir müavini Elnur Məmmədov, Pakistan tərəfindən xarici işlər nazirinin müavini Amna Baloç başçılıq ediblər.**

Məsləhətləşmələr zamanı siyasət, iqtisadiyyat, ticarət, kənd təsərrüfatı, təhsil, mədəniyyət, energetika, turizm sektorlarında və digər sahələrdə əməkdaşlığa dair ətraflı fikir mübadiləsi aparılıb.

E.Məmmədov, həmçinin Pakistan Baş nazirinin müavini, xarici işlər naziri Mohammad İshaq Dar tərəfindən qəbul edilib, yanvarın 24-də Azərbaycan-Pakistan Birgə Komissiyasının 8-ci iclasında çıxış edib.

***XQ***

# İrəvan Ankaranı suçlu bilməməli, təqsiri özündə axtarmalıdır

(əvvəli 1-ci səhifədə)

Yanvarın 23-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində keçirilən “Avropanın təsirini necə genişləndirmək olar?” mövzusunda panel müzakirəsi zamanı çıxışında isə Paşinyan deyib ki, ölkəsi “tarazlaşdırılmış və balanslı xarici siyasət” yürütmək qərarına gəlib: “Bu o deməkdir ki, biz Avropa İttifaqı, Rusiya və regional güclərlə münasibətlərimizi balanslaşdırmağa çalışacağıq. İranla əlaqələrimiz çox önəmlidir. Biz Türkiyə ilə diplomatik əlaqələr qurmağa, Azərbaycanla sülh razılaşmasına nail olmağa çalışırıq. Bu, asan deyil. Amma digər tərəfdən, bunun mümkünsüz olduğunu da düşünmürəm. Ən əsası sülh gündəmindən kənara çıxmamalı, bir məqsəd olaraq buna diqqət yetirməli və məyus olmadan çalışmalıyıq. Amma bunun üçün əlbəttə ki, beynəlxalq ictimaiyyətin dəstəyinə ehtiyacımız var və ümid edirəm ki, bu dəstək veriləcək”.

Ümumiyyətlə, Ermənistandakı bütün hökumətlər hər zaman, o cümlədən Azərbaycan torpaqlarının hələ işğal altında olduğu dövrlərdə də sırf öz maraqlarını düşünərək, Türkiyə ilə əlaqələri qaydaya salmağa hazır olduqlarını bildiriblər. İşğal dövründə Ermənistanın Qərbdəki havadarları tərəfindən sərhədi açmaq üçün Ankaraya xeyli təzyiqlər də edilib. Onların məqsədi bir tərəfdən sərhədin açılması vasitəsilə Ermənistanın iqtisadi inkişafını təmin etmək idisə, digər məqsəd Azərbaycanı ən yaxın təbii müttəfiqinin dəstəyindən məhrum etmək idi. Ancaq tarixin bütün sınaqlarından üzüağ çıxan Türkiyə–Azərbaycan dostluğu-qardaşlığı hər dəfə bu oyunları poza biləcək qədər dəyanət nümayiş etdirib. 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın azad edilməsindən sonra Türkiyə ilə Ermənistan arasında əlaqələrin qurulmasına ölkəmizin münasibəti də, təbii ki, ayrı məzmun kəsb etməyə başlayıb. Yeri gəlmişkən, qeyd edək ki, rəsmi Ankaranın yenə də prosesi ölkəmizin maraqlarını nəzərə almaqla apardığı şəksizdir. Türkiyə hökumətinin rəsmi şəxsləri dəfələrlə bəyan ediblər ki, Ermənistanla münasibətlərin normallaşdırılması prosesi Azərbaycanla koordinasiya olunmuş şəkildə aparılacaq və İrəvanla Bakı arasında sülhün əldə olunmasından asılı olacaq.

İkinci Qarabağ müharibəsindən sonra Ermənistan hökuməti Türkiyə ilə münasibətlərin normallaşması, diplomatik əlaqələrin qurulması və sərhədlərin açılması istiqamətində daha fəal olmağa başladı. Bu çərçivədə 2021-ci ilin sonlarında parlament sədrinin müavini Ruben Rubinyan münasibətlərin normallaşması üzrə xüsusi nümayəndə təyin olundu. Türkiyə də sivil dövlət kimi buna qarşılıq verdi və peşəkar diplomat Sərdar Kılıç eyni vəzifəyə təyin edildi. Onların ilk görüşü 2022-ci ilin yanvarın 14-də Moskvada keçirildi. Bundan sonra xüsusi nümayəndələrin görüşləri mütəmadi xarakter aldı. Xüsusi nümayəndələr 2024-cü il martın 1-3-də keçirilən Antalya Diplomatiya Forumu çərçivəsində görüşmüşdülər. Onların sonuncu görüşü isə həmin ilin iyulun 30-da



iki ölkə sərhədində keçirilmişdi. Sonuncu görüş təkcə Türkiyə və Ermənistanda deyil, dünyanın bir çox ölkəsində, o cümlədən Azərbaycanda da diqqətlə izlənilirdi. Bu da təsadüfi deyildi. Çünki Türkiyə qeyd etdiyimiz kimi, Azərbaycanın ən yaxın müttəfiqidir. Qardaş ölkə ilə əlaqələrimiz 2021-ci il iyunun 15-də imzalanmış “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” ilə daha üstün səviyyəyə qalxıb. Hazırda dünyada münasibətləri bu dərəcədə sıx olan digər iki ölkə tapmaq mümkün deyil. Azərbaycan–Türkiyə münasibətləri haqlı olaraq “Bir millət, iki dövlət” düsturu ilə ifadə olunur.

Türkiyə ilə münasibətlərin normallaşması üzrə Ermənistan tərəfindən xüsusi nümayəndə, parlamentin vitse-spikeri Ruben Rubinyan dünən İrəvanda jurnalistlərə açıqlama verib. O deyib ki, Ermənistanla Türkiyə arasında münasibətlərin nizamlanması prosesi dalana dirənməyib: “Ancaq biz böyük irəliləyiş də müşahidə etmirik və bu, bizim təqsirimiz üzündən deyil. Biz nizamlanmanın baş tutması üçün öz tərəfimizdən əlimizdən gələni etdik. Ermənistan Türkiyə ilə sərhədləri lap elə sabah açmağa, elə sabah diplomatik əlaqələr qurmağa hazırdır və bunun üçün bizim heç bir ilkin şərtimiz yoxdur. Türkiyənin siyasi iradəsi olsa (?), bu, baş verəcək”.

Xüsusi nümayədə ““Marqara” körpüsünün açılmasına nə mane olur?” sualına cavabında da ölkəsini, necə deyərlər, təmizə çıxarmağa çalışıb: “Bizim tərəfimizdən heç bir maneə yoxdur. Türkiyə tərəfindən də nəinki razılaşdırıldığı kimi “Marqara” körpüsünün, ümumiyyətlə, sərhədin açılmasına hansısa əsas olduğunu düşünmürəm. Biz hesab edirik ki, Türkiyə siyasi iradə göstərsə (?), Ermənistan–Türkiyə münasibətləri çox tez normallaşacaq. Sərdar Kılıçla sonuncu görüşümüz yayda baş tutub, ancaq telefonla daim əlaqə saxlayırıq”.

Ancaq Rubinyanın sərhədlərin açılmasının baş tutmamasına görə Türkiyəni təqsirli bilməkdənsə, dönüb öz ölkəsinin hökumətinin əməllərinə baxması daha yaxşı olardı. Bu bir faktdır ki, Ermənistan hazırda Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarından geri çəkilmiş kimi görünsə də, əvvəlki iddialar qanunvericilik müstəvisində hələ də qalmaqdadır. Söhbət, təbii ki, Ermənistan konstitusiyasında müstəqillik bəyannaməsinə istinadın qalmasından gedir. Həmin istinad hələ də işğalçı siyasətə hüquqi əsas yaradır. Türkiyə ərazisində yerləşən, qardaş ölkənin beynəlxalq hüquqla tanınmış sərhədləri çərçivəsindəki Ağrı dağı isə hələ də Ermənistanın dövlət gerbində “Ararat dağı” kimi öz əksini tapmaqdadır. Bu isə o deməkdir ki, Ermənistan Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiasından ən azı hüquqi müstəvidə əl çəkməyib. Edilən çoxsaylı çağırışlara rəğmən, İrəvan qanunvericilik müstəvisində müvafiq addımlar atmağa tələsmir.

Mövzu ilə bağlı XQ-yə açıqlama verən **“World Panorama” Strateji Araşdırmalar və İnkişaf Mərkəzinin rəhbəri, politoloq Ramiyə Məmmədova** bildirdi ki, Ermənistanla Türkiyə arasında mü-



nasibətlərin normallaşması istiqamətində müzakirələr uzun müddətdir aparılır: “Rəsmi İrəvan hər dəfə eyni fikri təkrarlayır. Bildirir ki, hər hansı qeyd-şərt olmadan münasibətlərinn normallaşmasına razıdır. Guya, əsas məsələ Türkiyə tərəfədir. Halbuki, bu heç də belə deyil. Ankara və İrəvan arasında münasibətlər Ermənistanın işğalçılıq siyasəti üzündən pozulub. Sərhədlərin bağlanması isə konkret olaraq 1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğal edilməsindən sonra baş verib. Yəni burada yeganə müqəssir Ermənistandır. Türkiyənin rəsmi şəxsləri hər zaman bəyan ediblər ki, Ermənistanla əlaqələr yalnız İrəvanla Bakı arasında sülh müqaviləsi imzalandıqdan sonra mümkün olacaq. Türkiyə və Azərbaycanın çağırışlarına baxmayaraq, Ermənistan hələ də sülh müqaviləsinin razılaşdırılmamış bəndləri üzrə irəliyə doğru addım atmaq istəmir”.

Politoloq qeyd etdi ki, bu mənada, Rubinyanın “sərhədlərin açılması Türkiyənin siyasi iradəsindən asılıdır” fikri olduqca yanlışdır. Əksinə, Ermənistan siyasi iradə göstərməli və sülh müqaviləsinin imzalanmasına mane olan məsələləri aradan qaldırmalıdır: “Türkiyənin siyasi iradəsi Azərbaycanla birgə hərəkət etməyi tələb edir. Ermənistan hökuməti Azərbaycana qarşı beynəlxalq məhkəmə instansiyalarında iddialarından kənarda durmalı, başqa ölkələrin nümayəndələrini bizim sərhədimizdə yerləşdirməməlidir. Söhbət Avropa müşahidəçiləri adı altında Azərbaycanla sərhəddə NATO tərəfindən infrastruktur yaradılmasından gedir. Ermənistan tərəfi konstitusiyasını dəyişməlidir. Eyni zamanda, Minsk qrupunun ləğvi ilə bağlı Azərbaycanla birgə ATƏT katibliyinə müraciət etməlidir. Bütün bunlar bir daha göstərir ki, əslində, siyasi iradə nümayiş etdirməli olan tərəf Ermənistandır”.

R.Məmmədova Ermənistan hökumətinin Qərbi azərbaycanlıların tarixi yurd yerlərinə qayıdışı məsələsində də siyasi iradə göstərməsinə ehtiyac duyulduğunu vurğuladı. Türkiyə isə Azərbaycanla sıx müzakirələr aparır, atılan hər bir addım əlaqələndirilir: “Ermənistan tərəfi bu addımları atdıqdan sonra sülh müqaviləsinin imzalanmasına heç bir əngəl qalmayacaq. Bundan sonra İrəvanla Ankara arasında da diplomatik əlaqələrin qurulması mümkün olacaq. Bir daha qeyd etmək istərdim ki, Rubinyanın haqqında danışdığı siyasi iradə və istək Ermənistandan gəlməlidir. Həm Azərbaycan, həm də Türkiyə vəziyyətin nizamlanması üçün Ermənistana bütün yolları göstəriblər. İrəvan güman edirdi ki, ABŞ-da hakimiyyət dəyişikliyindən sonra regionda hansısa həmlələr edə biləcək. Ancaq Prezident Tramp xarici yardımların ən azı 90 gün müddətinə dayandırılmasına dair qərar verdi. Bu isə o deməkdir ki, Ermənistan da ABŞ-dan yardım ala bilməyəcək. Ona görə də Ararat Mirzoyan yanvarın 21-də Moskvaya getdi və Sergey Lavrovla görüşərək Kremlin ünvanına isti jestlər etdi. Ermənistan bu gün regionda bir dövlət kimi qalıb fəaliyyət göstərə bilməsi, iqtisadi-ticari əlaqələr yaratması üçün Azərbaycanla sülh müqaviləsini imzalamalıdır ki, Türkiyə ilə də əlaqələr qura bilsin. Əks-təqdirdə İrəvan üçün çox çətin olacaq”.

*Səxavət HƏMİD*
*XQ*

# “3+3” perspektivli regional əməkdaşlıq platformasıdır




(əvvəli 1-ci səhifədə)

Üç il bundan əvvəl Bakının irəli sürdüyü “Qafqaz evi” ideyası region ölkələrinin gələcəyə yönəlik sülh və əmin-amanlığı, iqtisadi-ticari əməkdaşlığı nəzərdə tutan faydalı və gəlirli təşəbbüs sayılmalıdır. Doğrudur, başlanğıcda bu ideyaya bölgə ölkələrinin heç də hamısı müsbət yanaşma sərgiləmirdilər. Amma vaxt göstərdi ki, rəsmi Bakının regionun problemlərinin məhz region ölkələrinin birgə iştirakı ilə həllini nəzərdə tutan “3+3” platforması hər cəhətdən perspektivli layihə kimi onların da maraq və mənafelərinə tam cavab verir. Bununla bağlı son vaxtlar həm Şimal, həm də Cənub qonşumuzdan pozitiv mesajlar gəlməkdədir.

“Moskva hesab edir ki, Bakı ilə İrəvan arasında münaqişənin nizamlanmasının əsasını Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatlar kompleksi təşkil edir”. Rusiya Xarici İşlər Nazirliyinin rəsmisi Mariya Zaxarova həftəlik ənənəvi brifinqdə bunu təsadüfən xatırlatmadı. O vurğulayıb ki, Rusiya Bakı ilə İrəvan arasında birbaşa dialoqu dəstəkləyir



və münasibətlərin normallaşdırılmasına, balanslaşdırılmış sülh müqaviləsinin işlənib hazırlanmasına, nəqliyyat və iqtisadi əlaqələrin açılmasına, sərhədlərin delimitasiya və demarkasiyasına, habelə vətəndaş cəmiyyətləri arasında əlaqələrin inkişafına köməklik etməyə hazırdır. Rusiya XİN-in nümayəndəsi sözlərinə onu da əlavə edib ki, üç Cənubi Qafqaz ölkəsini (Azərbaycan, Ermənistan və Gürcüstan) və üç qonşu dövləti (Rusiya, İran və Türkiyə) birləşdirən “3+3” platforması perspektivli regional əməkdaşlıq mexanizminə çevrilə bilər.

Bakının irəli sürdüyü “Qafqaz evi” ideyasına son vaxtlar Rusiya və İran tərəfindən marağın artması müşahidə edilməkdədir. Doğrudur, bu regional platformaya yanaşmada “altılar”dan hər birinin özəl maraqlarının olmasını da qeyd etmək lazımdır. Moskva və Tehranın daha çox Qərbin bölgəyə müdaxiləsinə “sipər” kimi baxdıqları bu birliyin perspektivinə Türkiyənin də yaxından dəstək verməsi tezliklə “3+3” formatında əməli addımların atılacağına ümidləri çoxaldır.

**Mövzu ilə bağlı XQ-yə açıqlama verən siyasi şərhçi Tofiq Abbasov** “Qafqaz evi” ideyasının bəlkə də yüz il bundan əvvəl ortaya çıxdığını bildirdi: “Yəni Baltikyanı ölkələr kimi Qafqazda da oxşar formatın yaradılması məsələsi vardı. Bunun üçün Azərbaycan və Gürcüstan Ermənistana torpaq güzəştinə getdilər ki, onlar da öz dövlətlərini yaratsınlar. Amma “Qafqaz Seymi” dağılandan dərhal sonra haylar qonşularına qarşı torpaq iddiaları irəli sürdülər. Bu iddiaların kökündə nəyin dayandığını yaxşı bilirik. Xarici qüvvələrin əli ilə Ermənistan fitnə-fasada gedirdi. Elə o dövrdə də Qərb Hayastanı özünün “maşa”sına çevirməyə çalışırdı. Yüz ildən sonra eyni əhvalatın təkrarlandığını görürük. Ermənilər indi də xarici gücləri – ABŞ-ı, Fransanı, Avropa İttifaqını bölgəyə gətirmək istəyir. Onların şərti sərhəddəki emissarları həm Azərbaycan, həm İran, həm Rusiya, həm də Türkiyəyə qarşı casusluq fəaliyyəti ilə məşğuldurlar. Məhz Ermənistanın günahı üzündən “3+3” formatı tam formalaşa bilmir. Həmin qüvvələr Gürcüstanı öz caynaqlarına keçirməyə çalışsa da, bu, baş tutmadı. Gürcü xalqı məlum seçkilərlə onlara rədd cavabı verdi.



Azərbaycan Prezidenti İlham Əliyev bu regional formatı gündəmə gətirməklə, eyni zamanda, xarici qüvvələrin bölgəyə müdaxilə cəhdlərinin qarşısının alınmasına zəmin hazırlayır. Məlumdur ki, Azərbaycan Cənubi Qafqazda inteqrasiya proseslərində aparıcı rola malikdir. Bakı 44 günlük müharibə başa çatandan dərhal sonra Ermənistana bu çağırışla müraciət etdi. Onlara regional və beynəlxalq layihələrdə iştiraklarının təmin ediləcəyi də deyildi. Əgər İrəvan dörd il əvvəl bu addımı atsaydı, Qərbin bölgədə təxribatçı addımlarının şahidi olmazdıq. Amma Hayastan ermənipərəst Qərbin təhriki ilə fərqli yol seçdi. Fransa, Ağ Evin demokrat administrasiyası onu silahlandırmaqla revanşa şirnikləndirdi. Əsas maraqları isə Rusiya və İranın Cənubi Qafqazda fəallığını sıfıra endirmək, təsir dairəsini məhdudlaşdırmaqdır. Regionun söz və güc sahibi olan Bakı bununla bağlı İrəvana ən yüksək səviyyədə xəbərdarlığını edib”.

* * *

Bəli, biz hayların silahlandığını, Fransanın, Aİ-nin, Hindistanın fitvasına getdiklərini görürük. Onların arxasında duran qüvvələrin niyyətlərindən də xəbərdarıq. Əgər Ermənistan, doğrudan da, müstəqil dövlət olsaydı Azərbaycanla sülhə gələrdi. Belə görünür ki, “3+3” formatı hələ özünün kulminasiya nöqtəsinə çatmayıb. Yaxın zamanlarda bunun şahidi olacağımıza ciddi əsaslar yaranıb. Ermənistandan fərqli olaraq, Qərbin oyununa “yox” deyən Gürcüstanın “Qafqaz evi”nin sakininə çevriləcəyi gün uzaqda deyil.

Ötən illərin təcrübəsi göstərir ki, regiondankənar oyunçuların, o cümlədən ABŞ və Avropa ölkələrinin müdaxiləsi Cənubi Qafqaz üçün müsbət heç nə verməyib. Bu nöqteyi-nəzərdən “3+3” platforması digər güc mərkəzlərinin region ölkələrinin daxili işlərinə qarışmasının qarşısını almağa imkan verəcək. 2021-ci ildə “3+3”-ün Moskva görüşündə təəssüf ki, regionun bütün ölkələri iştirak etməyib. Üç il əvvəl Gürcüstan həmin toplantıya qatılmamışdı. İntəhası digər iştirakçılar bu formata qoşulacaqlarını əminliklə dilə gətirmişdilər. Formatın qapıları bu gün Tbilisinin üzünə açıqdır.

Ortadakı reallıq ondan ibarətdir ki, Azərbaycan, ən azı, 100 illik problemini – ərazi bütövlüyünü bərpa, eləcə də Qarabağ üzərində suverenliyimizi tam təmin etdi. Bundan sonra əsas hədəfimiz, dünyada və bölgədə cərəyan edən hadisələri nəzərə almaqla, sülh sazişinin imzalanmasına çalışmaqdır. Əlbəttə ki, bu, Bakının açıq mətnlə irəli sürdüyü, beynəlxalq hüquqa və ədalətə söykənən şərtlərinin İrəvan tərəfindən qəbul olunmasından və icrasından sonra baş tuta bilər. Yəni diplomatik yanaşmanın fəlsəfəsinə görə, Azərbaycan gələcəkdə Hayastan tərəfindən təhlükənin yaranmayacağına əmin olduğu halda Ermənistanla yeni müharibə ehtimalı da aradan qaldırılmış olacaq. Qarabağda genişmiqyaslı quruculuq və abadlıq, məskunlaşma işlərini həyata keçirən Azərbaycan məhz bu şərtləri yerinə yetirdikdən sonra Ermənistanla müxtəlif səviyyələrdə dialoqu genişləndirməyə hazır olacaq. Bu dialoqu gerçəkləşdirəcək ən optimal platforma isə “3+3”dür.

*İ.HƏSƏNQALA*
*XQ*

# Daxili İşlər Nazirliyində geniş kollegiya iclası





**Dünən Daxili İşlər Nazirliyində 2024-cü ildə cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və cari ildə qarşıda duran vəzifələrə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, iclası açan nazir general-polkovnik Vilayət Eyvazov bildirib ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən hüquq-mühafizə siyasəti sayəsində ölkəmizdə möhkəm təməllərə söykənən sabitlik hesabat ilində də etibarlı qorunub.

Qeyd olunub ki, cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində xidməti vəzifələr layiqincə yerinə yetirilib, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə, habelə işğaldan azad olunmuş ərazilərdə təhlükəsizlik etibarlı təmin edilib, qanunla müəyyən edilmiş funksiyalar digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə davam etdirilib. Daxili işlər orqanlarının əməkdaşları miqyasına görə indiyədək ölkəmizdə keçirilən konfrans, yarış və mərasimlərlə müqayisəyə gəlməyən COP29-un yüksək təhlükəsizlik şəraitində keçməsi üçün üzərinə düşən vəzifələri və qarşıya qoyulmuş tapşırıqları aidiyyəti dövlət qurumları ilə sıx əməkdaşlıq şəraitində əzmlə yerinə yetirib.

Hesabat məruzəsi ilə çıxış edən nazir V.Eyvazov vurğulayıb ki, 2024-cü ildə əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 33 min 379 cinayət qeydə alınıb, onlardan 87,6 faizi açılıb, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı 327 fakt təşkil edib. Cinayətlərin 94,4 faizi və ya 31 min 526-sı daxili işlər və prokurorluq orqanlarının prosessual qaydada araşdırdığı hüquqazidd əməllər olmaqla 90,3 faizinin açılması təmin edilib.

Cinayətlərin ağır və xüsusilə ağır növlərinin 87,3, qeyri-aşkar şəraitdə baş verənlərin 86, şəxsiyyət əleyhinə olanların 98,9, onlardan qəsdən adam öldürmələrin 96,6, adam öldürməyə cəhdlərin 95,2, qəsdən sağlamlığa ağır zərər vurmaların 98,9, mülkiyyət əleyhinə olanların 83,3 faizi açılıb. Xırda talamaların açılmasının nəticələri 3 faiz yaxşılaşaraq 87,5 faizə yüksəlib. Ağır və xüsusilə ağır cinayətlər törətmiş 3271 nəfər tutulub, 216 kriminal qrup zərərsizləşdirilib.

Davam etdirilən profilaktik tədbirlərin nəticəsi olaraq müqayisə edilən dövrə nisbətən 2024-cü ildə qrup halında baş verən cinayətlərin sayında 23,2, ictimai yerlərdə baş verənlərin sayında 9, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilənlərin sayında 8 faiz azalma qeydə alınıb. Ümumi cinayətlər 9,4, ağır və xüsusilə ağır cinayətlər 18,9, qeyri-aşkar şəraitdə baş verənlər 18,1, qəsdən adam öldürmələr 9,6, adam öldürməyə cəhdlər 16,9, qəsdən sağlamlığa ağır zərər vurmalar 13,5, xuliqanlıqlar 5, odlu silahın tətbiqi ilə törədilənlər 21, mülkiyyət əleyhinə olanlar 10,4, onlardan avtonəqliyyat vasitələrini qaçırmalar 9,5, habelə yol-nəqliyyat hadisələri 12,8, qəzalarda xəsarət alanların sayı 13,1, ölənlərin sayı 11,4 faiz azalıb.

Nazir prokurorluq orqanlarının əməkdaşları ilə birgə keçmiş illərdən bağlı qalmış cinayətlərin açılmasında nəzərəçarpan irəliləyiş əldə edildiyini, 630 fakt üzrə təqsirli şəxslərin məsuliyyətə cəlb olunduğunu, o cümlədən cinayətlərin ağır, xüsusilə ağır və transmilli mütəşəkkil növlərinin qarşısının alınması və istintaqı kimi mühüm vəzifələrin icrasında böyük bir iş həcminin yerinə yetirildiyini qeyd edib. Təqsirləndirilən şəxslərin axtarışının nəticələri yaxşılaşaraq 87,9 faiz təşkil edib, İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilmiş 118 şəxsin və bu təşkilata üzv ölkələr tərəfindən axtarılan 65 nəfərin yeri müəyyən olunub.

Qanunsuz odlu silah saxlama və daşıma ilə bağlı 527 fakt müəyyən edilib, həmin cinayətlərə görə 247 nəfər tutulub. Ümumilikdə 7227 odlu silah və 1 milyona yaxın sursat aşkarlanıb.

Narkotiklərlə mübarizənin də vəziyyətinə toxunan nazir V.Eyvazov bildirib ki, qanunsuz dövriyyədən 2023-cü illə müqayisədə 250 kiloqram çox - 4 ton 714 kiloqram, narkotik vasitə götürülüb, 283 kiloqram narkotikin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb, onlayn satışla bağlı 466 fakt üzrə 2 ton 51 kiloqram müvafiq vasitə aşkarlanıb və narkotiklərlə əlaqəli cinayətlərə görə 108 cinayətkar qrup zərərsizləşdirilib. Bu istiqamətdə əldə olunmuş müsbət nəticələri yüksək qiymətləndirən nazir müvafiq fəaliyyətin qətiyyətlə davam etdirilməsini tapşıraraq diqqəti qarşıda duran vəzifələrə çəkib, həmin cinayətlərlə mübarizədə vətəndaşların iştirakını, məlumatları əsasında uğurlu nəticələri olan bir çox əməliyyatların keçirildiyini, müşahidə olunan müsbət təmayüllərin məhz günbəgün möhkəmlənən polis-vətəndaş münasibətlərinin təzahürü olduğunu, Daxili İşlər Nazirliyinin bu məsələdə cəmiyyətin yetkin təbəqəsinə, sağlam düşüncəli hər bir vətəndaşa güvəndiyini, mediadan, sosial şəbəkələrin aktiv istifadəçilərindən, o cümlədən blogerlərdən daha böyük gözləntilərinin olduğunu qeyd edib.

Vilayət Eyvazov ölkədə aparılan antinarkotik təbliğatın əhəmiyyətini qeyd edərək, ötən il bu sahədə ərazi polis orqanlarının rəhbərlərinin iştirakı ilə 1200-ə yaxın maarifləndirmə tədbirinin keçirildiyini nəzərə çatdırıb, bu qəbildən tədbirlərin davamlı və məqsədyönlü olması, cari ildə də fəaliyyətin ölkədə narkotiklərə olan tələbatın azaldılması məqsədi üzərində qurulması ilə bağlı göstərişlər verib. Həmçinin respublikanın təhsil müəssisələrində həyata keçirilən maarifləndirmə və təbliğat tədbirlərində iştirak edən dövlət qurumlarının mütəxəssislərinin, yüksəkixtisaslı pedaqoqların, ictimaiyyətin tanınmış nümayəndələrinin tərkibinin genişləndirilməsini, məktəblərdən, valideynlərdən gələn hər bir aidiyyəti siqnala çevik reaksiya verilməsini tapşırıb.

Qadınlara qarşı zorakılıqla müşayiət olunan cinayətlərin qarşısının alınması, açılması, zorakılıq etmiş şəxslərin cəzasızlığına yol verilməməsi üçün qabaqlayıcı tədbirlərin davam etdirildiyini bildirən nazir qadınların təqsirləndirilən və ya zərərçəkmiş şəxs qismində keçdikləri bütün cinayət işləri, o cümlədən materialların mütəmadi təhlil olunduğunu, onları cinayətə təhrik edən amillərin öyrənilib aradan qaldırılması üçün tədbirlərin görüldüyünü, o cümlədən aidiyyəti orqan və təşkilatlara vəsatətlər verildiyini qeyd edib. Zorakı əməllərdən və məişət zəminində baş vermiş cinayətlərdən zərər çəkən qadınların prosessual hüquqlarının müdafiəsi istiqamətində görülmüş işlərin nəticəsi olaraq 2024-cü ildə qadınlarla bağlı törədilmiş cinayətlərin ümumi sayında 47 fakt, o cümlədən ailə münaqişəsi zəminli cinayətlərin sayında 1,8 faiz azalma müşahidə olunduğunu vurğulayıb.

Nazir yeniyetmə və gənclərin hüquqazidd hərəkətlərinin qarşısının alınması üzrə qabaqlayıcı tədbirlərin müsbət nəticələr verdiyini və onların hüquqazidd əməllərinin dinamikasında 18,5 faiz azalmanın qeydə alındığını da bildirərək, gənclərin bəzi sosial şəbəkə seqmentlərində yayımlanan zərərli informasiyaların təsiri altına düşməməsi, sağlamlığa ziyanlı vərdişlərdən çəkindirilməsi istiqamətində aparılan işlərin səmərəsinin artırılmasını tələb edib.

Diqqətə çatdırılıb ki, hesabat ilində 6055, o cümlədən mediada qabaqcadan məlumat verilməklə respublikanın 60 şəhər və rayonundan olan 4468 vətəndaş qəbul edilib, qaldırılan məsələlərin əksəriyyəti yerində və müsbət həll edilib. Eyni zamanda Nazirliyə daxil olan müraciətlər araşdırılaraq müvafiq tədbirlərin görülməsi təmin olunub.

Vətəndaş məmnunluğunun təmin olunması, ərizə və şikayətlərin obyektiv, həssaslıqla araşdırılması, qanunçuluğun qorunması kimi mühüm vəzifələrin icrasına da toxunan general-polkovnik Vilayət Eyvazov bu istiqamətlərdə böyük bir fəaliyyət ortaya qoyulduğunu, nəticələrin müsbət olduğunu bildirib. “102” Xidmətinə, qaynar xətlərə daxil olmuş, sosial şəbəkələrdə yayımlanmış müraciətlərə də çevik reaksiya verildiyini, cinayətlər nəticəsində vurulmuş maddi ziyanın təxminən 80,3 faizinin ödənildiyini, əhaliyə göstərilən elektron xidmətlərin müasir tələblərə uyğun təkmilləşdirildiyini, dövlət-vətəndaş münasibətlərində şəffaflığın, operativliyin artırılmasına xidmət edən və fərdi məlumat mübadiləsini təmin edən “E-Polis” mobil tətbiqinin yaradıldığını, “Elektron Xidmətlər Portalı” üzərindən göstərilən 31 adda dövlət xidmətinin mobil tətbiqlərinin hazırlandığını nəzərə çatdırıb.

İclasın gündəliyinə uyğun olaraq hesabat məruzəsi və məruzə ətrafı çıxışlar dinlənilib. Məruzə ətrafında çıxış edənlər görülən işlərdən, əldə olunan nəticələrdən, mövcud nöqsanlardan, onların aradan qaldırılması üçün həyata keçirilən tədbirlərdən danışıblar.

Kollegiya iclasına yekun vuran nazir bəzi ərazi orqanlarının fəaliyyətindəki çatışmazlıqlara da diqqət çəkərək, onların aradan qaldırılması üçün lazımi tədbirlərin həyata keçirilməsini, bundan sonra da hər bir şəxsin qanuni mənafeyinin, hüquq və azadlığının etibarlı qorunmasını, əməkdaşların vətəndaşlarla ünsiyyətdə etik davranış qaydalarına daim riayət etməsini, eyni zamanda qətiyyətli olmasını, qanunçuluğun möhkəmləndirilməsini, peşəkarlıq səviyyəsinin artırılmasını tələb edib, xidməti fəaliyyətin səmərəliliyinin davamlı olaraq artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib. Həmçinin bildirib ki, ölkədə cinayətkarlıqla mübarizədə, asayişin və təhlükəsizliyin təmini işində əldə edilmiş müsbət nəticələr Daxili İşlər Nazirliyinin əməkdaşlarını arxayınlaşdırmır, şəxsi heyət suverenliyini tam təmin etmiş Azərbaycanın bütün ərazilərində qanunla müəyyən edilmiş vəzifələrin icrasını davam etdirərək xalqa xidmət funksiyalarını layiqincə və əzmlə həyata keçirməyə çalışır.

Nazir Vilayət Eyvazov bildirib ki, daxili işlər orqanları ölkədə qanunçuluğun, hüquq qaydasının qorunması, vətəndaşların təhlükəsizliyinin və məmnunluğunun təmin olunması sahəsində vəzifələri bundan sonra da böyük əzm və qətiyyətlə davam etdirəcək.

***XQ***

# “Xalla-axoizm” və ya yeni Hitlerin erməniпərəstliyi

## *Finlandiyanın parlament sədri İrəvanda nə sərsəmləyib?*




**Bəzi dövlətlərin erməni təəssübündəki motivlər anlaşılandır. Məsələn, Fransanı götürək. Məlumdur ki, ölkədə böyük erməni lobbisi var və həmin lobbi bəlli təsir qüvvəsinə malikdir. Tamam, buna bir sözümüz yoxdur. Ona görə də hazırkı Fransa hakimiyyətinin erməniпərəst hədsizliyində müəyyən qanunauyğunluq və məntiq tapmağa çalışırıq. Heç nə tapmasaq, “Makron xarablayır” deyib keçirik.**

Amma biz necə deyək ki, Yussi Xalla-axo ağını çıxarır? Deyəsən, ad oxucularımıza tanış gəlmədi. Qadın da deyil ki, adamı “Yusi xala” adlandıraq. Məşədi İbadın sözü olmasın, bu kişidir və Finlandiya parlamentinin spikeridir. Finlandiyada parlamentə Eduskunt deyilir. Y.Xalla-axoya spikerdən başqa nə deyildiyini də ehtimal etmək mümkündür. Bu ehtimalın ardınca gedərək arayış verək ki, cənab Xalla-axo “Təmiz finlər” Partiyasını təmsil edir və qurumun sədridir. O, ölkəsində imiqrasiya siyasətinin sərtləşdirilməsinin tərəfdarı kimi tanınır. Hesab edir ki, əcnəbilərə Finlandiya vətəndaşlığının verilməsində ciddi əngəllər olmalı, hətta vətəndaşlığı olan əcnəbilərin bundan məhrum edilməsi üçün ayrıca mexanizm işləməlidir. Bir sözlə, dəhşət. Amma, belə demək mümkünsə, axoik dəhşətizm bununla məhdudlaşmır.

Göründüyü kimi, “Təmiz finlər”in şefi anarxist baxışlıdır. Bu anarxizm özünün ən pik həddinə 2008-ci ildə çatmışdı. Həmin il Xalla-axo iddia etmişdi ki, “İslam pedofil dinidir”, “quldurluq və vergi ödəyicilərinin pulları hesabına yaşamaq” somalililərin milli və genetik xüsusiyyətidir. Siyasətçi, belə yaramaz fikirlərinə görə, ölkəsində birinci və ikinci instansiya məhkəmələri tərəfindən Cinayət Məcəlləsinin “dini asayişi pozma” maddəsi ilə təqsirli bilinmiş, cərimə cəzasına məhkum olunmuşdu. Sonradan Xalla-axo barədəki hökmə “milli ədavətin qızışdırılması” maddəsi əlavə edilmiş və cərimə məbləği artırılmışdı. Finlandiyanın Ali Məhkəməsi isə qərar vermişdi ki, siyasətçi sosial şəbəkə hesabından bəzi ifadələri silməlidir.

Onu da xatırladaq ki, Yussi Xalla-axo 2011-ci ildə partiyasının parlament fraksiyasından müvəqqəti çıxarılmışdı. Səbəb onun Yunanıstan böhranı ilə bağlı “Facebook” sosial şəbəkəsindəki paylaşımı olmuşdu ki, sonradan siyasətçi loru dildə desək, sözünü yemək məcburiyyətində qalmışdı. O, belə yazmışdı: “Yunanıstanın tətil edən işçilərini tanklarla əzmək üçün hərbi xuntaya ehtiyacı var”.

Deməli, beynəlxalq aləmdə heç kəsin yeni Hitler yetişdiyindən xəbəri olmayıbmış. Problem ondadır ki, hazırda bu faşist düşüncəli anarxist Finlandiya parlamentinin sədridir. Mənzərəyə bir qədər geniş yanaşsaq, bu Skandinaviya ölkəsinin timsalında Avropanın hansı acınacaqlı duruma düşdüyü göz önündədir. Bir halda ki, avantürist mahiyyətli psixopat dünyada insan hüquqları ilə bağlı reytinq cədvəllərinin önündə gələn bir ölkədə yüksək taleyüklü vəzifə tutur, başqa nə düşünəsən? Belə qənaətə gəlirsən ki, nəinki Finlandiyanı, bütövlükdə qitəni son dərəcə böyük fəlakət gözləyir. Fəlakətdən söz düşmüşkən, Yussi Xalla-axonun İrəvanda səsləndirdiyinə də mövcud prizmadan yanaşmaq mümkündür. Heç şübhəsiz, vaxtilə İslam dinini təhqir edən bu şəxsin dilə gətirdikləri, eyni zamanda, dini təəssübkeşlik zəminində qiymətləndirilməli olan sərsəmlikdir. Ermənistana önəm verilməsi naminə adamın dediklərinə xristian təəssübkeşliyinin, dini ayrı-seçkilik təmayülünün məhsulu kimi yanaşmaq üçün ciddi əsaslar var.

Beləliklə, Finlandiyanın anarxist baxışlı, siyasi avantürist təbiətli parlament sədri “Sülh və demokratiya naminə birlikdə” formatı çərçivəsində İrəvanda keçirilmiş toplantıda Azərbaycana təzyiq baxımından daha fəal hərəkət etməyin mümkün olub-olmaması ilə bağlı sualı cavablandırarkən bildirib ki, Ermənistanın istənilən növ təcavüzdən qorunmasının ən yaxşı yolu ölkənin gücləndirilməsidir. Nəinki Finlandiya, ümumən, Avropa adına rüsvayçılıq olan bu şəxsin sırf sülh və demokratiya ilə bağlı tədbirdə sərsəmləməsi təəccüblü qarşılanmamalıdır. Çünki zamanında Ermənistanın baş naziri Nikol Paşinyan 44 günlük müharibə reallığını doğurmuş axmaq bəyanatlarını səsləndirərkən, “demokratiyanın qladiatoru” obrazına güvənmişdi. Elə bilmişdi ki, ağzına və ağlına gələn hər şeyi danışacaq, Qərb aləmi onun Azərbaycanı əzməsinə dəstək göstərəcək. Qərbin isə yekun nəticədə Paşinyana göstərdiyi yalnız dirsək olmuşdu. Görünür, Yussi Xalla-axo da ölkəni yeni dirsək üçün həvəsləndirməyə girişib.

Əlbəttə, Qərb və erməni havadarlarının Ermənistanı gücləndirmək naminə ölkəni silahlandırdığını bilirik. Yəni Y.Xalla-axo heç də yenilik etmir. Onu da bilirik ki, rəsmi İrəvan silahlanmanı ümumən ölkənin müdafiə qabiliyyətinin yüksəldilməsi istiqamətindəki tədbir kimi qələmə verir. İndi fin parlament sədri, faktiki olaraq, məsələnin Azərbaycana qarşı yönəldiyini açıqlayır. Yəni həqiqəti dilə gətirir.

Digər tərəfdən, Y.Xalla-axo Azərbaycanı təcavüzkar kimi təqdim edir. Belə təqdimat İrəvanda, yəni Ermənistanın paytaxtında baş verirsə, deməli, ölkə hakimiyyətinin sülhdən danışması boş və mənasızdır. Fin parlament sədrinin fikrini əsaslandırmaq üçün səsləndirdiyi digər tezislər də həmçinin. Nəzərə alaq ki, bu şəxs Azərbaycanla yanaşı, Türkiyənin də adını çəkir. O deyir ki, Azərbaycanda və Türkiyədə Ermənistanın qonşu dövlətlərlə normal münasibət saxlamasını arzulayan insanların olmasından əmindir. Əlbəttə, ümumən, ölkələrimiz sülh tərəfdarıdırlar və ona prinsipial yanaşırlar. Y.Xalla-axonun fikrincə isə Ankarada və Bakıda normallaşmanı istəyənlər prosesin, eyni zamanda, özlərinin uzunmüddətli maraqlarının təminatı baxımından vacibliyini anlayırlar.

Y.Xalla-axonun dediklərində Azərbaycana və Türkiyəyə ünvanlanmış müəyyən şantaj elementləri duyulur. Onun əvvəldən “Ermənistana təcavüz” məntiqini işə salması belə düşünməyə əsas verir. Bir halda ki, fin parlament sədri haqqında söz açdığı təcavüzün gerçəkləşməməsi üçün Ermənistanın dildə iqtisadi baxımdan gücləndirilməsinin, Avropaya inteqrasiya xəttinin möhkəmləndirilməsinin vacibliyinə dair çağırış səsləndirir, üstəlik, normallaşma xəttindən danışır və bu xəttin Ankaranın və Bakının maraqlarının təminatı baxımından vacibliyindən söz açır, deməli belə nəticəyə gəlmək mümkündür ki, ortada incə subliminal mesaj var: ya İrəvanla yola gedin, ya da qarşınızda güclü Ermənistan görəcəksiniz.

Faşist düşüncəli birindən ancaq belə mesaj gözləmək mümkündür. Deyəsən, Y.Xalla-axo özünü çox böyük adam sayır. Amma onun vurğuladığı bir doğru məqam var. Fin parlament sədrinin sözlərinə görə, bu konfliktdə, (Bakı ilə İrəvan arasında - red.) nə qədər çox tərəf tutulsa, bir o qədər Azərbaycana az təsir imkanı olacaq. “Əgər siz kiminsə qərarına təsir göstərmək istəyirsinizsə, o zaman ona, layiq olub-olmamasından asılı olmayaraq, hörmətlə yanaşmalısınız. Buna görə biz Ermənistanın qonşuları ilə normallaşması və tutarlı qərar çıxarılması üçün danışıqları davam etdirməliyik”.

Məsəl var ki, it qorxutmaq üçün hürür, qorxduğuna görə quyruğunu bulayır. Fin parlament sədri də təxminən bu durumdadır. Sonda isə onu deyək ki, Azərbaycan və Ermənistan arasında münasibətlərin nizamlanmasında hansısa xəyali layiqli tərəf varsa belə, həmin tərəf Finlandiya deyil. Məsələ barədə söz açmağa haqqı çatanlar mövcuddursa da, Y.Xalla-axo bu sırada heç ən sonuncu yeri də tutmur. Yaxşı olar ki, o, boyunu aşan məsələlərdən danışmasın. Y.Xalla-axo kimi faşist düşüncəli birinə soyuq Finlandiyada marallara qoşulmuş arabaya rəhbərliyi də həvalə etmək olmaz. Ancaq adam gəlib siyasi səhnədə təmsil olunur, üstəlik, partiyaya başçılıq edib ölkə parlamentinin sədri postunu tutursa, bundan böyük biabırçılıq yoxdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

## Replika

**Son günlər başı qalmaqalda olan Ermənistan parlamentinin sədri Alen Simonyan yenə gündəmdədir. Qalmaqaldan söz düşmüşkən, jurnalistlər ona vaxtilə Ağdama vətən deməsini xatırladıblar. Simonyanın cavabı isə belə olub: "Biz hamınız səhv edirik".**

# Alen Simonyanın etirafı və müstəqil Ermənistan nağılı

## *Yaxud vətənsizlərin ucuz papulizmi haqqında bir neçə söz*

Əlbəttə, erməni spikerə yüksək vəzifə sahibinin qələtinə heç bir bəraətin olmadığını xatırlatmaq mənasızdır. Normal ölkələrdə başqasının torpağına "Vətən" deyən birinin parlament sədri postunu tutmasının mümkünsüzlüyünü yada salmaq da həmçinin. Nəzərə alsaq ki, Ermənistanda uzun illər qonşusunun ərazilərinə göz dikənlər dövlət başçısı, baş nazir, nazir və sair vəzifələri zəbt ediblər, Simonyanın onlardan, məsələn, Serj Sarkisyandan və ya Robert Koçaryandan nəyi əskikdir? Özündən soruşsaq, hələ adlarını çəkdiyimiz məxluqlardan artıq olduğunu da bildirəcək.

Bəli, normal ölkələrdə Simonyan kimi qələt edən biri nəinki istefa verməli və yüksək vəzifə tutmamalıdır, ümumiyyətlə, siyasətdə qalmamalıdır. Ən yaxşı halda, taksi sürməlidir. Ancaq gərək, mənasız söhbətlərlə müştərilərin baş-beynini tökməsin. Baş-beyin tökməyə gəldikdə, Alenin indi gördüyü ən böyük iş, deyəsən, elə budur. Onu da vurğulayaq ki, Simonyandan aşpaz da çıxmaz. Çünki indi diqqətə çatdıracağımız fikrini mətbəxdə dilə gətirsə, bişmiş toyuğu gülmək tutacaq.

Əlqərəz, Simonyan bildirib ki, guya, Avropa İttifaqı, yaxud qurumun hansısa ölkəsi Ermənistanı anti-Rusiya ovqatına köklənməyə təhrik etmir. Əlbəttə, erməni spiker növbəti fikirlərində dediyinin yalan olduğunu göstərdi və bu barədə söz açacağıq. Hələlik isə xatırladaq ki, Ermənistanın baş naziri Nikol Paşinyan 2022-ci ilin dekabrında Prezident İlham Əliyevlə görüşmək üçün Fransa Prezidenti Emmanuel Makronun iştirakı şərtini də irəli sürmüşdü. Yəni görüşə Makronsuz qatılıb qərarverən şəxsə çevrilməyi bacarmamışdı. Belə faktlar çoxdur və hazırkı erməni iqtidarının birbaşa Fransadan idarə olunduğu aydındır.

Bir məsələ də var ki, Ermənistan hakimiyyəti bəzən başını itirir. Bilmir Makronun direktivlərinə əməl etsin, yoxsa okeanın o tayından gələn "sifarişləri" yerinə yetirsin. Hazırkı erməni idarəçilik sisteminin ən böyük problematik dilemması təxminən məhz budur – kimlərin tapşırığını qabağa salaq? Fransanın dediyini etsək, ABŞ nə tədbir görər? Birləşmiş Ştatlara üz tutsaq, Paris durumu necə qarşılayar? A.Simonyan isə bir tərəfdən hansısa Aİ ölkəsinin Ermənistana başqa dövlətlə münasibətləri pozmaq şərtini qoymadığını dilə gətirir, digər yandan deyir ki, qurumun bəzi üzvləri rəsmi İrəvanı bir çox addımlar atmaqdan daşındırmağa çalışıblar. Yəni Aİ üzvləri görəndə ki, Paşinyanın anti-Rusiya ritorikası həddini aşır, bu barədə xəbərdarlıq ediblər və Nikol özünü yığışdırıb. Özünü yığışdıranlardan biri də Simonyandır. Çünki, onun Rusiya əleyhinə "guruldayanların" ön sıralarında dayandığı faktdır.

Bəli, erməni parlament sədrinin yalanı ortadadır. Bir halda ki, kimlərsə Ermənistanı nədənsə, daha doğrusu, Rusiyaya qarşı daha dikbaş davranmaqdan daşındırıblar, deməli, ölkəni idarə edənlər də həmin şəxslərdir və deməli, Simonyanın, Paşinyanın, yaxud onların komandasında yer alan digərlərinin müstəqil Ermənistan dövlətçiliyi barədə danışmaları nağıldan başqa bir şey deyil. Ancaq Alen hərdən danışdığı nağılın içərisinə reallıq tonu da qatır. Məsələn, o, Ermənistanın iqtisadi cəhətdən Rusiyadan asılı olduğunu etiraf edib. Zənnimiz bizi yanıltmırsa, Paşinyan hakimiyyətə gələndən belə bir açıq, bəzək-düzəksiz etirafın eşidilməsi ilk dəfədir yaşanır. Ancaq bu, hələ o demək deyil ki, erməni hakim komandası konstruktiv düşünür. Çünki Simonyan asılılığın aradan qaldırılmasının vacibliyini fərqli tərzdə bildirir.

Əlbəttə, bir dövlət özünün hansısa dövlətdən, yaxud dövlətlərdən asılılığı məntiqi ilə barışmamalıdır. Ancaq bu əzm məkrli niyyətə də söykənməməlidir. Simonyanın sözlərindən gəlinən qənaət ondan ibarətdir ki, Ermənistan rəhbərliyi ölkəsinin Rusiyadan asılılığından qıcıqlanır. Görünür, bir tərəfdən anti-Rusiya tezisləri ilə çıxış etmək, digər yandan Rusiyadan asılı olmaq ağır gəlir. Ona görə də Simonyan deyir ki, vaxt gələcək, rəsmi İrəvan tərəfdaşları ilə məsələni müzakirə edəcək. Axı o, "biz Avropa İttifaqına gedirik ki, görək qurum bizə nə təklif edir" fikrini də səsləndirir. Deməli, Aİ daha sərfəli nə isə təklif etməsə, Ermənistan yaşamını Rusiyadan asılılığının davamı ilə sürdürəcək. Mövcud anlamda Simonyanın "Ermənistan öz seçimini özü edir" fikrini məntiqi saymaq olar. Əlbəttə, söhbət ermənisayağı məntiqdən gedir ki, onda nə rasionallıq, nə də proqmatizm var.

Göründüyü kimi, Simonyanın yanaşmasında müstəqillik anlayışından əsər-əlamət yoxdur. Müvafiq olaraq, onun Ermənistanın asılılığın aradan qaldırılması üçün, guya, bütün sahələrdə diversifikasiya siyasətinə üstünlük verdiyinə dair tezisi də mənasız və əhəmiyyətsizdir. Həm də ona görə ki, rəsmi İrəvan hazırda Azərbaycanla sülhə gəlmir. Paşinyan və komandası anlamır ki, bunun olmaması Ermənistanın bir dövlət kimi müstəqil mövcudiyyəti üçün əngəldir. Bunu yalnız biz demirik, ölkənin birinci prezidenti Levon Ter-Petrosyan məsələ barədə hələ 1996-cı ildə söz açmışdı.



Sonda yenidən A.Simonyanın səhvini etiraf etməsi üzərində dayanaq. Bir erməninin nəinki Ağdamı, o cümlədən Şuşanı, Laçını, Kəlbəcəri, Füzulini, Zəngilanı, Qubadlını, Xocalını, Xocavəndi, Ağdərəni vətən saymasında problemli heç nə yoxdur. Necə ki, vaxtilə Bakını, Sumqayıtı, Şamaxını, Gəncəni və sair bölgələrimizi vətən sayan ermənilər də olmuşdu. (İndi də var. Onların bəzi qismi Azərbaycanda yaşayırlar – red.). Problem Vətən anlayışının klassik erməni düşüncə tərzində necə assosiasiya olunmasıdır.

Diqqət yetirək, bu gün Ermənistan monoetnik dövlətdir. Rəsmi İrəvan, havadarları, bütövlükdə erməni cəmiyyətinin əhəmiyyətli qismi ölkəni vətən sayan azərbaycanlı amilindən qıcıq keçirir. Deməli, erməni təfəkkürü Vətən bildiyi yerdə başqa xalqların ömür sürmələrinə imkan verən təbiətdə deyil. Belə yanaşmada işğalçılıq və qəsbkarlıq motivləri var. Rəsmi İrəvan barışdan uzaq mövqe tutursa, deməli, həmin motivlər aktuallığını qoruyur. Hazırda simonyanlar, paşinyanlar diversifikasiya siyasəti altında xaricdəki havadarların buyruqlarını yerinə yetirirlərsə, deməli, Ermənistanın müstəqilliyindən söhbət gedə bilməz. Bu isə o deməkdir ki, simonyanların səhvlərini etiraf etmələri də mənasızdır. Bir də səhvin etirafı insandan böyüklük istəyir. Erməni hakim komandasının üzvləri isə çox kiçik və cılızdırlar.

**Ə.RÜSTƏMOV**
**XQ**

# Alban diplomatın Qərbi Azərbaycan həqiqəti axtarışı

## *Gənci Muçay: "Azərbaycanın Ermənistandakı tarixi və mədəni irsi: Ermənistanın onu qorumaq və bərpa etmək öhdəliyi"*

**Azərbaycan Respublikasının Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Azərbaycan Beynəlxalq İnkişaf Agentliyi məni Azərbaycana dəvət edəndə bu dəvətin qonşuluğa məhkum olan iki xalq arasında barışıq üçün vacib və ədalətli olduğuna inandığım məsələlər haqqında fikirlərimi bölüşmək fürsəti olduğuna dair heç bir şübhəm yox idi. Bu məqalədə təqdim edəcəyim müşahidələr və nəticələr yalnız iki həftəlik geniş səfərim, çoxsaylı subyektlərlə müsahibələrim və bir neçə obyektə etdiyim səfərlərimdən yox, həm də 2016–2023-cü illərdə Azərbaycan Respublikasında Albaniya Respublikasının səfiri kimi xidmət etdiyim dövrdə bölgəyə olan uzunmüddətli marağımdan irəli gəlir.**

***Sloveniyanın Lyubyana şəhərində yerləşən Beynəlxalq Yaxın Şərq və Balkan Araşdırmaları İnstitutu tədqiq etdiyi regionlarda baş verən, qlobl önəm daşıyan siyasi prosesləri davamlı təhlil etməklə tanınır. Bu strateji mərkəzin Azərbaycan–Ermənistan sülh prosesi barədə ciddi araşdırmalarından biri Albaniyanın Azərbaycandakı keçmiş səfiri Gənci Muçayın "Azərbaycanın Ermənistandakı tarixi və mədəni irsi: Ermənistanın onu qorumaq və bərpa etmək öhdəliyi" mövzusunda ərsəyə gətirdiyi tədqiqat əsəridir.***

***İrihəcmli elmi məqalədə yeni qonşuluq münasibətlərinə məhkum iki xalq arasında barışıq yolları axratılır. Alban diplomata materiallar toplamaqda, araşdırmaları obyektiv və konstruktiv formatda aparmaqda Azərbaycanın Albaniyada səfiri Anar Hüseynov, Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev, Azərbaycanlı siyasi ekspertlər Fərid Şəfiyev, Şahmar Hacıyev və Roza Bayramlı, "Arts Council Azerbaijan"ın rəhbəri Dadaş Məmmədov, ABŞ siyasi eksperti Peter Tase, "AIR Center" və "AIDA" təşkilatları dəstək və tövsiyyələri ilə yardımçı olublar.***

***Məqalənin aktuallığını və Azərbaycan oxucuları üçün maraqlı olaçağını nəzərə alıb kiçik ixtisarla dərc edirik.***

### Müasir Azərbaycanın qısa tarixi

Şərqi Avropa və Qərbi Asiyanın kəsişməsində yerləşən Azərbaycan, coğrafiyası və mədəni müxtəlifliyi ilə formalaşmış zəngin tarixə malikdir. Bu region minilliklər boyunca ticarət, işğal və mədəni mübadilə mərkəzi olmuşdur. Müasir Azərbaycan tarixi 28 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə başlayır. AXC müsəlman şərqində ilk dünyəvi demokratik respublika olmuş, ümumi seçki hüququ və irəliləyişə yönəlmiş konstitusiya təqdim etmişdir. Lakin AXC yalnız 23 ay yaşadı və 1920-ci ildə Sovet İttifaqına birləşdirildi.



SSRİ-nin bir hissəsi kimi Azərbaycan əhəmiyyətli sənayeləşmə və modernləşmə mərhələsindən keçərək neft istehsalı sahəsində mühüm mərkəzə çevrildi. XIX əsrin sonu və XX əsrin əvvəllərində Bakıda geniş neft və qaz ehtiyatlarının kəşfi regionu qlobal enerji maraqları üçün əsas mərkəzə çevirdi. Sovet dövründə Azərbaycan mədəni və təhsil sahəsində inkişafa nail olsada, milli kimlik və siyasi muxtariyyət üzərində ciddi məhdudiyyətlərə məruz qaldı.

SSRİ-nin 1991-ci ildə dağılması və milli hərəkatların güclənməsi ilə Azərbaycan 18 oktyabr 1991-ci ildə müstəqilliyini elan etdi. Lakin 1988–1989-cu illərdə azərbaycanlılar Ermənistan ərazisindəki tarixi torpaqlarından sistemli etnik təmizləmə kampaniyası çərçivəsində zorla köçürülmüşdülər. Bu faktdır ki, 1989-cu ilin sonuna qədər Ermənistanda bir nəfər də azərbaycanlı qalmamışdı.

Müstəqilliyin ilk illəri iqtisadi problemlər və 1988-ci ildən başlayan Azərbaycan–Ermənistan münaqişəsi ilə müşayiət olundu. Bu münaqişə Azərbaycanın əhəmiyyətli ərazi itkilərinə səbəb oldu. 1994-cü ildə əldə edilən atəşkəs Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ regionu və ətraf 7 rayonu işğalda saxlaması ilə nəticələndi və 26 il davam edəcək "dondurulmuş münaqişə" vəziyyəti yaratdı.

1993-cü ildə Prezident seçilən Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan nisbətən sabitlik əldə etdi. Prezident Heydər Əliyev xüsusilə enerji sektoruna xarici investisiyaların cəlb olunması məqsədilə ciddi islahatlar həyata keçirdi. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın Xəzər dənizindəki neft yataqlarının işlənməsi üçün böyük beynəlxalq neft şirkətlərini cəlb etdi və ölkəni qlobal enerji bazarlarında mühüm oyunçulardan birinə çevirdi.

2003-cü ildən etibarən Heydər Əliyevin oğlu Prezident İlham Əliyev Azərbaycanın iqtisadiyyatını, xüsusilə neft və qaz ixracı hesabına inkişaf etdirməyə davam etdi. 2020-ci ildə Azərbaycan İkinci Qarabağ müharibəsində parlaq qələbə qazanaraq 1990-cı illərdə itirilmiş ərazilərin böyük hissəsini işğaldan azad etdi. Münaqişə Rusiya vasitəçiliyi ilə əldə edilən atəşkəslə həll olundu və regional dinamikalar yenidən formalaşdı.

2023-cü il sentyabrın 20-də Azərbaycan Qarabağ iqtisadi rayonunda qanunsuz erməni silahlı qruplarına qarşı yerli antiterror tədbirləri həyata keçirdi. Bu əməliyyatın məqsədi ölkənin suverenliyini bərpa etmək və bölgədə sabitliyi təmin etmək idi.



Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkə kimi iqtisadi modernləşmə, geosiyasi çağırışlar və milli kimliyini gücləndirmək istiqamətində səyləri arasında tarazlıq qurmağa çalışır. Lakin uzunmüddətli sülh üçün əsas problem və vacib şərt "Ermənistanda Azərbaycan tarixi və mədəni irsinin qorunması, mühafizəsi və bərpası" olaraq qalır.

"AIR" Mərkəzinin 2021-ci ildə dərc etdiyi hesabatına əsasən, tarixi və mədəni irs abidələrinin inventarlaşdırılması nəticəsində müəyyən edilmişdir ki, Birinci Qarabağ müharibəsindən (1988–1994) əvvəl Azərbaycanın Qarabağ bölgəsində 706 tarixi və mədəni abidə mövcud idi. Bunlardan 11-i qlobal əhəmiyyətli (6-sı memarlıq, 5-i arxeoloji), 240-ı dövlət əhəmiyyətli (119-u memarlıq, 121-i arxeoloji) və 455-i yerli əhəmiyyətli (393-ü memarlıq, 22-si arxeoloji, 23-ü parklar və xatirə abidələri, 17-si dekorativ sənət nümunələri) idi.

Lakin Ermənistanın Qarabağı və ətraf rayonlarını işğalı nəticəsində 22 muzey, 100 mindən çox eksponat, 927 kitabxana (4,6 milyon kitab), 85 musiqi məktəbi, 4 teatr, 2 konsert zalı, 4 incəsənət qalereyası və 808 istirahət mərkəzi dağıdılıb. Bununla yanaşı, Ermənistanla sərhəddə yerləşən Qazaxın yeddi rayonu və Naxçıvanın Kərki kəndi də eyni taleyi yaşayıb. Ehtimal edilir ki, İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycana qaytarılmış – yeni azad edilmiş ərazilərdə 400-dən çox abidə məhv edilib.

Keçmişdə işğal olunmuş ərazilərdə Azərbaycan irsinin onilliklər boyu məhv edilməsi və təhqir edilməsi ilə yanaşı, erməni işğalçı qüvvələrinin məqsədyönlü siyasəti çərçivəsində bu torpaqlarda Azərbaycan mədəniyyətinin mənimsənilməsi də baş verib. Azərbaycan irsinin mənimsənilməsi yalnız keçmiş işğal olunmuş ərazilərdə yox, həm də müasir Ermənistan ərazisində müşahidə olunur. Hazırda burada azərbaycanlı yaşamır, çünki 1988–1989-cu illərdə 250 min azərbaycanlı məcburi şəkildə deportasiya edilib.

Bu müddət ərzində Ermənistanın işğalı illərində Azərbaycan tərəfindən UNESCO-ya edilən təkrar çağırışlar cavabsız qalmışdı. Azərbaycanın sərhədlərindən kənarda dini bərpa layihələrinə verdiyi töhfələr də Qərb mətbuatı tərəfindən tez-tez gözardı edilir. Bunlara Vatikan katakombalarının, Fransadakı romanesk kilsələrin və Strasburq Kafedralının vitraj pəncərələrinin bərpası daxildir. Bundan əlavə, Azərbaycanın paytaxtının mərkəzində yerləşən Erməni Kilsəsinin bərpası və qorunması da xüsusi qeyd olunmalıdır. Bakıda Katolik Kilsəsi hökumət tərəfindən bağışlanan torpaq üzərində tikilmiş, köhnə sinaqoqlar bərpa edilərək yenidən fəaliyyətə başlamış, həmçinin yeni yəhudi məktəbləri inşa edilmişdir.

Yüzlərlə səhifəlik hesabatları və tarixi salnamələri oxuyarkən, bütün bunların necə baş verdiyini daha dərindən anlamaq mümkündür. Bu tədqiqat işinin məqsədi Azərbaycanın və ümumiyyətlə, hansısa ölkənin tarixi və mədəni irsinin əhəmiyyətinə işıq salmaqdır, çünki bu irs millətin varlığının ruhunu əks etdirir.

Son illərdə Ermənistanda Azərbaycan mədəni irsinin qorunması Ermənistan–Azərbaycan barışığı kontekstində mühüm məsələyə çevrilmişdir. Mədəni irs yerləri, dini abidələr, qəbiristanlıqlar, xatirə abidələri və tarixi artefaktlar bölgənin ortaq tarixinin və milli kimliyin güclü simvolları rolunda çıxış edir

Ermənistanda Azərbaycan irsinin qorunması, mühafizəsi və bərpası iki millət arasında etimadın qurulmasına və davamlı sülhün təmin olunmasına kömək edə bilər. Bu, həm xoş niyyəti göstərən jest, həm də tarixi yaraların sağalması istiqamətində mühüm bir addım hesab oluna bilər.

Mədəni irs yerləri icmalar üçün dərin mənəvi əhəmiyyət daşıyan simvollardır. Belə yerlərin məhv edilməsi və ya buna qarşı laqeyd yanaşma mədəniyyətin silinməsinə səbəb ola bilər ki, bu da narazılıqları daha da dərinləşdirərək barışığın qarşısını alır. Əksinə, bu yerlərin tanınması və qorunması hörmət və anlayışı təşviq edir, davamlı sülhün təməlini möhkəmləndirir. Azərbaycan üçün mədəni irsinin Ermənistanda qorunduğunu görmək, onların tarixlərinə və regiondakı mövcudluğuna hörmət göstərilməsi deməkdir. Bu, həm də yaraların sağalması və qarşılıqlı tanınma yolunda vacib bir addımdır.

**(ardı var)**

**Hazırladı: T.AYDINOĞLU**
**XQ**

25 yanvar 2025-ci il, şənbə Xalq qəzeti

# Yeni geosiyasi trendlər: Cənubi Qafqaz konteksti

### IV məqalə

## Sülhsevər dövlət və sülhsevər region

İlk baxışdan "sülhsevərlik" anlayışı sadə görünür. Lakin onun politoloji anlamını müəyyən etmək kifayət qədər çətindir. Qarşıya "dövləti hansı keyfiyyətlərinə görə sülhsevər adlandırmaq olar?" və ya "hansı kəmiyyət göstəriciləri dövləti sülhsevər edir?" kimi suallar çıxır. Eyni məntiqlə sülhsevərliyin politoloji anlamını regional miqyasa proyeksiya etməyin ciddi elmi kriteriyalarını müəyyən etmək ehtiyacından bəhs etmək mümkündür. Yəni sülhsevərliyin elmi və politoloji anlamı aktuallığını saxlamaqdadır.

Başqa tərəfdən, dövlətin və ya dövlətlər qrupunun sülhsevərliyi ilə bağlı müşahidə edilən spekulyasiyalar bu anlayışı son dərəcə qeyri-müəyyən etmişdir. İndi böyük dövlətlərin hər biri "sülhsevərdir", çünki atdıqları addımların hamısına öncədən "insan haqlarının təmini", "sülhün bərpası", "terrorun qarşısının alınması" və s. kimi epitetləri "yapışdırırlar". Nəticədə nədənsə başqalarının torpaqlarını işğal edən "sülhsevər" olur və ya müstəqil dövlətin daxili işinə qarışmaq da sülhsevərlik sayılır və s.



Burada başqa bir problem faktiki olaraq kiçik və zəif dövlətlərdən hansılarınınsa daha sülhsevər obrazını yaratmaq cəhdləri ilə bağlıdır. Təəssüf ki, bu təhlükəli işlərlə həm böyük dövlətlərin bəziləri, həm də reytinqli təşkilatlar məşğul olurlar. Bunun nümunəsini bir qədər sonra göstərəcəyik. İndi bu cür yanaşmanın potensial geosiyasi riski üzərində dayanaq.

Məsələ onunla bağlıdır ki, süni olaraq hansısa kiçik, zəif, lakin mahiyyəti təcavüzkarlıq olan dövləti sülhsevər kimi qələmə vermək bütövlükdə qlobal miqyasda geosiyasi və siyasi-hərbi ab-havanı qeyri-müəyyənliyə sürükləmək deməkdir. Müxtəlif bəhanələrlə dünyada gərginliyi saxlamaqdır. Sülh adından istifadə edərək kimlərəsə özlərinin eqoist şəxsi siyasi və geosiyasi-hərbi maraqlarını təmin etməsinə münbit şərait yaratmaqdır.

Bununla yanaşı, məhz belə süni mühit yaradanların dünyaya hakim kəsilmək nəfsi həqiqi mənada sülhün təmin edilməsinə ciddi əngəllər yaradır. Bütün bunlara görədir ki, indi siyasi liderlər qlobal xaosdan, idarəedilən geosiyasi qarışıqlıqdan, bəşəriyyətə fundamental təhdidlərdən, ümumiyyətlə, dünyanın mövcud olmasına yaranan risklərdən bəhs edirlər.

Onda avtomatik olaraq həqiqi mənada "sülhsevər dövlət kimdir, onun ktriteriyaları hansılardır və prinsipcə sülhsevərlik mümkündürmü?" kimi politoloji və fəlsəfi xarakterli suallar ortaya çıxır. Bununla bağlı dünya təcrübəsi mövcuddurmu?

Bu suallara cavab əsasında ümumiləşdirmə edib "sülhsevər region" haqqında danışmağın elmi, fəlsəfi və politoloji əsası vardırmı? Məsələ onunla bağlıdır ki, adi məntiqlə dövlətdən dövlətlər qrupuna və oradan da bütöv regional miqyasa coğrafi baxımdan fikir keçidi etmək olar. Lakin əsaslı fəlsəfi və ya politoloji anlamda bu keçidi dərk etmək tamamilə fərqli yanaşma və çalışma tələb edir. Bu baxımdan həqiqi mənada sülhsevər region ifadəsi tam aydın deyildir. Hazırkı geosiyasi şəraitdə, ümumiyyətlə, bunun mümkün olub-olmaması müzakirə olunmalıdır.

Sualların belə qoyuluşundan iki istiqamətdə fikir yürütmək olar. Birincisi, hazırda dünya miqyasında hansı təcrübə mövcuddur? İkincisi, Azərbaycan Respublikası sülhsevər dövlət kriteriyaları kontekstində təcrübə təklif edə bilirmi? Yığcam desək, Azərbaycan hansı parametrlər çərçivəsində "sülhsevər dövlət" ifadəsinə anlam verir? Öncə, dövlətlərin sülhsevərliyi kriteriyaları ilə bağlı dünya təcrübəsinə baxaq.

## Sülhsevərliyin Qlobal İndeksi

Sülhsevərliyin Qlobal İndeksi (GPI) 2007-ci ildən tərtib olunur. O, bütövlükdə dövlətin özünün zorakılığının və zorakılıq qorxusunun olmamasını qiymətləndirir. Onun iki aspekti vardır. Biri dövlət daxilində zorakılığın olmamasıdır. Digəri isə dövlətin kənardan ola biləcək zorakılıqlara hazırlıqlı olmasıdır. Bura başqa kriteriyalarla yanaşı, "qonşu ölkələrlə münasibətlər" də daxildir.

Burada digər kriteriyalar üzərində dayanmaq imkanı yoxdur. Onların sırasında dövlətin silahlanma dərəcəsi, münaqişələrə münasibəti, beynəlxalq səviyyədə münaqişələrdə iştikarı və s. kimi göstəricilər daxildir.

Onu deyək ki, 2008-2018-ci illər üzrə GPI reytinqində Ermənistan Azərbaycandan öndə göstərilmişdir (Ermənistan 120-ci yer, Azərbaycan 132-ci yer). Ermənistan hətta ABŞ-dan "daha sülhsevərdir" (Amerika 121-ci yer). İsrail 146-cı, Türkiyə 149-cu, Rusiya 154-cü, Suriya 163-cü yerlərdədirlər. Reytinqdə ilk sıraları isə İslandiya, Yeni Zelandiya və Avstriya tuturlar. Ümumilikdə 163 dövlətin "sülhsevərlik" dərəcəsi göstərilmişdir.

Reytinqlə bağlı mütəxəssislərin fikirləri də müxtəlif beynəlxalq analitik mərkəzlərdə verilir (məsələn, Rusiyanın RSDM-də). Bu o deməkdir ki, beynəlxalq miqyasda GPI reytinqinə ciddi münasibət mövcuddur. Ancaq cədvəl göstərir ki, burada obyektivlik və ədalətlilik gözləniləndən çox aşağı səviyyədədir. Reytinq tərtibçiləri (Sidney Universiteti və digərləri) universal kriteriyalar müəyyən edə bilməmişlər və üstəlik, informasiyaları birmənalı və obyektiv qiymətləndirə bilməmişlər.

Nümunə kimi göstərə bilərik ki, Ermənistan həm qonşu dövlətin ərazisinə hərbi təcavüz etmişdir, həm də silahlanmaya çox fikir vermişdir. Onun hərbi hissələri 30 ildən çox Azərbaycan ərazisində vardı və oradan onu heç bir danışıq və təşkilat çıxara bilmirdi. Ermənistan Cənubi Qafqazda daxili zorakılığı ən yüksək olan ölkədir. Hətta onun prezidenti olmuş Levon Ter-Petrosyan indi fəxarətlə danışır ki, "azərbaycanlıları necə və hansı məqsədlə qovmuşlar". Yəni bu məqam erməni siyasi şüurunda təcavüzkarlığı, qonşu ölkələrə zorakı münasibəti avtomatik olaraq nümayiş etdirir.

Ermənistan həm də Türkiyə və Gürcüstana ərazi iddiasında olan ölkədir. İrəvan mədəni irslərə də əsassız olaraq iddia etməkdədir. Onun Konstitusiyasında hələ də qonşu dövlətlərə - Azərbaycan və Türkiyəyə ərazi iddiası qalmaqdadır. Hətta Azərbaycan rəsmi surətdə həmin iddiaların Konstitusiyadan çıxarılmasını tələb edir, lakin rəsmi İrəvan müxtəlif bəhanələrlə həm boyun qaçırır, həm də təcavüzkarlığa, silahlanmaya rəvac verə biləcək əlavə, dolayı və qondarma yollar axtarır.

Bunlar onu göstərir ki, reallıqda Ermənistan dünyanın ən aqressiv, təcavüzkar və militarizasiya səviyyəsi yüksək olan dövlətlərindən biridir. Onun GPI kimi reytinqlərdə, ümumiyyətlə, yeri olmamalıdır. Ancaq bunun əksini həmin reytinq cədvəllərindən görürük.

Buradan "sülhsevər dövlət" obrazının reallıqda GPI-ya çox az aiddiyyatı olduğu nəticəsini çıxara bilərik. Yəni avtomatik olaraq problem başqa, alternativ ola biləcək kriteriyalar və fəaliyyət istiqamətləri axtarışına fokuslanmış olur. Bu prizmada sülhsevər dövlət və sülhsevər region anlayışlarının təhlili geosiyasi trendlər aspektində ciddi təhlil tələb edir. Bununla bağlı Azərbaycan təcrübəsini necə xarakterizə etmək olar?

## Sülhsevərliyin Azərbaycan nümunəsi

Biz məsələni ciddi fəlsəfi, elmi və politoloji kontekstdə məhz bu cür qoya bilərik. Səbəbi onunla bağlıdır ki, Azərbaycan Respublikasının müasir mərhələdə həmin istiqamətdə 30 ildən çox təcrübəsi vardır.

Birinci arqument ondan ibarətdir ki, Azərbaycan müstəqilliyini əldə edəndən sonra heç bir qonşu dövlətə qarşı təcavüzkarlıq etməmişdir və beynəlxalq münaqişələrə qarışmamışdır. Heç bir münaqişəni alovlandırmamışdır. Əksinə, hətta 1991-1993-cü ilin birinci yarısı müddətində daim özünü kənar təsirlərdən, münaqişəyə təhrik edən hərəkətlərdən qorumuşdur. Lakin 1993-cü ilin ikinci yarısına qədər bunu xaotik formada reallaşdırmağa cəhdlər etmişdir – sistemli və düşünülmüş fəaliyyət planı, təəssüf ki, yox idi. Heydər Əliyev xalqın təkidi ilə yenidən hakimiyyətə gəldikdən sonra Azərbaycan Respublikası davamlı, düşünülmüş və sistemli sülhsevər siyasət yeritmişdir. Onun da konkret əlamətləri vardır. Həmin əlamətlər Heydər Əliyevin müstəqil dövlət quruculuğu konsepsiyasının mühüm parametrləri sırasına daxildir.

Çox əhəmiyyətlidir ki, Heydər Əliyevin sülhsevər dövlət identifikasiyası birbaşa regional və qlobal geosiyasi trendlərin məntiqi və prosessual xüsusiyyətləri ilə sıx bağlıdır. Yəni Azərbaycan Cənubi Qafqaz dövləti kimi sülhsevərliyini postsovet məkanında ilk olaraq geosiyasi yeniləşmə kontekstində götürmüşdür. Burada məntiqi bağlılıq mükəmməl şəkildə özünü göstərir.

Azərbaycan sülhsevərliyə dövlət olaraq hər şeydən öncə, daxilində münaqişəsiz və qarşıdurmasız cəmiyyət modeli yaratmaqla yanaşır. Bunu təmin etmək üçün bir neçə istiqamətdə qarşılıqlı əlaqədə fəaliyyət göstərməyə başlamışdır.

Birincisi, azərbaycançılıq məfkurəsi vətəndaşları eyni birlik ideyası ətrafında birləşdirmişdir. Cəmiyyətdə azərbaycançılıq aparıcı inteqrativ faktora çevrilmişdir. Bu da inklüziv olaraq cəmiyyətdə münaqişəsiz və risksiz mühit yaratmağa imkan vermişdir.

Digər faktor multikulturalizmdir. Bu dəyər azərbaycanlıların bütün mədəni fərqlilikləri vahid cəmiyyət kontekstində bütövləşdirməsinə şərait yaratmışdır. Multikulturallıq cəmiyyətdə mövcud olan hər bir mədəni özəlliyin vahid ortaq sistemdə tam hüquqla varlığını saxlamağa lazım olan mühiti yaratmışdır.

Bununla beynəlxalq kriteriyaların da tələb etdiyi daxili münaqişəsiz və ziddiyyətsiz bütöv cəmiyyət nümunəsini formalaşdırmaq üçün zəruri şərtlər ödənmişdir.

Nəhayət, sülhsevərliyin daxili aspektdə güclü təminatçılarından biri kimi hüquqi normativlərin müəyyən edilməsini göstərmək olar. Azərbaycanda 1995-ci ildə yeni Konstitusiyanın qəbulu buna nail olmaq üçün lazım olan münbit hüquqi baza yaratmışdır.

Beləliklə, Azərbaycanın sülhsevərliyinin əsas daxili kriteriyaları azərbaycançılıq, multikulturalizm və qanunun aliliyi kimi müəyyən edilmişdir. Bu üç sferanın qarşılıqlı əlaqəsi özlüyündə müstəqil Azərbaycan dövlətinin aqressiv olmayan, hüquqa, insan haqlarına, mədəniyyət müxtəlifliyinə, vahid ideoloji yönə malik cəmiyyətə əsaslandığını göstərməkdədir. Sülhsevərliyin bu başlıca kriteriyalarının həyata keçməsi milli ideya vasitəsi ilə mümkün olmuşdur. Bununla milli ideya sülhsevərliyin əsas reallaşma mexanizmi kimi qəbul edilə bilər.

Buradan Azərbaycanın sülhsevər dövlət kimi əsas xüsusiyyətinin əhəmiyyətli bir cəhətini müəyyən etmək olar. Həmin cəhət sülhsevərliyin daxili kriteriyaları reallaşdırma mexanizmi kimi milli ideyanın xilasediciliklə birliyi, qonşu xalqlara tolerant münasibəti, daim dialoqa hazır olmağı özündə ehtiva edən və həmin əsasda regional sülhsevərliyin möhkəm təməlini yaradan dəyər olaraq təsəvvür edilməsinə imkan yaradır.

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# "Böyük manipulyator"

**Ma k ENDEVELD**

*(əvvəli qəzetin ötən saylarında)*

Brijit Makronun nüfuzlu tanışlarının siyahısına bir adamı da əlavə etmək lazımdır – Jak Att ali. Brijit, əvvəl onu Emmanuellə tanış edir. Sonra Fransua Mitt eranın bu keçmiş məsləhətçisindən xahiş edir ki, onun gənc ərini Fransua Holland ilə görüşdürsün. Elə bu dövrlərdə Makronlar cütlüyü sonradan Emmanuelin yaxın dostuna çevrilən, sənayeçi Henri Hermanddan mənəvi dəstək və maliyyə yardımı alır. Geniş ictimaiyyətə o qədər də məlum olmayan, 1924-cü ildə kiçik bir tacir ailəsində doğulan, hal-hazırda milyonçu olan bu adam vaxtilə Mişel Rokard (keçmiş Baş nazir) üçün də maliyyə dəstəkçilərindən biri olub. Makron onunla 2002-ci ildə Bove prefekturasında ilk dəfə staj keçəndə tanış olub. Bu iki şəxs çox tez bir zamanda yaxın dostlara çevrilirlər. Aralarındakı yaş fərqinə baxmayaraq Makron hər yerdə deyir ki: "O mənim ən yaxın dostumdur...". Hermand, həqiqətən də gənc dostu üçün şəxsi telefon kitabçasını açır və bir neçə il sonra onu Mişel Rokard ilə görüşdürür. 2007-ci ildə Brijit ilə nikah kəsdirəndə, Emmanuel ona şahid olmağı təklif edir. "Bu sevgililər çox çətin sınaqlardan keçiblər", – deyən bu yaşlı adam 2015-ci ildə bizə etiraf edir ki: "Emmanuelə Brijitlə evlənməyi mən məsləhət gördüm...". Qəribə etirafdır... Onların toy mərasimi Tuket kurortunda, lüks Vestminster hotelində təşkil edilir. Bu dəbdəbəli toyun xərcinin xeyli hissəsini, səxavətli miyoner, bəyin dostu Henri Hermand çəkir. Emmanuel ilə Brijit ilk mənzillərini alanda da qoca milyonçu onlara 550 000 avro məbləğində borc verir.

da öz fikirlərini deməkdən çəkinmir. (!) 2016-cı ilin yayında Hərəktdə! hərəkatı təzə-təzə relsə düşəndə və İqtisadiyyat naziri Makron istefa verib-verməmək haqqında götür-qoy edəndə, ətrafındakılara deyir: "Heç bilmirəm istefa verim, ya yox? Görəsən, altı aydan sonra prezident seçilə bilərəm? Deyirəm, bəlkə, hələ tezdir... heç indi istefa verməyim...

2022-ci ili gözləyim?..". O vaxt Brijit onu dilə tutur ki, hökmən 2017-ci ildəki prezident seçkilərinə namizədliyini irəli sürsün. Gələcək birinci xanım medianın ərinə təzyiqini, ona olunan şəxsi və siyasi hücumları o qədər də vecinə almır. Onların yaxın dostlarından biri etiraf edir ki, "bu ər-arvad sözün əsl mənasında hakimiyyətə aşiqdirlər".

## Narkotik kimi bir şey

Bu ümumi atmosfer, bu zirvələri fəth etmək iştahı, kimlərdənsə intiqam almaq arzusu, bəziləri demişkən, kimlərəsə yanıq vermək istəyi onları get-gedə bir-birinə daha çox bağlayır. Bu cütlük yaxşı tapışıb. Emmanuel Makron hər yerdə təkrar edir ki: "Brijit mənəm... mən də Brijit".

"Onlar iki bədəndə bir qəlbdirlər", – deyə bu cütlüyün yaxın dostlarından biri rişxəndlə gülür. Onların başqa bir yaxın adamı ehtiyatla bizə dedi ki: "Brijitin siyasi ambisiyası Emmanuelinkindən daha çoxdur". Seçki kampaniyası zamanı bunu hamı hiss etdi. Odur ki, onların yaxın çevrəsində olan adamlardan biri daha dəqiq analiz verir:

"Emmanuel fenomenini Brijit yaratdı. Onda prezident olmağa həvəs oyadan, ona ilham verən, onda hakimiyyətə istək aşılayan, bir sözlə, onu adam edən Brijit oldu. Onun taleyini də Brijit yazdı. Ona görə də, Emmanuel hər şeyə görə ona borcludur...". Prezident seçkilərinin birinci turundan sonra Emmanuel Makron, kampaniyasının bütün üzvləri qarşısında arvadına bu sözlərlə təşəkkür edir: "... Brijitə, birinci növbədə həmişə yanımda olan Brijitə təşəkkür edirəm... Onsuz mən, mən olmazdım...". Onun bu sözlərindən sonra seçki kampaniyasının üzvlərindən biri yanındakına tərəf əyilib istehza ilə pıçıldayır: "Makronun həyatını kim idarə edir? Özü, yoxsa arvadı?".




## Hakimiyyətə aşiq olanlar

"Emmanuel Makronu başa düşmək üçün başlıca şərt onun arvadı Brijitdir. Bu qadının ərinin yanında xüsusi və çox mühüm bir rolu var...", – bu sözləri 2014-cü ildə gənc maliyyə müfəttişini neçə illər əvvəl tanıyan, biznes sahəsində əvəzsiz məsləhətçi sayılan Alan Mink deyir. O zamanlar Brijit Makronun, ərinin siyasi karyerasında nə qədər əhəmiyyət kəsb etdiyini yalnız onları çox yaxından tanıyan adamlar bilirdi. 2014-cü ilin yayında Alan Minkin evində təşkil olunan şam yeməyi zamanı Fransanın gələcək birinci xanımı stol arxasındakılara müraciətlə deyir ki: "Mənim ərim prezidentliyə namizədliyini 2017-ci ildə verməlidir...". Stol arxasında oturanların bir çoxu ona məsləhət görür ki, yaxşısı budur Emmanuel 2022-ci ili gözləsin, çünki hələ çox gəncdir. "...yox biz 2022-ci ilə qədər gözləyə bilmərik. Çünki bizdə böyük problem var. O problem də mənəm, mənim sir-sifətimdi... Ona görə də biz tələsməliyik", – deyə gələcək birinci xanım qətiyyətlə cavab verir.

Brijit ilə Emmanuel həm emosional tərəfdən bir-birinə bağlıdırlar, həm də siyasi tərəfdən. Onlar hakimiyyət cütlüyüdürlər. Onlar birlikdə siyasi mövzuları müzakirə edir, fikir mübadiləsi aparır və bir-birinə məsləhət verirlər. Elə olub ki, onlar bütün gecəni səhərə qədər yatmayıb ölkədəki sosial təminat problemini müzakirə ediblər. Amma Emmanuel Makron diqqət mərkəzində olanda, həyat yoldaşı çalışır ki, ona kölgə salmasın. Belə anlarda Brijit arxa planda qalmağı üstün tutur. Hələ əvvəllər əyalətdə – Amiyən şəhərindəki liseydə, Brijit Emmanuelin dram müəllimi olanda ona həmişə baş rollar verirdi. Mediadan və siyasi arenadan kənar işlərdə Brijit yalnız ərini bir həyat yoldaşı kimi dəstəkləyir... İqtisadiyyat Nazirliyində Brijit nazir ərinin professional həyatında yaxından iştirak edir. Ancaq nazir "Times" qəzetinə müsahibəsində qeyd edir ki, "həyat yoldaşım nazirlikdən maaş almır. Onun İqtisadiyyat Nazirliyində heç bir rəsmi funksiyası yoxdur". Makronun ətrafındakılar da mətbuatda bir ağızdan deyirlər ki: "düzdür, nazirin arvadı rəsmi iclaslarda iştirak edir, ancaq sadəcə olaraq, ərinin gündəlik iş cədvəlini daha yaxşı idarə etmək üçün...".

Əslində isə hər şey tərsinədir. Brijit Makron İqtisadiyyat Nazirliyində hər şeyə burnunu soxur, hər işə qarışır, hər məsələ barəsində öz fikrini bildirir: kimi hansı vəzifəyə götürmək lazımdır, kimi hansı işdən uzaqlaşdırmaq lazımdır... o, hətta siyasi və iqtisadi strategiya ilə bağlı

Həyat yoldaşı çox nadir insanlardan biridir ki, Emmanuel Makron onu, həqiqətən, diqqətlə qulaq asır və ona yüz faiz etibar edir. Hər ikisinin xasiyyəti ağır olduğundan, hər ikisi tərs, ancaq öz dediyini eləyən adam olduğundan, onlar həqiqəti bir-birinin üzünə kobud şəkildə, filtrdən keçirmədən deməyi bacarırlar. Brijit Emmanueli əks etdirən güzgüdür. Emmanuel ona baxıb özünü görür. Arvadı onun üçün narkotik kimi bir şeydir. Seçki kampaniyasının pərdə arxasında, mərkəzi siyasi rolu əsasən Brijit oynayır. O, ətrafına "dostlarından" ibarət başqa bir kampaniya yığıb, paralel olaraq onlarla da təşviqat aparır. Onun dostları arasında "Challenges" qəzetinin jurnalisti Brüno Roje-Peti, eləcə də Bertrand Dele kimi siyasətçi var. Teleqram elektron-mesaj platforması vasitəsilə onlar Brijitə hansı strategiyanı tutmaq və necə inkişaf etdirmək haqında məsləhətlər verirlər. Arvadının "dostları" öz qəhrəmanlarının mediadakı imicini qaldırmaq və seçicilərlə görüşlərini planlaşırmaqla məşğul olur. 2016-cı ilin payızında Brijit Makron ərinin öz prezidentlik macəraları haqqında yazıb çapa hazırladığı Revolution (İnqilab) kitabının əlyazmasını dəfələrlə oxuyur, bəzi hissələrini dəyişdirir, bəzi fəsilləri yerli-dibli dəyişib özü bildiyi kimi yazır. Arvadı Emmanuel Makronun bir çox çıxışlarını da, necə deyərlər, redaktə edir, bəzi hissələrini pozur, bəzi hissələrini artırır. "Brijit ərinin prezident kampaniyası vaxtı təşviqat sisteminin döyünən ürəyi idi", – deyə onlara könüllü kömək göstərən seçicilərdən biri etiraf edir. Hətta həddindən artıq vacib və siyasi cəhətdən həssas məsələlərdə belə Brijit şəxsən özü qərar qəbul edir, məsələn, namizədin xarici ölkələrə səfərləri, hansı ölkənin prezidenti ilə nə vaxt görüşməyi, onunla hansı problem barədə danışmağı arvadı ona məsləhət görür. Seçkilərin ikinci turundan sonra Brijit prezident seçilən ərini də yanına alıb axırıncı dəfə seçki kampaniyasının baş qərargahına baş çəkir, kampaniyanın hər bir üzvünə seçkilər zamanı göstərdikləri köməyə görə ayrı-ayrılıqda təşəkkür edir.

**(ardı var)**

# BP "gənc bacarıqlar"ı dəstəkləyir

**Böyük Britaniyanın enerji nəhəngi olan BP şirkəti Azərbaycanda həyata keçirdiyi iri neft-qaz layihələri ilə yanaşı, sosial sahələrdə də bir sıra mühüm təşəbbüslərlə çıxış edir.**



Şirkət bugünlərdə "Azəri–Çıraq–Günəşli", "Bakı–Tbilisi–Ceyhan", "Şahdəniz" və "Cənubi Qafqaz Boru Kəməri" layihələrindəki tərəfdaşları – SOCAR, TPAO, LUKOIL, SGC, NICO, MOL, INPEX, ExxonMobil, ITOCHU, ONGCVidesh, Eni, MVM və TotalEnergies adından 2023-cü ildən dəstəklədiyi təhsil layihəsinin sonuncu mərhələsini uğurla başa çatdırıb. Azərbaycanda startap mühitinin yaxşılaşdırılması və innovasiya ekosisteminin genişləndirilməsi məqsədi daşıyan "Gələcək üçün bacarıqlar" adlı layihə innovasiya, texnologiya, rəqəmsallıq və sahibkarlığın əlçatanlığının təmin edilməsi, eləcə də ölkənin startap ekosisteminə mühüm töhfə sayıla bilər.

Dünən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan 7 saylı Bakı "ASAN xidmət" mərkəzində Türkiyənin "Bilişim Vadisi" " startap mentorluq şirkəti ilə birlikdə həyata keçirilən 6 aylıq inkubasiya proqramının təqdimatına həsr olunmuş mərasim keçirildi.

Öncə tədbir iştirakçıları təqdimatlar və sərgi stendləri vasitəsilə 10 iştirakçı komandanın ideya və layihələri ilə yaxından tanış oldular. Sonra agentliyin təşəbbüsü ilə yeni əməkdaşlıq imkanlarının genişləndirilməsi məqsədilə Azərbaycan Memarlıq və İnşaat Universiteti və Naxçıvan Dövlət Universiteti ilə anlaşma memorandumları imzalandı. Bununla da agentliklə startap layihələri sahəsində əməkdaşlıq edən universitetlərin sayı 14-ə çatdırıldı. Daha sonra layihə çərçivəsində həyata keçirilən tədbirlərdən bəhs edən videoçarx nümayiş etdirildi.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi İdarə Heyətinin sədri Orxan Məmmədov, Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini İdris İsayev, Türkiyənin "Bilişim Vadisi" startap mentorluq şirkətinin icraçı direktoru Erkam Tüzgen və BP-nin Xəzər regionunda vitse-prezidenti Bəxtiyar Aslanbəyli çıxış edərək gənclərin potensialını artırmaq, innovativ ideyaları dəstəkləmək və bu ideyaların ölkəmizin texnoloji inkişafına töhfə vermək baxımından xüsusi əhəmiyyət daşıyan "Gələcək üçün bacarıqlar" layihəsi ilə bağlı mülahizələrini bölüşdülər.

Qeyd olundu ki, gənclərin qazandıqları biliklərin real təcrübəyə transfer edilməsinə imkan yaradan layihə qarşıya qoyduğu hədəflərə çatmaq üçün uğurlu inkişaf yolu keçib. Azərbaycanın qabaqcıl universitetləri ilə sıx əməkdaşlıq şəraitində reallaşdırılan layihə ölkə ərazisində startap ideyalarını potensial investorlarla əlaqələndirən "TUSİ" inkubasiya proqramı kimi tanınan startap təhsili təşəbbüsünün səmərəliliyinin artırılması fəaliyyətlərini uğurla dəstəkləyib.

Diqqətə çatdırılıb ki, startap təşəbbüslərinin, inkubasiya proseslərinin və investisiyadan əvvəl ümumi hazırlıq işlərinin keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş təlim, mentorluq və digər fəaliyyətlərdən ibarət inkubasiya proqramı çoxsaylı ərizəçilər arasından seçilmiş, təxminən, 10 komanda üçün təşkil olunmuş 6 aylıq proqrama Türkiyənin "Bilişim Vadisi" startap mentorluq şirkətinin təcrübəli mentor və ekspertləri rəhbərlik ediblər. Proqram çərçivəsində 8 iştirakçı komandanın layihələrinin təfərrüatlı təqdimatlarından ibarət onlayn televiziya proqramlarına çıxış müxtəlif vasitələr və kanallar üzərindən təmin edilib.

Xatırladaq ki, "İnnovasiyalar Mərkəzi" MMC yerli təhsil təşkilatı tərəfindən həyata keçirilən layihənin ümumi dəyəri 91 min manatdan (təxminən, 53 min 600 ABŞ dollar) artıq olub.

# Biznes subyektlərinin sadə qeydiyyatı



**(əvvəli 1-ci səhifədə)**

O bildirib ki, hazırda biznes mühiti və beynəlxalq reytinqlər üzrə komissiyanın tərkibində fəaliyyət göstərən və Dövlət Vergi Xidmətinin rəhbərlik etdiyi "Biznesə daxilolma" İşçi qrupu biznes qeydiyyatının daha da təkmilləşdirilməsi üçün intensiv iş aparır. Belə ki, son bir ildə bu işçi qrupun təşəbbüsü ilə biznes qeydiyyatını sadələşdirmək məqsədilə "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanuna, eləcə də Əmək, Mülki və İnzibati Xətalar məcəllələrinə dəyişikliklər edilib.

Nəticədə, kommersiya qurumlarının dövlət qeydiyyatı üzrə qanunvericilik beynəlxalq standartlara uyğunlaşdırılıb və xarici investisiyalı MMC-lərin qeydiyyat prosedurları sadələşdirilib. Bu, təkcə investisiya mühitinin yaxşılaşdırılmasına deyil, həm də Azərbaycanın beynəlxalq reytinqlərdə mövqeyinin güclənməsinə müsbət təsir göstərəcək.

E.Kərimli əlavə edib ki, 2024-cü ilin digər mühüm yeniliklərindən biri MMC-lərin təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyinin elektron qaydada qeydiyyata alınmasıdır. Bu yenilik biznes sahibləri üçün vaxt itkisini əhəmiyyətli dərəcədə azaldır. Əvvəllər yalnız yerli investisiyalı kommersiya hüquqi şəxslərin ilkin qeydiyyatı elektron qaydada aparılırdı. Yeni prosedurlar nəticəsində isə həm yerli, həm də xarici investisiyalı MMC-lər təsis sənədlərində edilmiş dəyişikliklərin elektron qeydiyyatı üçün ərizə ilə müraciət edə bilirlər.

Ekspertin fikrincə, 2025-ci ildə bu sahədə yeni islahatlar gözlənilir: "Kommersiya qurumlarının benefisiar mülkiyyətçiləri barədə məlumatların dövlət qeydiyyatına alınması və müvafiq reyestrin yaradılması planlaşdırılır. Bu prosesə dair normativ sənədlər hazırlanır və qüvvəyə mindikdən sonra lazımi texniki imkanlar yaradılacaq. Bununla, Azərbaycanın biznes qeydiyyatı sahəsində qazandığı uğurlar onu dünya miqyasında ən qabaqcıl ölkələrdən biri kimi mövqeyini qorumağa imkan verəcək".

# Coğrafi məlumatların yeni standartları

**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) coğrafi məlumatlara dair yeni dövlət standartlarını qəbul edib.**




AZSTAND-nın məlumatına görə, sözügedən standartlar coğrafi məlumatların toplanılması, saxlanılması, mübadiləsi, idarə edilməsi, modelləşdirilməsi, zamanla əlaqəli dəyişikliklərin izlənilməsi, məlumatların vizualizasiyası, kodlaşdırılması və təqdim olunması prosesləri haqqında qaydaları müəyyən edir. Eyni zamanda, standartların tətbiqi fərqli qurumlar arasında məlumatların vahid texniki platforma üzərindən istifadəsinə, dövlət qurumları və ictimaiyyət üçün məkan məlumatlarına şəffaf və asan çıxış imkanlarına, habelə rəqəmsal hökumət və rəqəmsal iqtisadiyyat təşəbbüslərinin həyata keçirilməsinə şərait yaradacaq.

Yeni dövlət standartları standartlaşdırma üzrə Texniki Komitədə müzakirəyə çıxarılıb və institut onları təsdiqləyərək Standartlaşdırma üzrə normativ sənədləri Dövlət Fonduna daxil edib.

# Dövlət – özəl tərəfdaşlığı islahatlara dəstək verir

**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti və "Caspian Energy Club"un birgə təşkilatçılığı ilə "B2G" forumu keçirilib.**

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə komissiyanın əmtəə bazarının səmərəliliyi və rəqabət işçi qrupunun fəaliyyəti çərçivəsində təşkil olunan toplantı zamanı dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi, o cümlədən rəqabət və dövlət satınalmaları sahəsində həyata keçirilən institusional islahatlar barədə müzakirələr aparılıb. Onlayn formatda təşkil olunan tədbirdə "Caspian Energy Club"a üzv olan və iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən biznes subyektlərinin nümayəndələri iştirak ediblər. Onlar Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəis müavini Cəfər




Babayev, dövlət satınalmalarına nəzarət şöbəsinin müdiri Əhməd Həsənov və "Caspian Energy Club"ın sədri və qrupun baş icraçı direktoru Telman Əliyevin çıxışları dinlənilib.

Çıxışlar zamanı dövlət və özəl sektor arasında etibarlı və səmərəli əlaqələrin qurulması, rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafı və sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasında rəqabət qanunvericiliyinin tətbiqinin önəmi vurğulanıb. Bundan əlavə, dövlət satınalmalarına nəzarətin gücləndirilməsi, müvafiq sahənin elektronlaşdırılması və daha çox sayda sahibkarlıq subyektinin satınalmalarda iştirakının təmin edilməsi istiqamətində atılan addımlar barədə məlumat veriblər.

Müzakirələrdə dövlət və özəl sektor arasında səmərəli kommunikasiya mühitinin formalaşmasında, biznes subyektləri ilə sağlam əməkdaşlıq əlaqələrinin inkişafında Dövlət Xidmətinin həyata keçirdiyi tədbirlər diqqət mərkəzində olub. İştirakçıların dövlət – özəl tərəfdaşlığı istiqamətində rəy və təklifləri dinlənilib, onları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Horadiz–Ağbənd dəmir yolu – Naxçıvanın "dəmir qapı"sı

**Horadiz – Ağbənd dəmiryol xətti üzrə layihələndirmə işləri tamamlanıb. Dəmir yolunun inşası ilə bağlı işlərin isə 60 faizi yerinə yetirilib. Bununla yanaşı, layihə çərçivəsində tunellərdən birinin tikintisi başa çatdırılıb. Hazırda ikinci tuneldə qazıntı işləri aparılıb. Bu barədə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətindən məlumat verilib.**



Qeyd olunub ki, ümumilikdə, Horadiz – Ağbənd dəmir yolu xətti boyunca yerli mühəndislərin layihələndirməsi əsasında 300-dən çox süni mühəndis qurğusu, 40-dan çox körpü, tunel, su ötürücüsü və qalereya tikilir. Ümumi uzunluğu 110,4 kilometr olan dəmir yolunun əsas komponentlərinə 771 metrlik dəmiryol körpüsü, ölkənin 1071 metrlik ən uzun dəmiryol tuneli və müstəqillik tariximizdə ilk qalereya (dəmir yolunu daş uçqunlarından qoruyan mühafizə örtüyü) daxildir

Xatırladaq ki, Horadiz – Ağbənd dəmir yolu xətti Naxçıvanla birbaşa nəqliyyat bağlantısına və Şərq – Qərb istiqamətində yükdaşımalar üçün yeni marşrutun təmin edilməsinə imkan yaradacaq.



# Gömrük gəliri 5 faiz çoxalıb

**Dövlət Gömrük Komitəsindən "XQ"yə bildirilib ki, 2024-cü ildə Azərbaycanın dövlət büdcəsinə gömrük daxilolmaları 6 milyard 650 milyon manat (2023-cü illə müqayisədə 4,9 faiz çox) təşkil edib.**

Məlumata əsasən, son 1 ildə gömrük rüsumları üzrə daxilolmalar 23,2 faiz artaraq 2 milyard 4 milyon manat, əlavə dəyər vergisi üzrə daxilolmalar 1,1 faiz azalaraq 4 milyard 395 milyon manat, aksizlər üzrə daxilolmalar 8,9 faiz azalaraq 204 milyon manat, yol vergisi üzrə daxilolmalar isə 3,8 faiz artaraq 44 milyon manat olub.

# "Startap"çı KOB-ların sayı artır

**Ötən il Azərbaycanda 65 kiçik və orta biznes (KOB) subyektinə "Startap" şəhadətnaməsi verilib. Bu barədə XQ-yə İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən məlumat verilib.**




Bildirilib ki, il ərzində 104-ü mikro və 5 kiçik sahibkarlıq subyekti olmaqla "Startap" şəhadətnaməsi almaq üçün quruma, ümumilikdə, 109 müraciət daxil olub. Ekspertlər şurası "Startapın müəyyən olunması meyarları"na əsasən həmin müraciətlərə baxıb və seçim edib. Şəhadətnamə almış sahibkarların 52-si hüquqi, 13-ü fiziki şəxs olmaqla 62-si mikro və 3-ü kiçik sahibkardır. Onların layihələri kənd təsərrüfatı, aqrar biznes, fintek, "yaşıl iqtisadiyyat" və elektron ticarət sahələrində innovativ həlləri özündə birləşdirir.

Xatırladaq ki, "Startap" şəhadətnaməsi KOB subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və yaxud gəlir vergisindən 3 il müddətinə azad edir. Azərbaycanda innovativ sahibkarlığın inkişafı, startapların ideyalarının və startap ekosisteminin inkişafına dəstək məqsədilə Nazirlər Kabinetinin 29 yanvar 2021-ci il tarixli qərarı ilə "Startapın müəyyən olunması meyarları" təsdiq edilib. Qərara əsasən "Startap" şəhadətnaməsini 2021-ci ilin may ayından Kiçik və Orta Biznesin İnkişafı Agentliyi verir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Təhsil tələbə krediti: Bu gün al, 6 il sonra ödə

**Prezident İlham Əliyevin 2021-ci il 17 iyun tarixli fərmanı ilə Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondu (TTKF) yaradılıb. Fond təhsilin güzəştli şərtlərlə maliyyələşdirilməsi üzrə əsas operatora çevrilməklə, yüksək keyfiyyətli əlçatan təhsilə nail olmaq məramını gerçəkləşdirir. Əsas hədəfləri gənclərə təhsil almaqda bərabər imkanlar yaratmaqdan və təhsilin əhatə dairəsini genişləndirməkdən ibarətdir.**



Fondun fəaliyyəti, perspektiv planları və digər məsələlərlə bağlı TTKF-nin İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra edən Bəhruz Əzimovdan aldığımız müsahibəni təqdim edirik.

**– Bəhruz müəllim, istərdik ki, əvvəlcə 3 ildən bir qədər çox müddət ərzində fondun gördüyü işlər barəsində oxucularımıza məlumat verəsiniz.**

– Qeyd edim ki,TTKF təhsil tələbə kreditlərinin verilməsini təşkil edən qeyri-kommersiya dövlət qurumudur. Yəni, fondun yaradılmasında gəlir və mənfəət nəzərdə tutulmayıb. Başlıca məqsədlərdən biri aztəminatlı ailələrin təhsilə çıxış imkanının yaradılmasıdır. Prezidentin TTKF-nin yaradılmasına dair fərmanından sonra Nazirlər Kabinetinin 2021-ci il 24 iyul tarixli Qərarı ilə fondun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsinə başlanıldı. Təşkilati-strukturunun qurulması, dövlət qurumları ilə inteqrasiya və digər məsələlərlə bağlı işlərə başlanıldı. Nəticə etibarilə 2021-ci ilin noyabr ayının sonlarına doğru fond tam olaraq təsis edildi. Kreditə müraciət üçün elektron sistem açıq elan edildi və müraciətləri qəbul etməyə başladıq. Artıq 7-ci semestrdir ki, tələbə kreditlərinin verilməsini həyata keçiririk.

**– Maraqlıdır, bu dövr ərzində kredit götürmək üçün fonda neçə tələbə müraciət edib və neçəsi bu imkandan yararlana bilib?**

– Ümumilikdə, 59 mindən çox tələbə müraciət edib. Onlardan 47mindən çoxuna müsbət cavab verilib. Verilən vəsaitlər elektron qaydada tələbənin təhsil aldığı universitetin hesabına köçürülüb. Hazırda 2024/2025ci tədris ilinin payız semestri üçün müraciətlər davam edir. İldən-ilə, semestrdən-semestrə müraciətçilərin sayında artım olur.

**– Təhsil tələbə kreditlərinin növləri hansılardır?**

– Tələbə kreditlərinin sosial və standart olmaqla, 2 növü var. Sosial növ kredit illik 2 faizlə əhalinin həssas qrupundan olan şəxslərə verilir. Standart növ kredit isə 6 faizlə aztəminatlı olmayan digər bütün tələbələr üçün nəzərdə tutulub. Əsas şərt yaxşı oxumaqdır. Tələbələr yaxşı oxumalıdırlar ki, kreditdən faydalana bilsinlər. Təhsil kreditləri verməklə yanaşı, tələbələrimizin təhsilə köklənməsi, motivasiya olunması üçün müəyyən hədəflərimiz var. Tələbə təhsil aldığı müddət ərzində və təhsil ocağını bitirdikdən sonra 2 il ərzində heç bir ödəniş etmir və götürdüyü məbləğə faiz gəlmir. Burada istisna hal kimi tələbənin güzəşt müddəti ərzində əmək fəaliyyətinə başlamasını qeyd etmək olar. Əgər bu müddət ərzində o, rəsmi əmək fəaliyyətinə başlayarsa, geri ödəmə dövrünə start verilir və güzəşt müddəti bitdikdən sonra 10 il ərzində krediti geri ödəyir. Təhsil müəssisəsini başa vurmuş məzun fonddan sosial kredit götürübsə və diplomunun ümumi orta müvəffəqiyyət göstəricisi 71 bal və ondan yuxarıdırsa, o, kreditin faiz hissəsini ödəmir. Əgər sosial kreditdən yararlanan tələbə əlaçı statusunda təhsil müəssisəsini bitirirsə, faiz alınmamaqla yanaşı, götürdüyü kreditin məbləğinin yarısı ona bağışlanır. Standart kredit götürmüş məzun isə əlaçı olaraq universiteti bitiribsə, kreditin faizi ilə yanaşı, ümumi məbləğin 25 faizi ona bağışlanır.

**– Bəs tələbə hansı hallarda kredit imkanından yararlana bilər?**

– Bu məsələ Nazirlər Kabinetinin qaydalarına uyğun tənzimlənir. Sosial və ya standart kredit növündən asılı olmayaraq, kredit götürmək istəyən tələbənin kəsiri, yəni akademik borcu olmamalıdır. Standart növ kreditdə tələbənin təhsil göstəricisinə də baxılır. Tələbə universitetə yeni daxil olubsa, yəni 1-ci kursun 1-ci semestrindədirsə, DİM-də topladığı qəbul balına baxılır. Qayda belədir ki, bakalavriat təhsil səviyyəsinə qəbul olunanların balı 250 və daha yuxarı, magistratura təhsil səviyyəsinə qəbul olunanların balı 50 və daha yuxarı, orta ixtisas təhsil səviyyəsinə qəbul olunanların balı 110 və daha yuxarı, peşə təhsil səviyyəsinə qəbul olunanların nəticəsi attestat qiymətlərinin orta göstəricisinə əsasən 3 və daha yuxarı olmalıdır. Standart növ kredit almaq istəyənlərin növbəti semestrdə ümumi orta müvəffəqiyyət göstəricisinə (ÜOMG) baxılır. 100 ballıq sistemlə ÜOMG-i 71 və daha yuxarı olanlar standart kredit növündən yararlana bilirlər.

**– Bəhruz müəllim, qeyd etdiniz ki, növbəti semestrlərdə akademik borcu olmayan və ÜOMG-i 71 və daha yuxarı olanlar standart növ üzrə təhsil tələbə krediti ala bilərlər. Reallıq odur ki, orta ixtisas və ali təhsil müəssisələrində tələbəni qiymətləndirmə meyarı kəmiyyət və keyfiyyət baxımından eyni deyil. Məsələn, düşünürəm ki, ADA Universitetində verilən 71 balla Lənkəran Dövlət Universitetində verilən 71 bal keyfiyyət baxımından eyni deyil. Bu tələbələrin yerini dəyişsək, onların nəticələri də fərqlənə bilər.**

– Maraqlı və düşündürücü sualdır. Doğrudur, keyfiyyət baxımından fərqlər ola bilər. Hansısa təhsil müəssisəsində 71 balı toplamaq çətin, digərində isə asan ola bilər. Standart növ kredit üçün müraciət edənlərin ÜOMG-inin 71 bal olması ətrafında çox düşünmüşük. Lakin biz qərarlara, təlimatlara və təhsil standartlarına uyğun hərəkət edirik. Bunlardan kənara çıxa bilmirik. Amma ümumilikdə, 71 bal elə də yüksək tələb deyil. Tələbə məsuliyyət hiss eləsə, dərsinə fokuslansa, müəyyən qədər əmək sərf etsə, hansı təhsil müəssisəsində oxumağından asılı olmayaraq, bu göstəricini toplaya biləcək. Biz 71 bal göstəricini 5 ballıq qiymətləndirmə şakalası ilə ölçsək, bu 3-4 arasında dəyişir. İkinci bir məsələ isə aztəminatlı ailələrin kredit ala bilmək imkanlarını reallaşdırmaqdır. Bunun üçün sosial növ kreditdə ÜOMG tələbi yoxdur. Yeganə tələb kəsiri, yəni akademik borcunun olmamasıdır. Standart növ kredit götürənlər isə aztəminatlı ailələr deyillər. Amma buna baxmayaraq, biz müraciət edən və şərtlərə uyğun gələn tələbələrə də kredit veririk. İstəyimiz odur ki, tələbələr çalışqan olsunlar. Bu, həm də məsuliyyət hissi, rəqabət mühiti yaradır.

**– Digər bir məsələ: tələbə hansısa avtomobil qəzasında və ya ailədaxili problemlər nəticəsində onun istəkləri xaricində hansısa fənnin imtahanında iştirak etməyə və ya aşağı qiymət ala bilər. Bu halda oxuduğu təhsil müəssisəsi ona güzəşt edə də bilər, etməyə də. Təhsil müəssisələri daha çox güzəştin edilməməsi variantını seçirlər. Belə olduğu təqdirdə istisna hal kimi rəhbəri olduğunuz fond standart növ kredit götürmək istəyən tələbəyə fərdi yanaşma sərgiləyirmi?**

– Razıyam, tələbələrin akademik borcunun yaranması, eləcə də ÜOMG-inin 71 baldan aşağı olmasının obyektiv və subyektiv səbəbləri ola bilər. Lakin fərdi və ya differensial yanaşmalar qaydalarda təsdiqini tapmır. Düşünürəm ki, bu mənada hansısa yumşaldılma tədbiri üçün addımı təhsil müəssisəsi atmalıdır.

**– Siz yuxarıda qeyd etdiniz ki, indiyə kimi təhsil tələbə krediti götürmək istəyən təxminən 59 min tələbənin 47 mindən çoxuna müsbət cavab verilib. Deməli, 10 mindən çox tələbənin kredit götürməsi məqsədəuyğun hesab edilməyib. İmtinalara səbəb hansı hallar olub?**

– Tələblərə cavab verməyən tələbələrə elektron sistem imtina cavabı verir. Qeyd etdiyimiz kimi, hər iki növ kredit üzrə tələbənin akademik borcu varsa, standart növ kredit üzrə ilk semestrdədirsə, DİM-də topladığı bal müvafiq olmalı və növbəti semestrlərdə, ümumilikdə, qiymət ortalaması 71-dən aşağıdırsa, tələbə təhsildən kənarlaşdırılıbsa və bu kimi digər qaydalara uyğun gəlməyən hallar aşkar edilərsə, təhsil krediti verilmir.

**– Siz təhsil krediti üçün müraciət edənlərin, müsbət cavab alanların statistikasını təqdim etdiniz. Maraqlıdır, bəs krediti qaytaranların statistikası necədir? Geriödəmə vaxtlı-vaxtında olurmu?**

– Ötən tədris ilinin sonunda kredit götürmüş məzunlar var. Elektron sistem onların bir qisminin güzəşt dövrü ərzində əmək fəaliyyəti ilə məşğul olmalarını aşkara çıxarmışdı. Belə olan halda artıq geri ödəmə başladılır. Eyni zamanda, 2021, 2022-ci ildə kredit alıb, məzun olub 2 illik güzəşt dövrünü tamamlayan tələbələrimiz də var. Onlar da geri ödəməyə başlayıblar. Ümumilikdə, təxminən 8 mindən çox tələbə krediti ödəməyə başlayıb. 1,3–1,4 milyon manat artıq geri ödənilib. Geri ödəniş edən tələbələrin sayı get-gedə çoxaldığı üçün qaytarılan məbləğ artan dinamika ilə davam edir.

Təbiidir ki, kredit götürənlərin və məbləğin çoxluğunu nəzərə alsaq, geriödəmə ilə bağlı hansısa problemlərin yaşanması da istisna deyil. Hazırda ödənişi gecikdirən tələbələr var və bununla bağlı müvafiq işlər aparılır. Daha yaxşı nəticələrin əldə edilməsi üçün belə tələbələrə dəstəyimizi davam etdirəcəyik. Məqsədimiz səmərəli kredit verməkdir. Kəmiyyəti deyil, keyfiyyəti hədəfləyirik. Amma unutmayaq ki, hər kəsin təhsil almaq haqqı var. Hansısa maddi sıxıntı bu haqqı kimsənin əlindən almamalıdır. Əvvəlki illərdə təhsil haqqını ödəyə bilməyən yüzlərlə abituriyent təhsil almaqdan imtina edirdi. Biz bu sıxıntıların aradan qaldırılmasına çalışırıq.

**– Bəhruz müəllim, hansısa bədbəxt hadisə baş verərsə, məsələn, tələbə həbs olunarsa, vəfat edərsə, belə hallarda kreditlərin taleyi necə olacaq?**

– Tələbənin başına bədbəxt hadisə gələrsə, vəfat edərsə, əmək qabiliyyətinin tam və ya qismən itirərsə, fond belə riskləri nəzərə alır. Tələbə ilə kredit müqaviləsi bağlanarkən, verilən vəsaitin sığortalanması müqaviləsi də bağlanılır. Bu hallarda alınmış kreditin geri ödənilməsi borcalandan tələb olunmur və həmin məbləğ sığortaçı tərəfindən ödənilir.

Bir sıra hallarda tələbəyə oxuduğu müddət və məzun olduğu müddətdən 2 il sonra verilən güzəşt müddəti ilə yanaşı, aldığı vəsaiti qaytarmaq üçün əlavə möhlət müddəti də verilir. Bizdən kredit almış tələbə yuxarı təhsil səviyyəsində əyani təhsil üzrə qəbul olunmuş, həqiqi hərbi xidmətə getmiş, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq müddəti möhlət dövrünə daxil olunur. Bunlarla yanaşı, şəxsin 4 ildən çox olmayaraq azadlıqdan məhrum edilməsi və ya azadlığın məhdudlaşdırılması halı olarsa, xanım tələbələrin hamiləliyə görə və uşağının 3 yaşı tamam olanadək ona qulluq etməkdən ötrü qismən ödənişli sosial məzuniyyətdə olduğu dövr də möhlət dövrünə daxil edilib. Möhlət dövründə də güzəştdə olduğu kimi, geriödəmə və əlavə faiz tələb edilmir.

**– Bəs tələbə güzəşt müddəti ərzində iş tapa bilməzsə, bu halda hansısa əlavə güzəştlər nəzərdə tutulurmu?**

– Tələbələrin işlə təmin edilməsi fondun vəzifələrinə aid deyil. Amma fond təhsil tələbə kreditlərini verməklə yanaşı, tələbələrin bilik və bacarıqlarının artırılması, əmək bazarına inteqrasiya olunması istiqamətində də bir sıra işlər görür. Bu məqsədlə 2023-cü ildə fondun strukturuna “İşəgötürənlərlə iş və innovativ layihələr şöbəsi” əlavə etdik. Bu şöbənin əsas fəaliyyəti tələbələrimizin təlim və təcrübə proqramlarına qoşulmasına dəstək olmağa, onların bilik-bacarıqlarını artırmağa, işəgötürənlərlə tələbə arasında körpü rolunu oynamağa yönəlib. Əgər kreditdən yararlanmış tələbənin əlavə bilik-bacarığa, təlimə, işə ehtiyacı varsa, dövlət və özəl qurumlarla etdiyimiz əməkdaşlıq çərçivəsində bunu həyata keçiririk.

**– Fondun kreditlərindən yararlanmış tələbə bakalavriat təhsilini bitirib magistraturaya qəbul olunarsa, birinci kreditini ödəməmiş, daha 2 il ərzində də kredit ala bilərmi?**

– Bəli, tələblərə uyğun gəlirsə, ala bilər. Qaydalarda bu bənd göstərilib.

**– Məlumdur ki, tələbələrin əksəriyyəti kirayələrdə, yataqxanalarda qalır. Onların kirayə, yataqxana xərclərinin qarşılanması, eləcə də bilik və bacarıqlarının inkişaf etdirilməsi ilə bağlı xarici dil kursları və bu kimi əlavə təlimə cəlb edilməsi istiqamətində fond kreditin verilməsi ilə bağlı yaxın gələcəkdə təşəbbüslə çıxış edə bilərmi?**

– Buna, ümumilikdə, tələbələrin digər xərcləri kimi yanaşaq. Bu təşəbbüslə tələbələr, onların valideynləri, hətta təhsil müəssisələri də çıxış ediblər. Təhsil ekspertləri də bu mövzunu bir neçə dəfə gündəmə gətiriblər. Fondla bağlı qanunvericilikdə bu barədə heç bir bənd olmadığı üçün faktiki olaraq real addımlar atmaq mümkün deyil. Ancaq gələcəkdə yüksək rəhbərlik qarşısında bu məsələni diqqətə çatdırmaq olar. Bunun üçün fonda əlavə vəsait lazımdır. Düşünürəm ki, bununla bağlı müzakirələr aparılmalı, məsələ təhlil edilməli, müəyyən statistik göstəricilərə nəzər salınmalıdır. Nəticəyə uyğun gələcəkdə hansısa addımlar atıla bilər.

**– Bəhruz müəllim, kredit anlayışı cəmiyyətimizdə birmənalı qarşılanmır. Kredit deyərkən ağıla ilk gələn bankların təklif etdiyi yüksək məbləğlə geri ödənilən vəsaitlər olur. Düşünürəm ki, bu sıxıntı ilə fondunuz dəfələrlə qarşılaşıb. Sizə elə gəlmirmi ki, Təhsil Tələbə Krediti Fondunun tərkibində yer alan “kredit” sözü müəssisənizə əlavə yükdür?**

– Qeyd etdiyiniz məsələ müəyyən mənada düşündüyünüz kimidir, kredit sözü cəmiyyətdə çaşqınlıq yaradır. Bu söz gələndə vətəndaşlarda əndişə hissi, yüksək faiz, dərhal geri ödəmə, zamin, girov kimi düşüncələr formalaşır. Biz təklif etdiyimiz təhsil kreditinin mahiyyətini, məzmununu müxtəlif qrupların məlumatlandırılması, maarifləndirilməsi ilə izah edə bilirik. Abituriyentlərlə, tələbələrlə, eləcə də onların valideynləri, qohumları ilə daimi söhbətlər aparırıq. Bu məqsədlə orta, orta-ixtisas, peşə, ali təhsil müəssisələrində davamlı görüşlər təşkil edir, sualları cavablandırırıq, təhsil kreditlərinin götürülməsinə köməklik göstəririk. İldə azı 2 dəfə Azərbaycanın bütün regionlarını gəzirik, davamlı olaraq maarifləndirici sessiyalar həyata keçiririk. Fond daim təbliğat-təşviqat işlərini həyata keçirir. TTKF-nin təqdim etdiyi kreditlərin bank kreditləri ilə müqayisədə asan şərtlərlə verilməsi, uzunmüddətli olması, güzəşt dövründə əsas məbləğə heç bir faizin hesablanmaması, faiz dərəcəsinin olduqca aşağı təklif edilməsi vətəndaşlarda inam hissi yaradır. Söhbətimizin əvvəllində də qeyd etdiyimiz kimi, təhsil kreditində zamin, girov tələb olunmur, tələbədən başqa ikinci şəxs alınan kreditə görə məsuliyyət daşımır və digər üstünlüklər tələbələr üçün əlçatanlıq yaradır.

Əgər verilən məbləğ 20 il ərzində geri qaytarılırsa, həmin müddətin müəyyən dövrlərində simvolik olaraq 2 və 6 faizlə verilirsə, inflyasiya şəraitində hansısa mənfəətdən danışmaq doğru olmazdı. Təkrar edirəm, bu, kredit deyil, dövlətin təhsilə, tələbəsinə qayğısıdır. Biz davamlı tədqiqatlar aparır, boşluqları, qaranlıq məqamları tapır, aradan qaldırılması istiqamətində səylə çalışırıq. Daim təkliflərə, yeniliklərə açığıq.

**– Sonda istərdim ki, “Xalq qəzeti” vasitəsilə təhsil ödənişlərini həyata keçirə bilməyən vətəndaşlarımıza çağırış edə, tövsiyələrinizi verəsiniz.**

– Biz sizə dövlətimizin yaratdığı alternativ imkanları təqdim edirik. Təhsil tələbə kreditindən yararlanmaq sizin haqqınızdır. Gələcəyinizə sərmayəni TTKF ilə reallaşdırın.

**– Maraqlı müsahibəyə görə təşəkkür edirəm.**

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# Milli mətbuatımızın da yubiley medalı olacaq

**Azərbaycan milli-mənəvi dəyərləri sistemində önəmli yeri olan milli mətbuatımızın bu il 150 yaşı tamam olur. Əlamətdar tarixin ümumxalq təntənəsi kimi qeyd edilməsi üçün hazırlıq tədbirlərinə start verilib.**



Yubiley münasibətilə xatirə medalının təsis edilməsi də nəzərdə tutulub. Bu yenilik “Azərbaycan Milli Mətbuatının 150 illiyi (1875–2025)” yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” qanuna təklif edilən dəyişiklik layihəsində öz əksini tapıb.

Qanun layihəsi dünən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında müzakirəyə çıxarılıb. İlkin oxunuşda qəbul edilən sənəd parlamentin plenar iclasına tövsiyə olunub.

Qeyd edək ki, “Azərbaycan Milli Mətbuatının 150 illiyi” yubiley medalı milli jurnalistikamın inkişafında xüsusi xidmətləri olan, media fəaliyyəti ilə sıx bağlı olan insanlara veriləcək.

# Aviaqəza yaralıları müalicə edilir

**AZAL-ın Bakı–Qroznı reysini yerinə yetirən təyyarənin ötən il dekabrın 25-də Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində xəsarət alan 4 nəfərin – 1 kişi və 3 qadının xəstəxana müalicəsi davam etdirilir.**



Bu barədə Səhiyyə Nazirliyi və TƏBİB son məlumatında bildirilir ki, reanimasiya şöbəsinə yerləşdirilən 1 nəfərin vəziyyəti hələ də ağır sabitdir. Stasionar şöbədə müalicəsi davam etdirilən digər 3 nəfərin vəziyyəti isə qənaətbəxş olaraq dəyərləndirilir.

Məlumatda xatırladılır ki, Aktaudan Yeni Klinikaya gətirilmiş 17 nəfərdən 4-ü birbaşa tibb müəssisəsinin reanimasiya şöbəsinə, 13 nəfər isə stasionar şöbəyə qəbul edilmişdi. Onların hər birini ixtisaslı həkim-mütəxəssislər müayinə və müalicə ediblər. Xəsarət alanlardan 3 nəfər cərrahi əməliyyat edilib. Yaralıların 13 nəfəri artıq ambulator müalicə üçün evə yazılıb. Onların müalicələrinə yaşadıqları ərazi üzrə müvafiq sahə həkimləri nəzarət edirlər.

***XQ***

# Pakistanla elm və təhsil əməkdaşlığı genişlənir



**Dünən İslamabadda Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Azərbaycan-Pakistan Birgə Komissiyasının 8-ci iclası davam etdirilib.**

Müzakirələrdə çıxış edən elm və təhsil nazirinin müavini Həsən Həsənli iki ölkə arasında elm və təhsil sahəsi üzrə əməkdaşlığın cari vəziyyəti, Azərbaycanda təhsil alan 1300-dən çox pakistanlı tələbə, əcnəbi vətəndaşlar üçün təhsil alma imkanları, o cümlədən elm və ali təhsil müəssisələri arasında əməkdaşlığın inkişaf etdirilməsi kimi bir sıra mühüm məsələlərə toxunub.

İclas zamanı siyasi, sosial, iqtisadi və digər sahələrdə əməkdaşlığa dair ətraflı fikir mübadiləsi aparılıb. Yekun protokolda iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivlərinə dair məsələlər də əksini tapıb.

Səfər çərçivəsində Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdari və Baş naziri Mian Məhəmməd Şahbaz Şərif Azərbaycan nümayəndə heyətini qəbul edib.

***XQ***

# Çağdaş texnologiyaların milli elm-təhsil mərkəzi

**Azərbaycanın son illərdəki sürətli inkişafı, beynəlxalq aləmdə nüfuzunun artması, dünyanın siyasi arenasında mövqeyinin daha da möhkəmlənməsi, ölkənin bütün zümrələrinin birliyindən doğan fəaliyyətin güclənməsi vətənimizin strateji hədəflərə doğru inamlı addımlarla irəlilədiyinin göstəricisidir. Bu fakt danılmazdır ki, respublikamız dövrün çağırışlarını yüksək səviyyədə yerinə yetirir və davamlı uğurları ilə diqqət çəkir.**

Aparılan düzgün, hədəfə yönəlmiş siyasət nəticəsində hər il daha yüksək inkişaf göstəriciləri nümayiş etdirən iqtisadiyyatın formalaşdırılması, ölkədə işgüzar aktivliyin daha da artması yoxsulluğun minimuma endirilməsinə münbit şərait yaradır, əhalinin etibarlı sosial müdafiəsini təmin edir. Çevik inkişaf mərhələsində olan Azərbaycanın əsas hədəfi çoxtərəfli, səmərəli və innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılması, şaxələndirilməsi, əhalinin rifahının daha üstün səviyyələrə çatdırılması, təhsilin, elmin və iqtisadiyyatın vəhdəti fonunda həyatın bütün sferalarında yeni nailiyyətlərin əldə olunmasıdır.

2024-cü ili artıq geridə qoymağımıza baxmayaraq, həmin ilin xatirələri hələ də yaddaşımızda canlanmaqdadır. İlboyu baş verən mühüm hadisələr, keçirilən əhəmiyyətli tədbirlər bir-bir yada düşür və 2024-cü ilin Azərbaycan tarixinin ən uğurlu illərindən biri olduğunu deməyə bizə əsas verir. Cənab Prezident İlham Əiyevin xalqın böyük dəstəyi ilə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi, parlament seçkilərinin, dünyada ən böyük beynəlxalq tədbirlərdən biri hesab edilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının növbəti 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi, işğaldan azad olunmuş ərazilərimizdə sürətlə bərpa və quruculuq işlərinin aparılması və digər mühüm hadisələr geridə qoyduğumuz ilin tarixi əhəmiyyətini bir daha nümayiş etdirir. COP29-dan söz düşmüşkən, onu qeyd etmək lazımdır ki, bu tədbir məhz cənab Prezidentimizin elan etdiyi "Yaşıl dünya naminə həmrəylik ilin"də baş tutdu. Azərbaycan bu möhtəşəm tədbirə yüksək səviyyədə evsahibliyi etdi. Dünya ölkəmizin nailiyyətlərini, çox sayda qonaq qəbul etmək və mötəbər tədbirlər keçirmək bacarığını bir daha gördü. Eləcə də bütün dünya Azərbaycanın ekoloji problemlərə qarşı nə qədər həssas olduğuna və bizim "Yaşıl gündəliyimiz"ə bir daha inanmış oldu.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə "Azərbaycan 2030 sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı, Azərbaycan dövlətinin yaxın bir neçə ildəki inkişaf hədəflərini özündə əks etdirən sənəd təsdiq edilib. Burada müəyyən olunmuş 5 milli prioritetdən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi", digəri isə "Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı"dır. 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi, ölkədə müxtəlif ekoloji tədbirlər və aksiyaların həyata keçirilməsi də məhz həmin prioritetin məntiqi davamına çevrildi.

Azərbaycan neft-qaz ölkəsi olmasına baxmayaraq, bu sahədə nailiyyətləri davam etdirməklə yanaşı, "Yaşıl enerji"yə keçiddə də irəliyə doğru kifayət qədər böyük addımlar atdı. "Yaşıl enerji" layihələri paytaxtdan bölgələrə yayıldı. Abşeronda, Neftçalada, Biləsuvarda, işğaldan azad olunmuş Cəbrayıl rayonunda günəş elektrik stansiyalarının təməli qoyuldu. Şəhər və rayonlarımızda yeni parklar, yaşıllaşdırma zolaqları və meşə massivləri salındı. İşğaldan azad olunmuş ərazilərimizdə müasir ekoloji standartlara uyğun yaşayış massivləri – "ağıllı şəhər", "ağıllı kənd" layihələri həyata keçirildi və bu səpkidə işlər sürətlə davam edir.

Bir sözlə, Azərbaycan qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiq olunmasına böyük əhəmiyyət verir. Təmiz enerji mənbələrindən istifadəyə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasına çalışır və onu təşviq edir. Öz ərazilərində istilik effekti yaradan qaz emissiyalarının beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində mühüm işlər görür.

Əlbəttə, hərtərəfli inkişafı hədəfləyən Azərbaycan öz ekoloji mühitini yaxşılaşdırmağın yolunun müasir texnologiyalardan və onları tətbiq etməyi bacaran kadrlardan keçdiyini yaxşı bilir. Ümumiyyətlə, Azərbaycanda rəqabətli insan kapitalını formalaşdırmaq və ölkəmizi müasir innovasiyalar məkanına çevirmək cənab Prezidentin həyata keçirdiyi siyasətin əsas prioritetlərindəndir. Son illərdə beynəlxalq iqtisadiyyatda müşahidə etdiyimiz texnoloji dəyişikliklər, hətta mən deyərdim, inqilabi dəyişikliklər mühiti, ölkələrarası rəqabəti daha da artırmışdır. Görünən odur ki, gələcək həyat sürətli rəqəmsallaşma, bütün sahələrdə müasir texnologiyaların aktiv tətbiqi və insanın iştirakı olmadan yeni avadanlıqların inkişafı ilə səciyyəvi olacaqdır.

Sözsüz ki, belə şəraitdə dünyada artan rəqabətə davam gətirə bilmək üçün Azərbaycanın da əsas hədəflərindən biri yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır. Bunun üçün gənclərimizə muasir təhsil və innovasiyaları təşviq edən münbit şərait əlçatan olmalıdır. Ümumiyyətlə, Azərbaycan dövləti cəmiyyətin inkişafının əsas təminatçısı olan təhsilin daha da gücləndirilməsi üçün bu sistemdə davamlı modernləşmə aparır, inteqrasiya edə bilən tədris təcrübəsini daim inkişaf etdirir. Təhsil sistemimiz gənc nəsli gələcək rəqəmsal texnologiyalar dövrünə hazırlamaq üçün onlarda rəqəmsal səriştələrin mənimsənilməsinə diqqət yetirir, yeni bacarıqlar aşılayır, muasir ixtisas və peşələrlə tanış edir. Aparılan islahatlar nəticəsində yüksək keyfiyyətli təhsil almaq imkanları genişlənir və ölkəmizdə kadr hazırlığı əmək bazarının tələblərinə uyğunlaşdırılır.



Şübhəsiz ki, gələcəkdə müasir texnologiyaları dəstəkləyən sahələr və innovasiyaları qəbul edən rəqəmsal cəmiyyət inkişafın aparıcı qüvvəsinə çevriləcəkdir. Bu fonda Azərbaycanı rəqabətdə irəli aparmaq üçün cəmiyyətin yaradıcılığını və innovativliyini stimullaşdıran yeni ekosistemlərə ehtiyac duyulmaqdadır. Bu ehtiyacın ödənilməsində universitetlərin üzərinə kifayət qədər məsuliyyətli işlər düşür. Yeni dövrdə qurulacaq ekosistem – müvafiq təşviqlər, inkubasiya və akselerasiya mərkəzləri, maliyyələşmə mexanizmləri universitetlərdə formalaşaraq iqtisadiyyatın texnoloji tutumluluğunun artırılmasına istiqamətləndirilməlidir. Dünyada gedən sürətli texnoloji tərəqqiyə çevik uyğunlaşmaqla universitetlərin texnoloji ixrac məkanına çevrilməsi üçün perspektivlər yaradılmalıdır. Bu məqsədlə universitetlərdə və elmi-tədqiqat mərkəzlərində nəticəyönümlü elmi işlər təkmilləşdirilməli və sayı artırılmalıdır.

Azərbaycanda modern təhsilin inkişafı nəticəsində formalaşacaq insan kapitalı ölkəmizin iqtisadi və sosial rifahının artırılmasında çox əhəmiyyətli yer tutacaq. Gənclərin yetərli bilik və bacarıqlar əldə edərək cəmiyyətdə özünə yer tapmasında təhsil, xüsusilə də ali təhsil ən mühüm vasitələrdən biridir. Ali təhsil formalaşmış insan kapitalını cəmiyyətə təqdim etməklə, sosial rifahı artırmaqla yanaşı, insanların əldə etdiyi gəlir səviyyəsini yüksəldərək fərdi rifahı da təmin edir. Məhz ali təhsilin cəmiyyətə və fərdlərə qazandırdığı bu faydalar səbəbindəndir ki, həm dünyada, həm də Azərbaycanda ona tələb sürətlə artmaqda davam edir.

Azərbaycanın 2005-ci ildə Bolonya prosesinə qoşulması ölkədə ali təhsil islahatlarının yeni mərhələsinə start vermiş oldu. Bununla əlaqədar olaraq 2009-cu ildə qəbul edilmiş "2009–2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nda qeyd olunmuşdur ki, proqramın məqsədi ölkənin ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununun Bolonya prosesinin prinsiplərinə uyğun qurulması, cəlbedici və rəqabət qabiliyyətliliyinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsi, habelə informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq kadr potensialının yaradılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli ali təhsil sisteminin formalaşdırılmasıdır.

Proqramın icrasında məqsəd ali təhsilin qanunvericilik bazasının Avropa standartlarına uyğunlaşdırılması və Bolonya prosesinin əsas prinsipləri üzərində yenidən qurulması idi. Aradan keçən zaman kəsiyində də bu proqramın reallaşmasında kifayət qədər ciddi və uğurlu addımlar atıldığının şahidi olduq. Qeyd olunan mərhələdə atılan mühüm strateji addımlardan biri də Prezident İlham Əliyevin irəli sürdüyü neft kapitalının insan kapitalına çevrilməsi konsepsiyası çərçivəsində "2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın qəbul edilməsi olmuşdur. Proqramın əsas hədəfləri xaricdə dövlət hesabına təhsil almağa göndərilən Azərbaycan gənclərinin təhsilin bütün pillələri üzrə illik sayının artırılması və ayrılan maliyyə vəsaitləri çərçivəsində bakalavriat, magistratura, rezidentura, doktorantura pillələri, eləcə də ixtisasartırma və yenidən hazırlanma təhsili üzrə bölünməsi, hökumətlərarası müqavilələr və ali təhsil müəssisələri arasında beynəlxalq tələbə mübadiləsi əsasında mütəxəssis hazırlığının respublikanın iqtisadi inkişaf prioritetləri nəzərə alınmaqla təmin edilməsi olmuşdur.

Uğurla reallaşdırılan bu proqram çərçivəsində minlərlə azərbaycanlı gənc dünyanın ən nüfuzlu universitetlərində bakalavriat, magistratura və doktorantura səviyyələrində təhsil almaq imkanı qazanmışdır. Bu gənclərin böyük əksəriyyəti artıq təhsilini başa vurub geri qayıtmış və ölkəmizin gələcək inkişafına, xüsusilə də ali təhsilin inkişafına öz töhfələrini verməyə başlamışdır. Bu siyasətin davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 22 fevral 2022-ci il tarixli sərəncamı ilə 2022–2026-cı illəri əhatə edən xaricdə təhsil üzrə yeni Dövlət Proqramı təsdiq olundu. Bu proqram çərçivəsində də yüzlərlə Azərbaycan gəncinin xarici ölkələrin nüfuzlu universitetlərində təhsil almağa göndərilməsi nəzərdə tutulur. Artıq proqramın bir hissəsi icra olunub.

Təhsilin inkişafı üzrə dövlət strategiyasının icrası ilə əlaqədar olaraq son illər ölkədə ali təhsilə çıxış imkanlarının genişləndirilməsi, ali təhsil sisteminin əmək bazarının tələblərinə uyğunlaşdırılması, universitetlərdə doktorantura təhsili və tədqiqat potensialının gücləndirilməsi, ali təhsil müəssisələrinin reytinq səviyyəsinin yüksəldilməsi, ali təhsil müəssisələrinin idarəetmə modelinin təkmilləşdirilməsi, onların əlavə təhsil imkanlarının genişləndirilməsi, beynəlmiləlləşmənin artırılması və bütövlükdə ali təhsil müəssisələrinin təhsil-tədqiqat-innovasiya mərkəzləri kimi cəmiyyətdə rolunun gücləndirilməsi istiqamətlərində əhəmiyyətli nəticələr qazanılmışdır. Bu uğurlu nəticələrin əldə edilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bütövlükdə təhsilə göstərdiyi diqqət və qayğını xüsusilə vurğulamaq lazımdır.

Universitetlərin araşdırma – texnoloji inkişaf və innovasiya missiyaları aspektindən yanaşıldıqda görünür ki, inkişaf etməkdə olan ölkələrdə prioritet daha çox yaxşı təhsil verən universitetlər olduğu halda qlobal texnologiya-innovasiya yarışına qoşulan ölkələrdə daha çox universitetlərin araşdırma və innovasiya nəticələrinə əhəmiyyət verilir. ABŞ və Birləşmiş Krallıq universitetləri bu istiqamətdə lider mövqedədir. Digər Avropa ölkələrinin bu yarışda mövqelərini gücləndirmək üçün daha çox resurslar ayırdığını və yeni universitet modelləri yaratdıqlarını, başda Çin olmaqla Cənub-Şərqi Asiya universitetlərinin isə son illərdə bu istiqamətdə əhəmiyyətli məsafə qət etdiklərini görmək mümkündür.

İnformasiya texnologiyalarının inkişafı ilə birlikdə ali təhsildə beynəlmiləlləşmə əhəmiyyətli bir inkişaf strategiyasına çevrilmişdir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin qəbul etdiyi "2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" və "Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" sərəncam ölkədə ali təhsilin və kadr hazırlığının inkişafında yeni yanaşmaları və imkanları ortaya qoyur. Beynəlxalq rəqabətə və əməkdaşlıq şəbəkələrinə aktiv şəkildə qoşulmanı tələb edən bu strategiya elmi və texnoloji proseslərdə iştirak etmə, təhsil-araşdırma təcrübəsi və resurslarını birləşdirmə, maddi resurslara çıxış, institusional potensialı təkmilləşdirmə və keyfiyyətli insan resursu cəlbetmə baxımından mühüm əhəmiyyət kəsb edir.

Son illərdə cənab Prezidentin tapşırığı əsasında Elm və Təhsil Nazirliyi Azərbaycan universitetlərinin qlobal reytinq təşkilatları ilə sıx əməkdaşlıq əlaqələri qurmasına xüsusi diqqət göstərir. Bu ölkə ali təhsilinin gələcəyi üçün atılan strateji addımlardan hesab edilə bilər. Sözügedən əməkdaşlıq ölkənin ali təhsil sektorunda beynəlxalq standartların mənimsənilməsi və strateji planlaşdırmanın düzgün şəkildə həyata keçirilməsi işinə böyük təkan verməkdədir.

2020-ci ilin sentyabr–noyabr aylarında baş verən və cəmi 44 gün davam edən "Vətən müharibəsi"ndə, eyni zamanda, 2023-cü ilin sentyabr ayının 19-da həyata keçirilən 23 saatlıq antiterror əməliyyatında Azərbaycan uzun müddət idi ki, davam edən milli problemini həll etdi – Qarabağ düşmən işğalından azad edildi, xalqımız öz suverenliyini bərpa edərək ərazi bütövlüyünü təmin etdi. Bu böyük Zəfər cəmiyyət olaraq bizim qarşımıza növbəti bir milli vəzifəni – Qarabağın yenidən qurulmasını qoymuşdur. Tamamilə yenidən qurulmağa başlayan Qarabağda həm də Azərbaycan təhsili, xüsusilə də ali təhsil yenidən formalaşdırılır. Tarixi Azərbaycan şəhəri olan Xankəndidə Qarabağ Universitetinin yaradılması xüsusilə böyük əhəmiyyət daşıyır. Düşünürəm ki, bu universitetin bütün müasir standartlara cavab verən formada qurulması və onun təməlində Qarabağ Elm-Təhsil-İnnovasiyalar məkanının təşkil edilməsi bütövlükdə bölgədə ali təhsil sektorunun inkişafı və iqtisadi fəaliyyətlərin davamlılığı baxımından əhəmiyyətlidir.

Azərbaycanın digər universitetləri kimi, Azərbaycan Texnologiya Universiteti (ATU) də müasir dövrün çağırışlarına adekvat cavab verən ideya və təşəbbüslərin dəstəklənməsi istiqamətində uyğun işlər görməkdədir. Universitetdə yeni yaradılmış İnnovasiya Mərkəzi, ildə bir neçə dəfə keçirilən və mövzuları müxtəlif müasir çağırışlara cavab verən beynəlxalq və respublika səviyyəli elmi-praktik konfranslar, aktual sahələri əhatə edən və sənaye müəssisələrinin də aktiv iştirakı ilə keçirilən forumlar, şirkətlərin, dövlət və sənaye müəssisələrinin də qatıldığı texnologiya sərgiləri, "startap" yarışları, elm əsaslı universitet-sənaye əlaqələri, beynəlmiləlləşmə və bir sıra başqa tədbirlər cənab Prezidentin müəyyən etdiyi prioritetlərə xidmət edir və ölkədə təhsil sahəsində aparılan mühüm işlərə öz töhfəsini verməkdədir.




Çalışırıq ki, bu il ATU tarixində mühüm izlər qoyaq, ölkənin elm və təhsil strategiyasına uyğun daha əlamətdar nailiyyətlərə imza ataq. Çünki, 2025-ci il Azərbaycan Texnologiya Universitetinin 55 illiyinə təsadüf edir. 1970-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə əsası qoyulmuş ATU sabaha, yeni hədəflərə doğru, tarixi nüfuzunu yeni çağırışlara cavab verəcək şəkildə qaytarmaq istiqamətində inamla addımlayır.

Ümumiyyətlə, bu gün əminliklə deyə bilərik ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın ali təhsil sektoru qarşıdakı illərdə də qlobal tendensiyalara, çağırışlara və milli iqtisadiyyatın tələblərinə adekvat şəkildə inkişaf edəcək və öz növbəsində Azərbaycanın bütün universitetləri ən yaxşı təcrübələrini ortaya qoyacaqdır.

*Yaşar ÖMƏROV,*
*Azərbaycan Texnologiya Universitetinin rektoru*

# Humanitar elm milli-mənəvi dəyərləri zənginləşdirir

**AMEA-nın Rəyasət Heyətinin növbəti iclasında müzakirə edilən məsələlərdən biri də Humanitar Elmlər Bölməsinin 2024-cü ildəki fəaliyyətinə həsr olunub.**



Çıxışında bölmənin ötənilki fəaliyyətinə toxunan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli bu sahədə beynəlxalq əlaqələrin genişləndiyini, elektron hərəkatın əhatəli vüsət aldığını diqqətə çatdırıb. Bildirib ki, Humanitar Elmlər Bölməsinin fəaliyyəti ümumilikdə müstəqil dövlətçilik, azərbaycançılıq, vətənpərvərlik kimi milli ideyaları əhatə edir və bu ideoloji istiqamətində bölmənin əməkdaşları yorulmadan çalışırlar. Həmçinin bölmə əməkdaşlarının dövlət başçısının "Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında" sərəncamından irəli gələn vəzifələrlə bağlı sanballı fəaliyyət göstərdiklərini söyləyən akademik görkəmli ədibə həsr olunmuş 10-dan çox kitabın ərsəyə gətirildiyini, X Bakı Beynəlxalq Kitab Sərgisində ictimaiyyətə təqdim edildiyini vurğulayıb.

Elmi nəşrlərdən danışan akademik İsa Həbibbəyli Ədəbiyyat İnstitutunun "Müqayisəli ədəbiyyatşünaslıq" jurnalının Türkiyənin Dərgi Park elektron baza reyestrinə daxil edildiyini, hazırda bu siyahının genişləndirilməsi istiqamətində tədbirlərin davam etdirildiyini söyləyib. Bundan əlavə, akademiyada işıq üzü görən 31 jurnalın elektron bazasının yaradılması istiqamətində AMEA-nın Rəyasət Heyəti aparatının "Elektron Akademiya" şöbəsinin tədbirlər gördüyünü bildirib. Qeyd edib ki, jurnalların elektron resurslarının zənginləşdirilməsi gələcəkdə həmin nəşrlərin beynəlxalq bazalarda xülasələndirilməsinə meydan açacaq.

Akademik İsa Həbibbəyli Mahmud Kaşğarinin "Divanü lüğat-it türk" əsərinin 950 illiyi ilə əlaqədar Xalid Səid Xocayevin tərcüməsi əsasında AMEA-nın Dilçilik İnstitutu tərəfindən çap olunmuş lüğətin yeni nəşrinin UNESCO səviyyəsində təqdimatının keçirilməsinin akademiyanın 80 illik tarixində nadir hadisələrdən biri olduğunu deyib.

İclasda çıxış edən AMEA-nın Humanitar Elmlər Bölməsinin Elmi şurasının sədrinin müavini, akademik Teymur Kərimli bölmə əməkdaşlarının 2024-cü ildə səmərəli fəaliyyət göstərdiklərini əsaslandırıb. "Yaşıl dünya naminə həmrəylik ili" və dövlət başçısının sərəncamlarından irəli gələrək bir çox işlər görüldüyünü vurğulayıb.

Daha sonra Humanitar Elmlər Bölməsinin elmi katibi filologiya üzrə fəlsəfə doktoru Arzu Məmmədxanlı bölmənin hesabatını təqdim edib. Diqqətə çatdırıb ki, 2024-cü ildə HEB-in elmi müəssisələrdə 34 problemə aid 71 mövzuya dair 437 tədqiqat işi, 104 mərhələ aparılıb, 11 mövzu, 259 iş, 100 mərhələ tamamlanıb. O qeyd edib ki, 2024-cü ildə bölmə əməkdaşlarının 140 kitabı (7-si xaricdə), 60 monoqrafiyası (8-i xaricdə), 1828 məqaləsi (430-u xaricdə), 345 tezisi (157-si xaricdə), 11 dərslik, dərs vəsaiti və elmi-kütləvi nəşri çap edilib, bu məqalələrdən 20-si "Web of Science" və "Scopus" bazalarına daxil olan impakt faktorlu jurnallarda dərc olunub, əməkdaşların əsərlərinə 384 istinad qeydə alınıb.

Humanitar Elmlər Bölməsi tərəfindən "Yaşıl dünya naminə həmrəylik: COP29-un çağırışları və humanitar elmin vəzifələri", "Klassik divan ədəbiyyatında bitki obrazı", "Azərbaycan folklorunda təbiət kultu", "Memarlıq və incəsənətdə yaşıl dünya" mövzusunda konfranslar, "Əlyazmalarda təbiət motivləri və nəbati elementlər" adlı sərgi təşkil edilib, "Ekolinqvistika: Oğuz qrupu türk dillərində flora və fauna leksikası" və "Ekolinqvistika: oğuz qrupu türk dillərində relyef və iqlim leksikası" kitabları çap olunub.

Məruzəçi, həmçinin yubileylər, "Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında" dövlət başçısının sərəncamları çərçivəsində görülmüş işləri diqqətə çatdırıb. Qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə əlaqədar 4 kitab çap olunub, 4 tədbir təşkil edilib, dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyi ilə bağlı 11 kitab, 3 konfrans materialı və "Azərbaycan ədəbiyyatşünaslığı" jurnalının xüsusi buraxılışı işıq üzü görüb, 2 beynəlxalq və 4 respublika konfransı, 1 simpozium, 1 konfrans və 1 tədbir keçirilib. Bundan əlavə, Məhəmməd Əmin Rəsulzadənin 140 illiyi ilə əlaqədar 2 kitab nəşr olunub, 4 tədbir təşkil edilib, "Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı isə 5 kitab çapdan çıxıb, 1 konqres, 1 respublika konfransı və 2 elmi sessiya keçirilib.

Qərbi Azərbaycana qayıdış çərçivəsində isə bölmənin əməkdaşları tərəfindən çoxsaylı lüğət, kitab", elmi araşdırmalar toplusu nəşr olunub, 2 respublika konfransı təşkil edilib.

Bundan əlavə, məruzəçi AMEA-nın İraq–Türkman Araşdırmaları üzrə Əlaqələndirmə Şurasının fəaliyyətinə də toxunub, professor Qəzənfər Paşayevin Rəyasət Heyətinin iclasında "Azərbaycan İraq-türkman araşdırmaları: yekunlar və vəzifələr" mövzusunda elmi məruzəsinin dinlənildiyini, "İraq-türkman folklor mühitinin çağdaş durumu", "Çağdaş türkman ədəbiyyatı" mövzusunda elmi seminarların keçirildiyini deyib, nəşrlər və s. haqqında məlumat verib.

Həmçinin bölmə əməkdaşlarının elmmetrik göstəriciləri təqdim edilib, kadr potensialı və kadr hazırlığı, elmin populyarlaşdırılması istiqamətində atılan addımlar, bölmənin elmi jurnalları, beynəlxalq əməkdaşlıq və təltiflər və s. barədə məlumatları diqqətə çatdırılıb.

Hesabat ətrafında Milli Məclisin deputatı, filologiya elmləri doktoru Elnarə Akimova, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə və filologiya elmləri doktoru Sərxan Xavəri çıxış edərək Humanitar Elmlər Bölməsinin 2024-cü ildəki fəaliyyətini yüksək qiymətləndirib, bir sıra təkliflərini səsləndiriblər.

***Ə.ƏLİYEV***
***XQ***

## Ötən ilə baxış

**Bütün dünyaya səpələnmiş azərbaycanlıların birliyi, həmrəyliyi xüsusi əhəmiyyət daşıyır. Azərbaycan dövlət müstəqilliyini elan edəndən sonra bu əlaqələr daha da güclənib. Diasporla İş üzrə Dövlət Komitəsi bu sahədə əsas körpü rolunu oynayır. Komitə xaricdəki soydaşlarımızın həyatı, icmaların fəaliyyəti ilə yaxından maraqlanır, mümkün olan qayğını, diqqəti onlardan əsirgəmir, əlaqələri layiqincə koordinasiya edir. Bu, Azərbaycan haqqında dolğun məlumatların dünya ictimaiyyətinə çatdırılması, milli maraqlarımızın təmin olunması baxımından böyük önəm daşıyır.**

# Azərbaycan diasporu milli maraqların cazibəsində



Diaspor nümayəndələrimiz müasir texnologiyalardan istifadə edərək yaşadıqları ölkələrin ictimai rəyinin formalaşmasında petisiyalardan və yeni lobbiçilik vasitələrindən bacarıqla istifadə edirlər. DİDK-nin təşkilatçılığı ilə 2024-cü ilin yekunlarına həsr olunan, 85 ölkədən 1000-ə yaxın soydaşımızın iştirak etdiyi videokonfransda bütün bunlar barədə ətraflı danışılıb.

Komitədən verilən məlumata görə, videokonfransda xaricdəki Azərbaycan Evlərinin, Koordinasiya Şuralarının, həftəsonu məktəblərinin nümayəndələri, dünyanın nüfuzlu ali məktəblərinin, elmi mərkəzlərinin azərbaycanlı alim və professorları, müxtəlif sahələri təmsil edən nüfuzlu şəxslər, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Konfransda giriş sözü ilə çıxış edən DİDK sədri Fuad Muradov Azərbaycan dövlətinin diaspor siyasəti, ötən il reallaşdırılmış layihələr barədə məlumat verib. O, diaspor quruculuğunun uğurla davam edən yeni və mühüm mərhələsindən danışıb, bu sahəyə töhfələr verən soydaşlarımıza təşəkkür edərək. bildirib ki, bu gün dünya azərbaycanlıları bir yumruq kimi birləşib, ölkəmizin xaricdə nüfuzunun daha da artırılması üçün mühüm addımlar atır, hər zaman Azərbaycanın yanında olduqlarını və dövlət başçısının siyasətini dəstəklədiklərini bəyan edirlər. Komitə sədri qeyd edib ki, bu gün ölkəmizi dünyada layiqincə təmsil edən yüzlərlə soydaşımızın bir yerdə olması onların ürəklərimizin hər zaman dövlətimizlə bir vurmasının göstəricisidir və bu, güclü Azərbaycanın güclü diasporunun formalaşdığının ən bariz nümunəsidir.

Komitənin və Azərbaycan diasporunun illik fəaliyyətinə dair qısa videohesabatın təqdimatından sonra ilin yekunları ilə bağlı geniş və maraqlı fikir mübadiləsi aparılıb, nəticələr təhlil olunub. Ötən il diaspor quruculuğu sahəsində qazanılmış saysız uğurlardan danışan soydaşlarımız birlik və bərabərliyin təmin olunmasını, diasporun inkişafı ilə bağlı çevik mexanizmlərin yaradılması yolunda görülən işləri, həyata keçirilən layihələri təqdir edib, diaspora çoxistiqamətli yanaşmaların perspektivləri ilə bağlı təkliflərini səsləndiriblər.

Çıxış edənlər milli maraqlarımızın beynəlxalq aləmə çatdırılması sahəsində ildən-ilə daha sistemli yanaşmanın formalaşdığına diqqət çəkiblər. Belə geniştərkibli konfransın təşkil olunmasının icmalararası münasibətlərin inkişafına təkan verdiyini nəzərə çatdırıblar. Ənənə halını alan videokonfransı diaspora müasir konseptual yanaşmanı formalaşdıran güclü siyasi platforma kimi qiymətləndiriblər.

Konfrans boyu xarici ölkələrdə yaşayan azərbaycanlı musiqiçilərin ifaları səslənib, icma üzvlərinin, Azərbaycan Evlərinin və həftəsonu məktəblərinin kollektivlərinin hazırladığı videomateriallar nümayiş olunub. Hər bir ifa, hər bir videomaterial iştirakçıların zövqünü oxşayıb və sürəkli alqışlarla qarşılanıb.

Videokonfransda Azərbaycan diasporunun fəaliyyətinə mühüm töhfələr verən bir qrup soydaşımız "Diaspor fəaliyyətində xidmətə görə" AR medalı ilə təltif olunub.

Konfrans iştirakçıları Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya dünya azərbaycanlılarına göstərdikləri həssas münasibət və qayğıya görə minnətdarlıqlarını bildirib, hər zaman doğma Azərbaycanın sevincinə sevinib, kədərinə şərik olacaqlarını bəyan ediblər.

Videokonfrans icma üzvlərinin suallarının cavablandırılması ilə yekunlaşıb.

***Ə.DOSTƏLİ***
***XQ***

# Azərbaycan "Ulduz"u Türkiyənin "Gənc ürəklər"ində

**Azərbaycan Yazıçılar Birliyinin (AYB) mətbu orqanı olan "Ulduz" jurnalının xüsusi buraxılışı qardaş Türkiyənin Ankara şəhərində, "Gənc ürəklər" dərgisində oxuculara təqdim edilib.**

"Gənc ürəklər" dərgisinin 14-cü (Qış, dekabr–yanvar–fevral 2025) sayında "Ulduz" jurnalının təqdimatı ilə azərbaycanlı şair və yazarların əsərləri yer alıb.

"Ulduz" jurnalının baş redaktoru, Əməkdar jurnalist, şair Qulu Ağsəs "525-ci qəzet"ə açıqlamasında deyib ki, "Gənc ürəklər" dərgisinin baş redaktoru Muhterem Şahin ötən ilin yayında "Ulduz" jurnalını görüb və jurnalın redaksiya heyətinin üzvü Rəsmiyyə Sabirdən nəşr haqqında soruşub: "Sonradan biz Muhterem bəylə onlayn şəkildə əlaqə saxladıq, tanış olduq. Söhbətimiz zamanı təklif etdim ki, biz "Gənc ürəklər" dərgisinin bir sayını Azərbaycanda çap edək, onlar da "Ulduz"un bir sayını Ankarada çap etsinlər. Razılıq əldə olundu və yazılar toplanmağa başladı. 2024-cü ilin sentyabr ayında biz "Gənc ürəklər" dərgisinin xüsusi buraxılışını Azərbaycanda- "Ulduz" jurnalında çap etdik. "Bir millət, iki dövlət" devizindən çıxış edərək, yazıların Azərbaycan türkcəsinə uyğunlaşdırılmasına ehtiyac görmədik, necə göndərilmişdisə, elə də çap olundu.

Sonra isə Azərbaycandan yazıları toplayıb Muhterem Şahinə yolladıq. Bir neçə mərhələdən keçdikdən sonra, nəhayət, "Ulduz" jurnalının Ankaradakı xüsusi sayı çap olundu. Bu, hər birimiz üçün çox sevindirici haldır. Əsasən də ona görə ki, bu, bir ilkdir. İlk dəfə Azərbaycan dərgisi Türkiyədə olduğu kimi çap edilir, eləcə də Türkiyədəki dərgi Azərbaycanda olduğu kimi yayımlanır. Burdakı proses orada da oldu. Yəni əsərlər Azərbaycan türkcəsində olduğu kimi yayımlandı. Bu yaradıcı əməkdaşlığımızın davamlı olmasını arzulayıram. Muhterem bəylə danışıqlarımız davam edir. İstərdim ki, ayrıca olaraq Azərbaycanın gənc yazarlarına həsr olunmuş xüsusi buraxılışı da Ankarada çap etdirək".




"Ulduz – Gənc ürəklər qardaşlığı daim olsun" devizi ilə çap olunan xüsusi buraxılışın ilk məqaləsində baş redaktor Muhterem Şahin yazır:

"Dərgimizin bu sayında "Ulduz"dan gələn 39 əsəri Azərbaycan türkcəsində olduğu kimi yayımlayırıq. Buradakı məqsədimiz Azərbaycandakı dostlarımızın Türkiyə türkcəsiylə, Türkiyədəki qardaşlarımızın da Azərbaycan türkcəsiylə bir yazını, şeiri, hekayəni, esseni oxumaqlarına şərait yaratmaqdır. Azərbaycan türkcəsi ilə Türkiyə türkcəsi bir-birinə o qədər yaxındır ki, anlamamaq mümkün deyil. Bəlkə bir neçə kəlməni başa düşməkdə çətinlik çəkə bilərsiniz. Ləhcələr arasında belə kiçik fərqlər ola bilər, mümkündür. Onları da öyrənəcəyik, öyrənməliyik".

***XQ***

# Böyük Hacı böyük ekranda

**Nizami Kino Mərkəzində Azərbaycanın öndə gedən şəxsiyyətlərindən olan xeyriyyəçi, maarifçi və ictimai xadim Hacı Zeynalabdin haqqında çəkilmiş "Tağıyev" sənədli filminin qala gecəsi keçirilib.**



Filmin rejissoru M. Abdulqafur Şahin, prodüsseri və məsləhətçisi Yavuz Kerimoğlu, icraçı prodüsseri Berat Arıkan, operatoru isə Celal Topçudur. Sənədli filmdə tarixçilər – Ədalət Tahirzadə, Akif Aşırlı, Azər Hüseynov, Fərhad Cabbarov, Elvüsal Məmmədov, Firdovsiyyə Əhmədova H.Z.Tağıyev və onun dövrü haqqında dəyərli fikirlər səsləndiriblər.

"Damla" aztəminatlı ailələrə qayğı İctimai Birliyi və "İHH" İnsani Yardım Vakfının əməkdaşlığı nəticəsində "RUMMAN" film şirkəti tərəfindən çəkilmiş bu əsər XIX əsrin ortaları–XX əsrin əvvəllərində xeyriyyəçilik failiyyəti ilə Azərbaycan xalqının milli yaddaşında əbədiləşən və Vətən naminə "böyük quruculuğun" təməlinə təmənnasız imza atan Hacı Zeynalabdin Tağıyevin Azərbaycana xidmətlərinə həsr olunmuş əbədiyaşar işlərindən bəhs edir. Film onun elm, təhsil, mədəniyyət və milli şüurun formalaşmasındakı rolunu, sosial rifaha töhfələrini tamaşaçılara çatdırmağı hədəfləyib.

H.Z.Tağıyev xalqa xidmətləri ilə Türk dünyasının ortaq dəyərlərindən birinə çevrilmişdir. Bu film bir daha onu göstərir ki, insanlar öz keçmişini, onların tale yoluna işıq tutan dahi şəxsiyyətləri unutmamalı, gördüyü işləri gələcək nəsillərə çatdırmalıdır.

**Yavuz Kerimoğlu, "RUMMAN" film şirkətinin prodüsseri XQ-yə müsahibəsində deyib:**

– Biz keçmişimizi, dəyərlərimizi yaşadan filmləri həvəslə çəkirik. Bu cür sənədli filmlər vasitəsilə tarixdə iz qoymuş böyük insanları tanıtmaq borcumuzdur. Zaman keçir, tarixi şəxsiyyətlər unudulmur. Bu filmi pandemiya zamanı çəkmək istəsək də, alınmamışdı. İndi sənədli filmi çəkib təhvil verdik.

***Fidan SALMANOVA***
***XQ***

# Milli kitabımız Misir Beynəlxalq Sərgisində

**Qahirədə 56-cı ənənəvi Qahirə Beynəlxalq Kitab Sərgisi öz işinə başlayıb. Sərgiyə 80 ölkədən 1300-dən artıq nəşriyyat qatılıb. Misirdəki səfirliyimizin dəstəyi ilə sərgidə ölkəmizin kitab stendi yaradılıb.**

Misirin bir sıra nazirliklərinin rəhbərləri, xarici ölkə səfirliklərinin nümayəndələri, Azərbaycanın Misirdəki səfiri Elxan Poluxov, həmçinin səfirliyimizin digər əməkdaşları sərginin açılışında iştirak ediblər.



Azərbaycana dair yeni nəşr olunan qiymətli kitabların nümayiş olunduğu milli stendi Misirin vəqflər naziri Usamə əl-Əzhəri və mədəniyyət naziri Əhməd Fuad Henno ziyarət ediblər. Onlara ölkəmizin tarixi, mədəniyyəti ilə bağlı geniş məlumat verilib.

Fevralın 5-dək davam edəcək sərgi çərçivəsində 600 mədəni tədbirin, o cümlədən simpoziumların, uşaqlara həsr olunmuş təqdimatların keçirilməsi planlaşdırılır. Stendimizdə nümayiş olunan nəşrlər sonda kitab həvəskarlarına hədiyyə olunacaq.

Qeyd edək ki, 1969-cu ildən keçirilən Qahirə sərgisi Frankfurt sərgisindən sonra dünyada ən böyük kitab bayramı hesab edilib. Ötən il sərgini 5 milyona yaxın insan ziyarət edib.

***XQ***

Beynəlxalq həyat

# Tramp: Neftin aşağı qiyməti Ukrayna savaşına son qoyacaq

(əvvəli 1-ci səhifədə)

Tramp çıxışında Amerika iqtisadiyyatının böyük həcmdə xarici investisiyalar gözlədiyini də bildirib. "Mesajım aydındır: gəlib mallarınızı Amerikada hazırlayın. Əks halda, idxal olunan məhsullara rüsumlar tətbiq olunacaq. ABŞ iş yerləri yaratmaq və yeni fabriklər tikmək üçün ən yaxşı yerdir", – o, deyib.




Səudiyyə Ərəbistanı artıq ABŞ-a 600 milyard dollar sərmayə qoyacağını açıqlayıb. Lakin ABŞ Prezidenti hesab edir ki, bu rəqəm 1 trilyon dollara çatdırılmalıdır. Çünki onun dediyi kimi, ABŞ Səudiyyə Ərəbistanına "çox mehriban" olub. Tramp əmindir ki, Ər-Riyad investisiya ilə yanaşı, neft hasilatını da artıracaq və yanacağın ucuzlaşmasında rol oynayacaq.

Bu, Vaşinqtonun neftin qiymətinin aşağı salınması ilə bağlı ilk müraciəti deyil. Noyabrda ABŞ-ın hazırkı milli təhlükəsizlik müşaviri Mayk Uolts "NPR"yə müsahibəsində enerji təzyiqi vasitəsilə Moskvanı danışıqlar masasına gətirməyi təklif edib. O qeyd edib ki, indi Rusiya Ukraynada genişmiqyaslı münaqişəyə başlamazdan əvvəlkindən daha çox neft və qaz satır. 2024-cü ildə Çin Rusiyadan rekord həcmdə –108 milyon 500 min ton neft alıb.

"Financial Times" qəzeti yazıb ki, Tramp qiymətləri aşağı salmaq və yerli neft hasilatını artırmaq üçün Amerika istehsalçılarını məhdudiyyətlərdən azad edəcəyinə söz verib: "Birləşmiş Ştatlar Yer kürəsinin istənilən ölkəsindən daha böyük neft və qaz ehtiyatlarına malikdir və biz onları istismar etmək niyyətindəyik. Dünyanı yüz illərlə enerji ilə təmin edə bilərik. Bu, nəinki faktiki olaraq bütün mal və xidmətlərin qiymətlərini aşağı salacaq, həm də ABŞ-ı istehsal sahəsində supergücə çevirəcək".

Vaşinqtonda əmindirlər ki, bu yolla həm də Moskvanın neft gəlirlərinə təsir edə biləcəklər. Tramp, hətta neft hasilatını artırmaq məqsədilə icazələrin verilməsini sürətləndirmək üçün enerji sahəsində fövqəladə vəziyyət elan etmək qərarına gəlib.

Trampın neftin qiymətinin aşağı salınması ilə bağlı müraciətinə münasibət bildirən Ukrayna Prezidenti Volodimir Zelenski bildirib ki, enerji resurslarına, xüsusən də neftin qiymətinə məhdudiyyətlər qoymaqla Rusiyanın danışıqlar masasına gətirilməsi sülhün, real təhlükəsizliyin ən vacib açarlarından biridir: "Güc vasitəsilə sülh mümkündür və biz buna tam əminik. Ən əsası, danışıqlar tepmi aşağı salınmamalı və Rusiyaya təzyiq davam etməlidir...Avropa enerji resursları məsələsində Rusiya ilə deyil, Amerika və digər qlobal tərəfdaşlarla daha sıx əməkdaşlıq etməlidir".

Beləliklə, yeni administrasiyanın strategiyası Moskvaya təsir etmək üçün Rusiya neft istehsalçılarına qarşı tədbirlərin sərtləşdirilməsini nəzərdə tutur. Döyüşlər dayanarsa, ABŞ neftçilərə qarşı bəzi "xoşməramlı jestlər" edə bilər.

Tramp Davosda çıxışı zamanı Ukraynadakı müharibəyə son qoymaq üçün yaxın vaxtlarda Rusiya Prezidenti Vladimir Putinlə görüşmək istədiyini də bildirib. "Mən, həqiqətən, bu müharibəyə son qoymaq üçün Prezident Putinlə tezliklə görüşmək istərdim. Bu, milyonlarla həyatın xilası nöqteyi-nəzərindən önəmlidir", – o, izah edib.

...Trampdan növbəti sammitdə yenidən çıxış edənə qədər Rusiya və Ukraynanın sülh razılaşmasına nail olacağına inanıb-inanmadığı soruşulub. "Bunu Rusiyadan soruşmalı olacaqsınız, Ukrayna razılaşmaya hazırdır", – ABŞ Prezidenti cavab verib.

O, ümid etdiyini bildirib ki, Çin onun ölkəsinə Rusiyanın Ukraynaya qarşı müharibəsini dayandırmağa kömək edəcək: "Pekin və Vaşinqton arasında münasibətlər "çox yaxşı"dır. Pekinin müharibəni dərhal dayandırması üçün Moskvaya təsir etməyə kifayət qədər gücü var. Biz bunu Çinlə birlikdə edəcəyik... Moskva Ukrayna ilə bağlı sövdələşməyə razı olmasa, daha ciddi sanksiyalarla qarşı-qarşıya qalacaq. ABŞ Moskvanın satdığı hər şeyə yüksək tariflər və sanksiyalar tətbiq edəcək. Ukrayna münaqişəsini asan və ya çətin yolla bitirmək olar. Mən asan yola üstünlük verirəm. Rusiyaya zərər vermək istəmirəm".

Rusiya tərəfi Trampın açıqlamalarını cavabsız qoymayıb. Prezidentin mətbuat katibi Dmitri Peskov təhdidlərə cavab olaraq bildirib: "Bilirsiniz ki, Tramp prezidentliyinin ilk iterasiyasında (dəfələrlə təkrarlamaq) ən çox sanksiya metodlarına müraciət edən ABŞ Prezidenti olub. Bu üsullar onun xoşuna gəlir. Əlbəttə ki, bütün ritorikanı, bütün bəyanatları çox diqqətlə izləyirik. Rusiya bərabər və qarşılıqlı hörmətə əsaslanan dialoqa hazırdır".

Xatırladaq ki, Rusiya tərəfi sanksiyaların ləğvini atəşkəs və danışıqlara başlamaq üçün əsas şərtlərdən biri kimi irəli sürüb. Moskva Ukraynanın NATO-ya daxil olmasını istisna edən zəmanət əldə etməyə çalışır. Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşko deyib: "Bu, bizim üçün Ukraynada münaqişə ilə bağlı mümkün razılaşmaların əsas elementlərindən biridir. Biz təkcə Ukraynanın NATO-ya üzvlüyünü hər hansı formada istisna edən hüquqi əhəmiyyətli güclü zəmanətlər əldə etməyə çalışmayacağıq, həm də bunun alyansın özünün siyasətinə çevrilməsində israr edəcəyik".

Qeyd edək ki, Trampın Davosda keçirilən Dünya İqtisadi Forumunda verdiyi açıqlamalardan sonra neft qiymətləri artımdan enişə keçib. Brent markalı neftin bir barelinin qiyməti yanvarın 24-ü səhər 5,31 faiz aşağı düşərək 78, 59 dollar/barel təşkil edib.

***P.ƏFƏNDİYEV***
***XQ***

# Şərq oyunu milli idmanın ön cəbhəsində yer alır

*Ölkəmiz cüdoda fərqli məktəblərlə təmsil olunur*

**Yeni Olimpiya dövrü ərəfəsində milli komandalarımızın gücləndirilməsi, Avropa, Dünya çempionatlarında, "Olimpiada-2028"də daha yüksək nəticələrin əldə edilməsi üçün görülən tədbirlər davam edir. Ötən Olimpiya Oyunlarında fərqlənərək komandamızın aktivinə qızıl medalları yazdıran cüdo yığmamızın bu istiqamətdə gördüyü işlər təqdirəlayiqdir.**







Azərbaycan Cüdo Federasiyası (ACF) milli komandaların bütün yaş kateqoriyalarında işini beynəlxalq standartlara uyğunlaşdırmaq və aşkarlanmış istedadların elit idmançı səviyyəsinə effektiv şəkildə keçidini təmin etmək məqsədilə məşqçilər heyətində bir sıra dəyişikliklər edib. Belə ki, Riçard Trautman kişilərdən ibarət milli komandanın baş məşqçisi kimi fəaliyyətini davam etdirməklə yanaşı, həm də yığmaların bütün yaş qrupları üzrə işin təşkilinə və koordinasiyasına nəzarət edəcək performans direktoru vəzifəsində çalışacaq.

Buna qədər gənclərdən ibarət seçmənin baş məşqçisi işləyən Elxan Məmmədov kişilərdən ibarət milli komandanın böyük məşqçisi vəzifəsinə təyin edilib. Eyni zamanda, Robert Kravçik də kişilərdən ibarət milli komandanın böyük məşqçisi olacaq. 2013-cü ildən məşqçilik fəaliyyəti ilə məşğul olan, indiyədək Polşa, Avstriya və Belçika milli komandalarında baş və böyük məşqçi kimi çalışan R.Kravçikin yetirmələri Avropa, Dünya çempionatlarının, Olimpiya Oyunlarının dəfələrlə mükafatçıları olublar.

Gənc oğlanlardan ibarət milli komandanın baş məşqçisi vəzifəsi isə indiyə qədər yeniyetmə oğlanlardan ibarət yığmaya rəhbərlik edən Rüstəm Alimliyə tapşırılıb. Yeniyetmə oğlanlardan ibarət milli komandanın baş məşqçisi isə bunadək həmin kollektivdə məşqçi kimi çalışan Emin İskəndərov olacaq.

Gənc və yeniyetmə oğlanlardan ibarət milli komandaların texniki və taktiki hazırlığının müasir standartlara uyğun təmin edilməsinə Kotaro Sasaki cavabdehlik daşıyacaq. Bu yığmalarda məşqçi kimi fəaliyyət göstərəcək Yaponiyanın məşhur "Tokai" Universitetinin məzunu olan K.Sasaki 2016-cı ildən ölkəsində, həmçinin Avropanın bir sıra klublarında məşqçi kimi çalışmaqla yanaşı, müəyyən müddət Polşa Cüdo Federasiyasında yeniyetmələrdən ibarət komandanın əsas məşqçisi, eləcə də Olimpiya heyəti və gənclərdən ibarət milli millinin köməkçi məşqçisi kimi fəaliyyət göstərib. K.Sasakinin yetirmələri böyüklər və gənclər arasında dünya çempionatlarının mükafatçıları olublar.

Qadınlardan ibarət milli komandanın baş məşqçisi Rəşad Məmmədovla qarşılıqlı razılaşma əsasında əməkdaşlığa son verilib. Onun yerinə Amina Abdullatif təyin edilib. 2006-cı ildən məşqçilik təcrübəsi olan A.Abdullatif daha əvvəl Fransanın gənclər və yeniyetmələrdən ibarət milli komandalarının məşqçisi vəzifəsində çalışıb. Son illərdə isə Fransanın Milli İdman İnstitutunda cüdo şöbəsinin rəhbəri kimi fəaliyyət göstərib. Onun yetirmələri böyüklər, gənclər və yeniyetmələr arasında dəfələrlə Dünya və Avropa çempionatlarının mükafatçıları olublar.

2016-cı ildən məşqçilik fəaliyyəti ilə məşğul olan almaniyalı Saşa Herkenrat-Vimar qadınlardan ibarət milli komandanın məşqçisi vəzifəsinə təyin edilib.

Azərbaycan Cüdo Federasiyasının icraçı vitse-prezidenti Rəşad Rəsullu yeni məşqçi təyinatları ilə bağlı açıqlama verib. O bildirib ki, bu dəyişikliklər qlobal səviyyədə rəqabət apara biləcək elit cüdo komandasının formalaşdırılması istiqamətində atılan mühüm addımdır. Vurğulanıb ki, milliyə cəlb edilən yeni xarici mütəxəssislərin hər biri fərqli cüdo məktəblərini təmsil edirlər. Bütün bunlar komandanın ən yaxşı təcrübələrdən istifadə imkanlarını genişləndirir. Bu, eyni zamanda, yerli məşqçilərin özlərini inkişaf etdirmələri üçün münbit şərait yaradır:

– Əminik ki, daha da gücləndirilmiş məşqçi heyəti federasiyanın qarşıya qoyduğu məqsədlərə çatmaq üçün öz dəyərli töhfələrini verəcək.

***Leyla QURBANOVA***
***XQ***

İnsanın sirli aləmi

# Yuxu – gerçəkliyin astar üzü

**Koppuş və şən homunkul (insanabənzər canlı) qorxu və ümidlərimizi, həyəcanlarımızı, həsrət və nisgilimizi, nigarançılıqlarımızı gecələr qayğısızcasına beynimizdə yuxu şəklində toxuyur.**

Ziqmund Freyd isə bu yuxu şifrəsini qırır, bu zaman homunkul şlyapasını çıxarıb öz rəqibi qarşısında təzim edir. Bu prosesə nağıl kimi deyil, gerçəklik kimi baxaq. Əlbəttə, bu, tipik XIX əsr antropomorfizmi idi. Psixoanalitik nüfuz insan beyninin yuxu bucağına çata bilmir. Bu xam sahədə araşdırmalar aparan Freyd belə bir qənaətə gəlmişdi ki, yuxular sıxışdırılmış arzuların təhrif olunmuş şəkildə gerçəkləşməsidir.

Roma epikürçülüyünün ən tanınmış nümayəndələrindən olan Lukresi "Cisimlərin təbiəti haqqında" poemasında yazır ki, "əgər kimsə bir işlə səylə məşğuldursa, özünü uzun müddət həmin işə həsr edirsə, yuxuda da eyni şeyləri edir".



İnsan həyatın mənası, yaradılışın səbəbiylə bağlı suallara cavab axtarır. Bəlkə elə bu sualların cavabı yuxularımıza sızır? Adi insanlarla sənətkarların yuxuları arasında böyük fərqlər var. Dəyərli şair dostum Səlim Babullaoğlunun "Ədəbi yuxular"ını oxuyandan sonra bu qənaətimdə sabitqədəməm.

Həyatımız yuxularımıza bu və ya digər şəkildə sızdığı kimi, yuxuların da həyatımıza müəyyən qədər təsiri olur. Yeniyetmə vaxtımda bir gün yuxuda gördüm ki, kənd yolunda maşın sürürəm. Halbuki, o vaxt heç maşın sürməyi bacarmırdım. Mənə maşın sürməyi heç kim öyrətməyib. Atamın maşını olsa da, heç vaxt maşın sürməyimi istəməyib. Sadəcə, ilk dəfə sükan arxasına keçib motoru işə salmışam və yola çıxmışam. Bütün həyatım boyu da belə olub. Qəribədir ki, ilk dəfə sürdüyüm maşın məhz yuxumda gördüyüm maşının eynisi idi. Bu məqam ilkin dövrlərin özünütəsdiq cəhdlərindən biri idi. Həmişə bu oxşarlığı izah etməkdə çətinlik çəkmişəm.

Sənət də yuxu kimi sürüşkən, ələgəlməzdir. Hər bir yazıçı subyektiv yaşantılarından yola çıxır. Ədəbiyyat təkcə özünüifadə vasitəsi deyil. Hər bir yaradıcı insanın içində həyatla, dünyayla bağlı sonsuz suallar yaranır. Bu suallara cavab tapmaq üçün sənətə üz tuturuq. Tarkovski yazır ki, sənətin funksionallığının əsasında idrak ideyası dayanır, bu təəssürat özünü katarsis şəklində büruzə verir.

İnsan bu dünyaya ona görə göndərilib ki, özünün zühurunu dərk etsin. İnsanın əbədi iztirabının mənbəyi də məhz budur. O, sonsuz sualların cavabını sənətdə axtarır. Sənət bu suallara tam mənada cavab verirmi? Hər kəsin öz cavabları, dünyanı, özünü dərketmə üsulları var. Amma...

Səməd Vurğun demiş, hələ ki: "Sirrini verməyir sirdaşa dünya".

İnsanın cövhərində mövcud olan eqosentrik mexanizm aramsız olaraq onu özünütəsdiqə məcbur və təşviq edir. Sənət məhz bu məqamda doğulur – yuxu ilə gerçəkliyin sərhədində.

***Kənan HACI,***
***yazıçı-publisist***

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının balansındakı bəzi əmlakların (aktivlərin) 25 fevral 2025-ci il saat 14.00-da müsabiqə yolu ilə satışa çıxarılması barədə

EL AN

**I. Lotlar üzrə satılacaq əmlaklar barədə məlumat:**

1.Qızıl-ziynət əşyaları.

Alqı-satqıda iştirak etmək istəyən şəxslər ən geci satış gününə bir gün qalmış "Aqrarkredit" QSC-nin baş ofisinə ərizə ilə müraciət etməlidirlər (Ünvan – AZ1065, Azərbaycan Respublikası, Bakı şəhəri, Qədirli küçəsi 125)

**II. Əmlakla, onun növü və parametrləri ilə tanış olmaq, alınması qaydası və müddəti:**

1. Qızıl-ziynət əşyalarını əldə etmək istəyən şəxslər 25 fevral 2025-ci il saat 14.00-da "Aqrarkredit" QSC-nin baş ofisi – Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125 nömrəli ünvanda yerləşən ofisində qızıl-ziynət əşyalarının çeşidi və onların satış qiymətləri ilə tanış ola bilərlər.

2.Eyni əşyaya iki və daha çox təklif irəli sürülərsə, əşya daha çox qiymət təklif edən şəxsə satılacaqdır.

Əlaqələndirici şəxs – Şahin Seyidov. Tel:050-235-99-90

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*Tabeliyindəki idarələr və gəmilər üçün müxtəlif növ əlvan metalların satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 30 yanvar 2025-ci il saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1263.

Ünvan – AZ1003, Bakı, M.Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 16 (30710) 25 yanvar 2025-ci il, şənbə

Yaşıl adalar

# Zaqatala – yurdun qızılgül çələngi

**Azərbaycanın ən gözəl, dilbər guşələrindən biridir Zaqatala. Buranı "Qızılgüllər diyarı" da adlandırırlar. Ən gözəl qızılgüllərin məhz Zaqatalada yetişdirildiyinə etiraz etməyə heç kimin dili gəlməz. Bu güllərin ətri, rahiyəsi çox uzaqlara yayılır. Qızılgüllər, çəmənlər, meşələr, çaylar bu torpağın hüsnünə sığal çəkir, hər kəsin ruhunu oxşayır.**



Xoşbəxtlikdən burada təkcə ana təbiət deyil, bu yurdun sakinləri də sadə, saf, əməksevər insanlardır. Onlar Zaqatalanın gözəlliyini qoruyub saxlamaq, şəhər və kəndlərinin daha da gözəlləşməsi üçün əllərindən gələni edirlər. Əlbəttə, dövlətimiz də bu xeyirxah işdə zaqatalalıların yanındadır.

Hörmətli oxucu! Budəfəki söhbətimiz respublikamızın ən qədim qoruqlarından olan Zaqatala Dövlət Təbiət Qoruğu barədədir. Qoruq 1929-cu ildə Zaqatala və Balakən inzibati rayonlarının ərazisində, Böyük Qafqaz sıra dağlarının mərkəz hissəsinin cənub mikroyamaclarında yaradılmışdır.

Ərazisi 23,844 hektardır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 17 oktyabr tarixli 370s nömrəli qərarı ilə Zaqatala və Balakən meşə mühafizəsi və bərpası müəssisələrinin torpaqları hesabına ərazisi genişləndiriləræk sahəsi 47.349 hektara çatdırılmışdır. Qoruq qonşu Gürcüstan Respublikası ilə həmsərhəddir.

Zaqatala Dövlət Təbiət Qoruğunun ərazisi meşələr, subalp və alp çəmənlikləri, yüksək sal qayalıqlardan ibarətdir. Böyük Qafqaz sıra dağlarının cənub yamaclarında, dəniz səviyyəsindən 650-3,646 metr hündürlükdə yerləşir. Yüksəklik artdıqca qoruğun iqlimi mülayim isti iqlimdən dağ tundrası iqliminə doğru dəyişir. Aşağı və orta dağ qurşaqları (800-2200 metr) fısdıq, vələs və palıd meşələri ilə örtülüdür, yüksəklik artdıqca isə bunlar subalp seyrəklikləri ilə, sonra subalp çəmənlikləri (2400 metr), daha sonra isə alp çəmənlikləri (3200 metrə kimi) və nəhayət, subnival və nival qurşaqları ilə əvəz olunur.

Zaqatala Dövlət Təbiət Qoruğunun ərazisi çox mürəkkəb və kəskin relyefə malikdir. Burada dağlar və yüksəkliklər dərin dərələr və daşlı-qayalı çay sahilləri ilə kəsilir. Qoruğun şimal hissəsində yerləşən dağlar şiş zirvəli sal qayalardan ibarətdir. Bu qayalar ilin çox vaxtı qar örtüyü altında qalır, cənub hissədəki günbəzvari dağlar isə alp çəmənlikləri ilə örtülü olur.

Qoruğun ərazisindən bolsulu Alazan çayı və onun qolları olan Katexçay və Balakənçay axır. Bu dağ çaylarının suyunun əsasını su ayrıclarında böyük miqdarda yağan qar və yağışlar təşkil edir. Çaylar orta dağlıq hissədə hündürlüyü 20 metrə çatan gözəl şəlalələr, keçilməz dərələr yaratmışlar.

Qoruqda 1000-dən artıq bitki növünə təsadüf edilir. Əsas meşə təşkil edən növlərdən fısdıq, palıd, vələs, cökə, göyrüş, şabalıd, qoz, qaraçöhrə, qarmaqvari şam və s. göstərmək olar.

Burada 32 növ məməli, 89 növ köçəri və oturaq quşlar yaşayır. Qoruqda Şərqi Qafqaz təkəsi, maral, qarapaça və çöl donuzu vardır.

1950-ci ildə qoruqda elmi-tədqiqat işlərinin aparılması məqsədilə xüsusi şöbə yaradılıb. Hazırda da fəaliyyət göstərir.

Burada qoruğun əməkdaşları və elmi-tədqiqat və tədris institutlarının alimləri tərəfindən beynəlxalq bioloji problemlər üzrə tədqiqat işləri aparılır.

Sonda yalnız bunu demək qalır ki, ölkəmizin şimal-qərb bölgəsi olan Zaqatala–Balakənin füsunkar təbiəti çox sayda yerli və xarici turistlərin diqqətini özünə cəlb edir. Bu cənnətmisallı yerləri görənlər "buralara mütləq bir də gələcəyəm" deyir. Bu yerlərin camaatı isə qonaqların gəlişinə həmişə seviniblər, diqqət və qayğılarını onlardan əsirgəməyiblər.

***MH ACIXANLI***
***XQ***

İdman

## Ölkələrin UEFA reytinqi

**Avropa Liqasının Liqa mərhələsinin VII turunda Bakıda Rumıniyanın FCSB klubuna məğlub olan (2:3) "Qarabağ" ölkənin əmsalına fayda verə bilmədiyi üçün Azərbaycanın mövqeyi dəyişməz qalıb.**




Hazırda ölkəmiz 19,625 xalla 28-ci yerdədir. Onunla eyni əmsala malik Bolqarıstan isə 27-ci yeri tutur. İngiltərə 55 ölkənin yer aldığı siyahıda (102.839) liderdir.

## Cüdoçularımız Avropanın video gündəmində

**Avropa Cüdo İttifaqı (EJU) Azərbaycan cüdoçuları Hidayət Heydərov və Zelim Kotsoyevin də çəkdirdiyi fotosessiyadan video hazırlayıb.**



Çəkilişlərə Avstriyanın Mittersill şəhərində təlim-məşq toplanışında olan Paris-2024 olimpiadasının qalib və mükafatçıları cəlb olunublar.

Əcnəbi həmkarları ilə birlikdə kimonoda və Olimpiya medalları ilə şəkil çəkdirən azərbaycanlı çempionlar Heydərov və Kotsoyevin də görüntüləri videoda yer alıb.

***LQ URBANOVA***
***X Q***

# Bakıda növbəti Beynəlxalq Kosmik Konfrans keçiriləcək

**Bu ilin 24–25 aprelində ölkəmiz növbəti beynəlxalq kosmik məclisə – Kosmik Texnologiyalar Konfransına evsahibliyi edəcək. Elmi toplantı Azərkosmosun "Dialogue Events Ltd." şirkəti ilə birgə əməkdaşlığı çərçivəsində təşkil ediləcək.**




Bu konfrans Mərkəzi Avrasiya regionunda kosmik sahənin inkişaf perspektivlərini müzakirə etmək, kosmik texnologiya və tədqiqat sahəsində yeni tendensiyaları nəzərdən keçirmək, bilik mübadiləsi aparmaq və yeni regional əməkdaşlıqların qurulması üçün nadir bir platformadır. Bu il tədbirin Azərbaycanda keçirilməsi ölkəmizin kosmik sahədə texnologiyaların vacib rolunu vurğulamaqla yanaşı, bu sahədə innovasiyaların və tədqiqatların təşviqində regional mövqeyimizi gücləndirmək üçün imkan yaradacaq.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin məlumatına görə, konfrans kosmos sahəsində 35 ölkədən 112 təşkilatı təmsil edən 400-dən çox iştirakçını bir araya gətirəcək. Bakı "STC-2025" konfransına Yaxın Şərq, Avropa, Asiya, Şimali və Cənubi Amerika, eləcə də Afrikadan iştirakçılar qatılacaq. Artıq dördüncü dəfə keçiriləcək "STC" konfransında kosmik agentliklərin liderləri, dövlət sektoru və özəl kosmik şirkətlərin nümayəndələri, investorlar, yerli və beynəlxalq media qurumlarının təmsilçiləri iştirak edəcəklər.

***Qəzənfər QASIMOV***
***XQ***

Hava

## Yağmursuz və dumanlı...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 25-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Lakin gecə və axşam bəzi yerlərdə az çiskinli olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Gecə 4-6°, gündüz 7-10° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunundan 770 mm civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi dağlıq ərazilərdə qısamüddətli yağıntılı olacağı, az qar yağacağı ehtimalı var.

Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1° şaxtadan 3°-dək isti, gündüz 8-13° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 2-7° isti olacaq.

***QQ ASIMOV***
***XQ***



# Bakıda "Çin Yeni ili"

**Azərbaycan paytaxtında Çinin bahar bayramı hesab olunan Yeni ili qeyd edilib. Bu münasibətlə Çinin Azərbaycandakı səfirliyi tərəfindən bayram tədbiri təşkil olunub.**

Təntənəli açılış mərasimində çıxış edən Çinin Azərbaycandakı müvəqqəti işlər vəkili Din Tao bildirib ki, Çinin Yeni ili bir çox cəhətdən Azərbaycanda qeyd edilən Novruz bayramını xatırladır, çünki hər iki bayramda ailə dəyərlərinə və ənənələrinə xüsusi diqqət yetirilir.

"2025-ci il Çin ay təqviminə görə İlan ilidir. Bir çox xalqların mədəniyyətində ilan sağlamlıq və müdriklik rəmzidir ki, bu da hətta Ümumdünya Səhiyyə Təşkilatının emblemində əks olunub. Əminəm ki, İlan ili bizə daha çox imkanlar və ümidlər gətirəcək", – müvəqqəti işlər vəkili bildirib.

***XQ***

# "Biləsuvarda istehsal olunub"

**Bu etiketlə məhsul buraxacaq yeni tikiş müəssisəsi Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin təşəbbüsü və dəstəyi ilə qurulub. Layihə bölgədə sahibkarlığın dəstəklənməsi və iqtisadi fəallığın artırılması istiqamətində həyata keçirilən uğurlu təşəbbüslərdən biridir.**



Fabrikdə istehsalat sahələri ilə yanaşı, işçilərin rahatlığı və iş proseslərinin səmərəli təşkili üçün mətbəx, ofis və anbar kimi müxtəlif infrastruktur obyektləri də mövcuddur. Bu, işçilər üçün müasir, təhlükəsiz və əlverişli iş şəraiti yaratmağa imkan verir.

İstehsal prosesləri isə yüksək keyfiyyət standartlarına cavab verən avadanlıqlarla təchiz olunub ki, bu da fabrikin məhsuldarlığını artıracaq və keyfiyyətli məhsullar istehsal etməyə imkan verəcək.

Fabrikdə ilk mərhələdə 15–25 nəfər işçi çalışacaq. Lakin yaxın gələcəkdə onların sayının 70–80 nəfərə çatdırılması nəzərdə tutulur.

***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2979
SİFARİŞ 142
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00